AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

“ZƏNGƏZUR” CƏMİYYƏTLƏRİ
İCTİMAİ BİRLİYİ



# OLEQ BABAK,
# AZƏRBAYCAN
# SƏNİ UNUTMAYACAQ!

OLEQ BABAK, AZƏRBAYCAN SƏNİ UNUTMAYACAQ!




ISBN 978-9952-8621-9-5



# OLEQ BABAK,
# AZƏRBAYCAN
# SƏNİ
# UNUTMAYACAQ!

**Bakı - 2026**

**Müəllif:** **Hacı Nərimanoğlu**

**Məsləhətçi:** **Vladimir Timoşenko** - istefada olan general-mayor, Ali Sovetin və Milli Məclisin keçmiş deputatı, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyətinin üzvü

**Rəyçi və redaktor:** **Razim Əliyev -** Qubadlı Rayon İcra Hakimiyyəti yanında İctimai şuranın sədri, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Qubadlı rayon təşkilatının sədri

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Zəngəzur” cəmiyyətləri ictimai birliyinin “Oleq Babak, Azərbaycan səni unutmayacaq!” layihəsi çərçivəsində hazırlanmışdır. Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Agentliyin rəsmi mövqeyini əks etdirməyə bilər.

**ISBN: 978-9952-8621-9-5**

# MÜNDƏRİCAT

Ön söz. Oleq Babakın kitabda əbədiləşən ömrü ................. 4
Qarabağ müharibəsinin tarixi kökləri ................................ 10
Qərbi Zəngəzurun Ermənistana verilməsi .......................... 14
Qubadlıda fövqəladə vəziyyət............................................ 29
Oleq Babak ən təhlükəli postda .......................................... 30
1991-ci il, 7 aprel ................................................................ 36
Oleq özünü köməyə yetirir.................................................. 38
Şahidlərin dedikləri ............................................................ 40
Rusiyalı jurnalist döyüşü belə yazır ................................... 50
Oleq qubadlıların yaddaşında.............................................. 55
O qəhrəman bizim Oleq Babakdır! ..................................... 60
Qubadlı I Qarabağ müharibəsində ...................................... 67
Prezident İlham Əliyev Qubadlıda ...................................... 81
Qəhrəman Oleq Babakın digər təltifləri ........................... 103
Gənc nəslə örnək qəhrəman ............................................. 106
Oleq Babak Viktoriyalıların yaddaşında ........................... 108
Oleqin fotolarda əbədiləşən anları .................................... 126
Azərbaycanlılar Ukrayna uğrunda döyüşlərdə.................. 132
Əsl dostluq darda sınanar .................................................. 140
Ukrainlərin Azərbaycandakı müdrik ağsaqqalı ................ 143
Təhlükəsizlik və əməkdaşlığın yeni arxitekturası............ 148
Oleq Babakın valideynlərinə dövlət və diasporumuzun qayğısı ................................................................................ 152
Azərbaycanın Ukraynaya humanitar yardımları ............... 160
Poltavada anım mərasimləri ............................................. 164
Müəllifdən son söz ........................................................... 174
İstifadə olunmuş ədəbiyyat .............................................. 187
Oleq Babak haqqında yazılanlar ...................................... 187

*Ön söz*

# OLEQ BABAKIN KİTABDA ƏBƏDİLƏŞƏN ÖMRÜ




Yazıçı-publisist, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlunun müəllifi olduğu “Oleq Babak, Azərbaycan səni unutmayacaq!” kitabı Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin donorluğu ilə “Zəngəzur” Cəmiyyətləri İctimai Birliyinin “Oleq Babak, Azərbaycan səni unutmayacaq!” layihəsi çərçivəsində Azərbaycan dilində hazırlanmış, həm də ukrain dilinə tərcümə edilmişdir.

Kitab 1991-ci il aprelin 7-də Qubadlı rayonunun Yuxarı Cibikli kənd sakinlərini separatçı erməni silahlı dəstəsinin hücumundan qoruyarkən hərbi vəzifə borcunu yerinə yetirərək həlak olan ukraynalı gənc leytenant Oleq Yakovleviç Babakın şərəfli ömür yoluna həsr edilib.

Oleq Babak 25 fevral 1967-ci ildə  Ukraynanın Piryatin rayonunun Viktoriya kəndində doğulub. SSRİ Daxili İşlər

Nazirliyinin Ali Siyasi Məktəbini bitirib, kursant ikən bir çox qaynar bölgələrdə sülhməramlı dəstələrin tərkibində özünü nümunəvi cəhətləri ilə tanıtmışdı. Rəsmi Moskva Ermənistanla və Qarabağın ermənilərin nəzarətində olan dağlıq hissəsi ilə 132 km sərhəddi olan Qubadlı rayonunda 1990-cı il yanvarın 15-də fövqəladə vəziyyət elan etmişdi. SSRİ Daxili İşlər Nazirliyinin Şuşa və Xankəndidə yerləşən 21-ci briqadasının bir batalyonu yanvarın 17-də Qubadlıya daxil oldu və rayonda komendant idarəsi yaradıldı. Xüsusi təyinatli briqadanın 11-ci bölüyünün siyasi hissə üzrə komandir müavini Oleq Babak Qubadlı rayonunun Azərbaycanla Ermənistan sərhəddindəki Yuxarı Cibikli postunda fövqəladə rejimin tətbiqinə məsul qrupun komandiri idi. O, qısa müddətdə bu və digər sərhəd kəndinin sakinləri ilə mehriban ünsiyyət qurmuşdu. Uşaqdan böyüyə hər kəs onu "Babək" deyə çağırırdı və Oleqin özü də Azərbaycan xalqının qəhrəman sərkərdəsinin ömür, döyüş yolu haqqında xeyli məlumat öyrənmişdi. İşğalçı ordulara qarşı 20 ildən çox savaşmış bu məşhur döyüşçünün adı ilə çağırılmaqdan məmnunluq hissi keçirirdi. Oleq ailəsində saxlanan məktublarda Azərbaycan xalqının mehribanlığı, qonaqsevərliyi, bu müharibəyə zorla cəlb olunduğundan yazır, erməni terrorçu dəstələrinin dinc sakinlərə qarşı xain hərəkətlərinin dözülməz olduğunu bildirirdi.

Silahlı erməni terrorçuları sovet hərbi dəstəsi gələnədək artıq Qubadlı rayonunun bir neçə kəndini talan, qarət edib yandırmış, 30-dan çox dinc sakini öldürüb, yaralayıb bir çoxunu da girov aparmışdı. Məqsəd isə həm də Ermənistanla sərhəd kəndlərini boşaltmaq, hündürülkdə yerləşən strateji məntəqələri ələ keçirmək, ərazilərini genişləndirmək idi.

1991-ci il aprelin 7-də çoxusu Ermənistan həbsxanalarından buraxılmış cinayətkarlardan ibarət 70-80 silahlı erməni terrorçusu postun yaxınlığındakı Qubadlı rayonunun Yuxarı Cibikli kəndinə bir neçə tərəfdən hücuma keçir. Meşə gözətçisi olan 20 yaşlı Şahin İlyas oğlu Hüseynovu amansızlıqla öldürür, dayısı oğlu Qərib Qulam oğlu Nəzərovu ağır yaralayıb girov götürürlər. Quldur dəstəsi mülki əhalini qırmaq, əsir, girov götürmək məqsədilə bir neçə tərəfdən kəndə hücuma keçir. Oleq güllə səslərini eşidib tabeliyindəki iki hərbi qulluqçu ilə köməyə gəlir, səsgücləndirici ilə terrorçu dəstəyə müraciət edib hərbi vəzifəsini yerinə yetirən zabit olduğunu bildirib onları dərhal hücumu dayandırıb geri çəkilməyə çağırır, qarşılığında isə özü də atəşə məruz qalır. Oleq yanındakı iki serjanta yaralı sakinlərin təhlükəsiz əraziyə çıxarılması barədə göstəriş verir, onların patron daraqlarını da götürüb azğınlaşmış dəstənin hücumunu dəf etməyə çalışır. Oleqin ilk sərrast atəşlərindən sonra qarşıdakı terrorçular yerli sakinləri onlara təhvil verib geri çəkilməyi, bunun müqabilində Oleqin və silahdaşlarının sağ qalacağına dair çağırışlar edirlər. Lakin Oleq son gülləsinə qədər terrorçularla döyüşür, bir neçə ağır yara alır, 20-dən çox terrorçunu məhv edir, bir nəfərin də əsir düşməsinə imkan vermədən onların təhlükəsiz əraziyə çıxarılmasına imkan yaradır, özü isə yaralı halda erməni terrorçuları tərəfindən xüsusi amansızlıqla qətlə yetirilir. Oleqin cansız nəşini terrorçular özləri ilə aparırlar.

Sovet hərbi kontigentinin hər iki tərəfdəki komandanlıqlarının apardığı danışıqlardan sonra Oleq Babakın meyidi alınıb Qubadlıya gətirilir, buradan Bakıya və Ukraynaya aparılır, doğulduğu kənddə dəfn edilir.

Bu sətirlərin müəllifi olaraq mən həmin dövrdə Qubadlı Rayon Partiya Komitəsinin ikinci katibi, Rayonu Müdafiə Şurasının rəhbərlərindən biri idim. Oleq Babakla dəfələrlə görüşüb söhbət etmişdik, bu yaraşıqlı gəncin səmimiyyəti, siyasi hazırlığı, xaraktercə mərd, qorxmaz olduğunu dərhal görüb hiss etmişdim.

Aprelin 7-si Yuxarı Cibiklidə döyüş getdiyini eşidən kimi dərhal mənim xidməti UAZ markalı maşınımla rayon mərkəzindəki sovet hərbi dəstəsinin rus komandiri və bir neçə hərbçi ilə hadisə yerinə gəldik. Oleqin bu döyüşdə göstərdiyi şücaət haqqında şahid olan hər kəsdən minnətdarlıq dolu məlumatlar eşitdik, yaralı olduğu halda qana bələnmiş nəşinin aparıldığını öyrəndik. Sərhəddin o tərəfindəki sovet qoşun hissəsinin komandanlığı da bu döyüşdə terrorçu erməni dəstəsinin çox sayda "saqqallı"sının məhv edildiyini, xeyli ağır yaralının olduğunu bildirdilər.

Danışıqlardan sonra Oleqin meyidi BTR-də gətirilib bizə təhvil verildi, mənim maşınımın arxa oturacaqlarını boşaldıb rayon mərkəzinə gətirdik, hərbçilərin və rayon sakinlərinin iştirakı ilə keçirilən mərasimdən sonra bir neçə silahdaşının müşayiəti ilə nəşini Vətəninə göndərdik.  Oleq 385-ci gün idi ki, Vətəndən uzaqlarda qaynar nöqtələrdə idi, 1 ay sonra məzuniyyətə buraxılacaqdı, 24 yaşı var idi.

Leytenant Oleq Babak hərbi vəzifəsini yerinə yetirərkən göstərdiyi cəsarət, qəhrəmanlıq və fədakarlığa görə ölümündən sonra SSRİ prezidentinin 17 sentyabr 1991-ci tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. O, bu adı alan axrıncı qəhrəmandır.

Hacı Nərimanoğlunun kitabında Oleq Babakın iki saatlıq son döyüşünün detalları, fiziki, siyasi, mənəvi hazırlığı haqqında olduqca canlı çizgilər qələmə alınıb. Oleqin uşaqlıq, orta, ali təhsil illəri, ailəsinə, dostlarına, yolunu gözləyən sevgilisinə, müəllimlərinə münasibəti təsirli boyalarla, sadə, oxunaqlı dildə təsvir edilib. Qəhrəmanın yaddaqalan portreti yaradılıb. Kitabı oxuyan hər kəsin qəlbində Oleq Babaka qarşı sevgi, ehtiram hissləri yaranır. Həm də qəlbimizdən acı təəssüf hissi keçir ki, artıq beşinci ildir ki, Oleqin doğulub böyüdüyü Ukrayna da Rusiyanın təcavüzünə məruz qalıb, minlərlə uşaq, gənc, qoca, qadın məhv edilir, abad şəhərlər, qəsəbə, kəndlər dağıdılır, xarabalığa çevrilir, on minlərlə insan yerindən, yurdundan didərgin düşür. Bu təcavüz nəticəsində Ukrayna vətəndaşı olan çox sayda azərbaycanlı gəncin, dinc sakinin də həyatını itirdiyi kitabda faktlarla əks olunur. Kitabın təsirli alınmasının bir səbəbi də odur ki, müəllif öz Qəhrəmanını görmüşdü, tanıyırdı.

"Oleq Babak, Azərbaycan səni unutmayacaq!" kitabında I Qarabağ müharibəsində konkret olaraq Qubadlı rayonunun timsalında Azərbaycanın yaşadığı faciələr, dövrün tarixi-siyasi şəraiti, 44 günlük müharibə və 23 saaat 40 dəqiqə davam edən lokal xarakterli anti-terror əməliyyatından sonra Vətənimizin çirkin separatçı qüvvələrdən azad edilməsi, ölkəmizin Dövlət Suverenliyinin bərpası prosesinə də nəzər yetirilir.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 28 il davam edən işğaldan azad edilən Qubadlıya ilk səfəri, burada səmimi görüşləri, tarixi çıxışının kitaba daxil edilməsi olduqca əhəmiyyətlidir. Xüsusən, gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsi, bu tarixi anlayıb dərk etməsi,

Böyük Zəfər və Qayıdışın siyasi, mənəvi möhtəşəmliyi, Azərbaycan-Ukrayna münasibətlərinin hazırkı səviyyəsi barədə məlumatları oxuyub dərk etməsi çox gərəklidir və kitabın məzmun və ideya dəyərini artırır.

40 ilə yaxın dövlət strukturlarında, o cümlədən 16 ildən çox Dövlət İnformasiya Agentliyi – AZƏRTAC-ın cəbhə bölgələri üzrə xüsusi müxbiri - “Zəngəzur”İnformasiya mərkəzinin direktoru, AZƏRTAC-da buraxılış redaktoru vəzifələrində çalışmış Hacı Nərimanoğlu 25 kitabın, onlarla elmi-publisistik məqalənin müəllifidir. Şəhidlər haqqında 5 kitabı çıxıb, 2008-ci ildən Azərbaycan, Türkiyə, Gürcüstan, Çexiyada bir çox uğurlu layihələr həyata keçirib.

“Zəngəzur” Cəmiyyətləri İctimai Birliyinin sədri Hacı Nərimanoğlunun “Oleq Babak, Azərbaycan səni unutmayacaq!” kitabını əminəm ki, həm Azərbaycan, həm Ukrayna oxucuları sevərək oxuyacaqlar.

Vətənpərvərlik ruhunda yazılmış kitabın donoru olan Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə xeyirli layihəyə maddi dəstəyinə görə təmsil etdiyim ictimai qurumun adından təşəkkür edirəm.

**Razim Əliyev,**
*Qubadlı Rayon İcra Hakimiyyəti yanında İctimai şuranın sədri, Azərbaycan Respublikasının Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Qubadlı rayon filialının sədri*

# QARABAĞ MÜHARİBƏSİNİN TARİXİ KÖKLƏRİ




XIX əsrin əvvəllərindən başlayaraq çar Rusiyası Azərbaycan torpaqlarının işğalını rəsmiləşdirən 1805-ci il Kürəkçay, 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra indiki İran və Türkiyə ərazilərindən erməniləri köçürüb tarixi Azərbaycan torpaqlarında yerləşdirməyə başladı. 1918-ci ildə 9 min kv.km ərazidə öz müstəqilliyini

elan edən Ermənistanın ərazisi bir neçə il sonra 29 min kv.km-ə çatdı. Həm çar Rusiyası, həm Azərbaycan Cümhuriyyəti, həm də Sovet Azərbaycanının ilk dövrlərində bütünlüklə Azərbaycanın tərkibində olmuş 7,8 min kv.km-lik Zəngəzur qəzasının 4,5 min kv.km ərasizi zorla qoparılaraq Ermənistana verildi. Bu proses sonralar da davam etdi, Qubadlı rayonuna bitişik olan, 1 erməninin də yaşamadığı Şahverdilər, Şurnuxu, Ağbulaq, Şamsız kəndləri Gorus rayonuna birləşdirildi. SSRİ-nin son illərində rəsmi Moskvanın (həm də Fransa, ABŞ, İran…və erməni diasporu) güclü siyasi, hərbi dairələri tərəfindən dəstəklənən Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, Qarabağın dağlıq hissəsini hərbi yolla qoparmaq uğrunda mübarizəsi qanunsuz erməni silahlı quldur dəstələrinin Qubadlının sərhəd, dağ kəndlərində terror, təxribatları ilə müşayiət olunurdu. Məqsəd Qafan-Gorus avtomobil



yolunun ətrafında yerləşən, hərəsində 30-50 ailə yaşayan kəndlərin sakinlərini qorxudub yer-yurdundan qovnb çıxarmaq, əhəmiyyətli strateji yüksəkliklərə tam sahib olmaq idi. Rəsmi Moskva sözdə sülh, qonşuluq, konstitusion qaydalar haqqında danışsa da, əslində Ermənistanın separatçı hərəkətlərinə göz yumur, açıq, gizli dəstək verirdi. Sərhəd bölgəsində yaşayan əhalinin əlində, evində olan qanuni silahlı ov tüfəngləri də polisin gücü, güzəştsiz inzibati tədbirləri ilə yığılmışdı və bu proses fövqəladə rejimin tətbiqindən az sonra ciddi inzibati tədbirlərlə sona yetirildi. Hətta, məktəblərdə hərbi hazırlıq dərslərində istifadə olunan silahlar, tir tüfəngləri də yığılmışdı. Gizlin saxlanan ov tüfənglərini üzə çıxarmaq da təhlükəli idi.

Rusiya həmişə Azərbaycanda amansız repressiyalar törədib, ikiüzlü münasibət göstərib; Qafqazı işğal edərkən gürcü, ermənilərdən fərqli olaraq müsəlman türklərə (azərbaycanlılara) qarşı xüsusi qəddarlıq göstərib, Gəncə, Bakı, Təbrizdə amansız qırğınlar törədib, 1905-1907, 1917-1918-ci illərdə erməni-müsəlman savaşı yaradıb, bu zaman ermənilərə hər cür yardım edib, Azərbaycan Cümhuriyyətini devirdikdən sonra 40 min nəfərlik milli ordunun demək olar bütün əsgər, zabit, generallarını öldürüb, aydın düşüncəli vətənsevər din xadimlərini, yazarlarını, müəllimlərini qətlə yetirib, ailələri ilə birlikdə sürgün edib, xalqın tarixi türk adını, əlifbasını dəyişib, saxta adla azərbaycanlılaşdırıb. II dünya müharibəsində rus-sovet qoşunlarının istifadə etdiyi neftin, yanacaq-sürtkü materiallarının 80 faizini verən, cəbhəyə gedən hər iki nəfərdən birini – 350 min nəfəri itirən xalqa qarşı Xocalı, Qaradağlı, 20 Yanvar faciələrini yaşadıb, indiki Ermənistan adlanan tarixi Azərbaycan torpaqlarının böyük bir hissəsini qoparıb



ermənilərə ərməğan edib, etnik zəmində türk-müsəlman əhalisini deportasiyaya məruz qoyub, Qarabağ və Zəngəzurun şərqinin işğalına, 28 il əsirlikdə qalmasına, sakinlərinin ağır müsibətlərinə rəvac verib. Bunlar və dünya supergüclərinin xristian təəssübkeşliyi ilə nankor qonşumuza hərtərəfli hərbi-siyasi dəstəyi xalqımızın əzmini qıra bilmədi; 2020-ci ilin sentyabr-noyabrında 44 gün davam edən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də aparılan 23 saat 43 dəqiqəlik lokal antiterror tədbirləri nəticəsində Ermənistan qanunsuz silahlı dəstələri tərksilah edildi, Azərbaycan öz suverenliyini tam bərpa etdi, tariximizə 8 Noyabr Zəfər Günü yazıldı. Ən başlıcası o oldu ki, dünya təkbətək, qabaq-qənşər savaşda ermənilərin azərbaycanlılar qarşısında nə qədər aciz, gücsüz, qorxaq olduğunu gördü.Ermənistan baş nazirinin dilindən çıxan bu söz dünya mediasında yayıldı; 44 günlük savaşda ermənilərdən azı 10 min fərari olduğu halda Azərbaycanda bir tək də belə hal olmadı.

# QƏRBİ ZƏNGƏZURUN ERMƏNİSTANA VERİLMƏSİ

Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, tarixçi professorumuzun KİV-də yayılan “Zəngəzurun Ermənistana verilməsi: mötəbər mənbələr nə deyir?” adlı yazısının ilk abzası belədir: ”Zəngəzurun Ermənistana verilməsi tarixi qısa olaraq aşağıdakı kimidir: Bakıda 1920-ci il noyabrın 4-də Azərbaycan K(b)P MK Siyasi Bürosunun və RK(b)P Qafbüronun üzvlərinin keçirilən birgə iclasında (protokol №4, 2-ci bənd) “Ermənistanda vəziyyət haqqında Leqran yoldaşın məruzəsi” müzakirə edildi.[1]

Ardınca da bu tarixdən sonrakı xronikaya nəzər yetirilir. Ancaq hörmətli professor heç xatırlatmır ki, mötəbər mənbələr Zəngəzurun Ermənistana verilməsinin əslində bundan əvvəl həll olunduğunu sübut edir. Bolşevik Rusiyası 1920-ci il aprelin 28-də Azərbaycanı asanlıqla istila edib öz hakimiyyətini qurmuşdu, Azərbaycanda söz, külli-ixtiyar sahibi, sükan rus bolşeviklərinin əlinə keçdi, əsas ssenarist, quruluşçu rejissor, baş rolun ifaçıları işğalçı qırmızı ordunun komandirləri İ.V.Stalin, S.M.Kirov, Q.K.Orconikidze, M.K.Levandovski, A.İ.Mikoyan, V.Pankratov və b. idilər və Zəngəzurun Azərbaycandan qoparılıb ermənilərə verilməsi tarixinin xronikası professorun göstərdiyi 1920-ci il noyabrın 4-də Azərbaycan K(b)P MK Siyasi Bürosunun və RK(b)P Qafbüronun üzvlərinin birgə iclasından daha əvvəl başlayır. Xronika belədir:

---

[1] https://azertag.az/xeber/Zengezurun_Ermenistana_verilmesi_moteber_menbeler_ne_deyir-1755703).

10 iyun 1920-ci il tarixdə RSFSR-lə Ermənistanı arasındakı bağlanmış hərbi-siyasi müqavilənin 3-cü maddəsində məxsusi yazılmışdı: «Rusiya hökuməti İrəvan quberniyasının, Zəngəzur qəzasının Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır».

Bu barədə rus, erməni, azərbaycan mətbuatı ilə yanaşı Fransanın paytaxtı Parisdə çıxan "L,OEUVRE" qəzetinin 1920-ci il 1 iyul tarixli nömrəsində də materiallar dərc olunmuşdu. "Entre Russes et Armeniens" başlıqlı məqalədə yazılırdı: "Rusiya Zəngəzuru erməniləşdirdi. Ermənistan Respublikası ilə Azərbaycanın tatarlar (azərbaycan türkləri) yaşayan bölgəsinin Ermənistana verilməsi barədə müqavilə imzalandı."

1920-ci il 10 avqustda Rusiya K(b)P-nin Qafqaz Bürosu öz qərarı ilə Azərbaycan türklərinin tam əksəriyyət təşkil etdiyi Şərur-Dərələyəz bölgəsinin Ermənistana verilməsi bərədə qərar çıxarmış, Qarabağ və Zəngəzuru isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan etmiş, yəni bu torpaqların da ermənilərə peşkəş edilməsinin siyasi-hüquqi əsasını hazırlamışdı. Yəni Zəngəzurun Ermənistana verilməsi 1918-ci il aprelin 28-də bolşevik Rusiyasının Azərbaycana hərbi təcavüzü, qanuni Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini devirməsi, Rusiyanın çarizm dövründə olduğu kimi, Qafqazda yenidən hər şeyi öz işğalçı imperiya, müstəmləkə, anti-türk, xristian təəssübkeşliyinə əsaslanan dəyişməz siyasətinə uyğun təkbaşına həll etməsinin nəticəsi idi.

Bakıda 1920-ci il noyabrın 4-də Azərbaycan K(b)P MK Siyasi Bürosunun və RK(b)P Qafbüronun üzvlərinin birgə

iclasında (protokol №4, 2-ci bənd) "Ermənistanda vəziyyət haqqında Leqran yoldaşın məruzəsi" müzakirə edildi.

İ.Stalin Bakıda AK (b)P MK və Bakı komitəsinin 1920-ci il 9 noyabr tarixli birgə plenumunda – RK(b)P MK Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi, Bakı Soveti və s.-nin nümayəndələrinin iştirakı ilə birgə «Zəngəzur məsələsi»nin müzakirəsi zamanı söyləmişdi: «əgər Zəngəzur və Naxçıvanın kimə məxsus olmasını bilmək istəyirlərsə, onları Ermənistanın indiki hökumətinə vermək olmaz, orada Sovet hökuməti yaranarsa, vermək olar». Onun belə bir mövqeyini bir sıra digər mülahizələrlə yanaşı, həm də «Mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm. Kommunistlərin bir hissəsinin digərindən müstəqilliyi ola bilməz» kimi məkrli fikri ilə izah etmək mümkündür. Rusiya bolşevikləri Azərbaycan-Ermənistan münasibətlərində birmənalı şəkildə erməniləri dəstəkləyirdilər.

1920-ci il noyabrın 30-da keçirilən Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərar da mürtəce oldu. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi – əhalisinin guya kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölündü. Bu «tarixi» qərarları verənlərin tərkibinə də mütləq diqqət yetirilməlidir; S.Orconikidze, Sarkis-S.Ter-Danielyan, Y.Stasova, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov və b. Həmin iclasda 3-cü məsələ kimi «Ermənistan İnqilab Komitəsinin Ermənistanda Sosvet hakimiyyətinin elan olunması haqqında teleqramı» müzakirə edilmiş və qərar çıxarılmışdı. Həmin qərarın «v» bəndində yazılmışdı: "Sovet Azərbaycanı ilə Sovet

Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir”. İclasın və qərarın, demək olar ki, başlıca məqsədi onun mərkəzi bəndində («q») öz əksini tapmışdı. Orada deyilirdi ki, Zəngəzur və Naxçıvan Ermənistana keçir. Digər bəndlərdə isə yazılırdı: d). Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir; e) Sovet Azərbaycanı Sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən, neft haqqında göstərilsin). «J» və «İ» bəndlərində isə N.Nərimanova bütün bunlar barədə Bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək tapşırılırdı.

1920-ci il dekabrın 1-də Bakı Sovetinin məxsusi olaraq Ermənistanda Sovet hakimiyyəti qurulması münasibətilə keçirilən təntənəli «tarixi» iclasında N.Nərimanov xüsusi bəyanatla çıxış etdi: «Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın - kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanın bölünməz ərazisidir; Dağlıq Qarabağın əməkçi kəndlərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir, Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; Sovet Azərbaycanın qoşunları isə buradan çıxarılırlar; Sovet Azərbaycanı malik olduğu tükənməz sərvətlərin - neft, kerosin və digər məhsulların qapılarını Sovet Ermənistanı üçün geniş açır....”


AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
1918–1920
ZƏNGƏZUR QƏZASI
CAVANŞİR QƏZASI
ŞUŞA QƏZASI
NAXÇIVAN QƏZASI
İRAN
1
2
Gorus
Qubadlı
Araz
1.Şərur-Dərələyəz qəzası
2.Cəbrayıl qəzası

Bakı Sovetinin həmin iclasının yekdilliklə qəbul olunan qətnaməsində «Nərimanovun Bəyanatı»nın tamamilə bəyənildiyi bildirilir və onun «...Ermənistanla müsəlman dünyası arasındakı çoxəsrlik düşmənçilik və qanlı müharibələri birdəfəlik aradan qaldırmaqla Güney Qafqaz və bütün Şərq xalqlarının tarixində yeni səhifə açdığı qeyd edilirdi».

Məhəmməd Əmin Rəsulzadə Stalin və Orconikidzenin Zəngəzurun ermənilərə verilməsinə dair "Nərimanov bəyanatı"na münasibəti maraqlıdır. İ.Stalin bu hadisəni belə «izah» etmişdi: «Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan, Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir». S.Q.Orconikidze Bakı Sovetinin həmin iclasındakı çıxışında «əzabkeş erməni xalqının» Sovet hakimiyyətinin bayrağı altına gəlməsini alqışlayaraq bu bəyanatı «bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt» kimi qiymətləndirmişdi. Həmin çıxışında o, Azərbaycanın strateji bölgələrinin əhəmiyyətini azaldaraq demişdi: «Zəngəzur, Naxçıvan və Qarabağ ruslar üçün heç nə deməkdir. Zəngəzur məhsulsuz dağlardır, taxılı yox, suyu yox, Naxçıvan bataqlıq və malyariyadan başqa bir şey deyildir, Qarabağda da heç nə yoxdur. Və budur yoldaş Nərimanov deyir: «Onları özünüzə götürün. Bu məhsulsuz torpaqları Ermənistan üçün götürün». Sanki Sovet Azərbaycanı artıq yükdən xilas olur». Q.Orconikidze elə həmin gün PK(b)P MK Qafqaz Bürosunun üzvü-erməni kommunistlərinin liderlərindən biri olan Nazaretyana məlum Bəyanat barədə xəbər yetirdikdə o, «mətbuatda «Bərəkallah, azərbaycanlılar!»- deyə car çəkməyə başlayacağıq - cavabını vermişdi. S.Orconikidze 1920-ci il dekabrın 2-də

Bakıdan V.Leninə və İ.Stalinə teleqramında «Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini rəsmən bəyan etmişdir» xəbərini çatdırmışdı.

M.Ə.Rəsulzadə Azərbaycan torpaqlarının ermənilərə verilməsinə dair yazırdı: «Ermənistanda dəxi bolşevik hökuməti təsis edər-etməz rus siyasəti Nəriman bəyin səxavətkar ağzı ilə iki gün əvvəl müdafiə eylədiyi Zəngəzur ilə Naxçıvan qəzasını təntənəli bir sürətdə Ermənistana hədiyyə etdi».

Rus bolşeviklər rus işğalına qarşı qəti mübarizə aparan Njde, Dro kimi generalların əsas söz, nüfuz sahibi olduğu Ermənistanı sovetləşdirməyin asan yolunu tapmışdılar- Azərbaycan torpaqları hesabına Ermənistanın "böyüdülməsi", ermənilərin şirnikləndirilməsi. Həm də 1918-ci ilin iyunundan başlayaraq Osmanlı ordusunun Azərbaycana hərəkəti, erməni, ingilis, rus silahlı qüvvələrini qovub Bakını və bütün Azərbaycanı xilas etməsi də Moskvanın yaddaşında idi, belə bir vəziyyətin təkrar olunma ehtimalını aradan qaldırmaq üçün Osmanlı dövləti ilə Azərbaycanın quru əlaqəsini kəsmək, ərazi bütövlüyünü parçalamaq lazım idi. Anadoluda 6 vilayəti birləşdirməklə müstəqil Ermənistan dövləti yaratmaq planları pozulan ABŞ, Böyük Britaniya, Fransa, Rusiyanın həmin ssenarinin Qafqaza - Azərbaycan türklərinin tarixi torpaqlarına keçirmək hesabına kompensasiya etməkdən razı qalacağı da nəzərə alınmışdı. Acı təəssüflər və yazıqlar olsun ki, rus bolşeviklərinin məxsusi hörmət izzətlə Həştərxandan XI qırmızı ordunun vaqonunda bəh-bəhlə Bakıya gətirib Xalq Komissarları Soveti sədri kürsüsündə oturtduğu nəcib insan,

istedadlı yazıçı, millətsevər Nəriman Nərimanov və ətrafındakılar erməni kommunist həmkarlarının sərgilədiyi qətiyyəti, siyasi iradəni göstərə bilmədi, müqaviməti zəif, yetərsiz oldu, rus-erməni planlarının Azərbaycanın və özlərinin başına gətirəcəyi faciələri vaxtında görüb dəyərləndirə bilmədilər.




Ancaq Zəngəzurun bütünlüklə Ermənistana birləşməsi ilk növbədə Zəngəzur camaatının, nüfuzlu bəy, din xadimləri, ziyalı, seyidlərin, hələ də öz əlində müəyyən qədər silahlı qüvvələri qoruyub saxlaya bilmiş qaçaqların, üzdə bolşevik kimi görünsə də daxilən vətənsevər, milli düşüncəli, Zəngəzurda dünənədək Həkri, Bərgüşad çaylarının sahil kəndlərindəki mülklərində nökərçilik edən gəlmə ermənilərin ağalığını qəbul etməyi xəyalına belə gətirməyən keçmiş bəylərin xidməti

idi. Bu barədə dəfələrlə faktlarla yazmışıq. Xatırlatmaqda yenidən fayda var.

Məhz bu amili nəzərə alaraq, mübahisəli elan edilmiş ərazilərdə əlavə gərginliyə yol verməmək üçün Moskvadan gələn təlimat üzrə, AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında «Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili» haqqında qərar qəbul edildi. Yenə yetərincə təsirli, istədikləri kimi olmadı, bir qismi eləcə kağız üzərində qalmışdı.

İrəvandan Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərindən N.Nərimanovun adına gələn 28 mart 1921-ci il tarixli, 477 №-li məxfi məktubda yazılmışdı: “Ermənistan KP MK-nin sədri sizdən xahiş edir ki, təcili olaraq Zəngəzur mahalının Azərbaycan hissəsinin Qubadlı qəzasından aşağıdakı əksinqilabçılar təcili olaraq geri çağırılsın: 1) Xudabaxış bəy Sultanov (İnqilab komitəsinin sədri), 2) Aslan bəy Sultanov (qəza milis idarəsinin rəisi), 3) Behbud bəy Sultanov (istintaq komissiyasının üzvü), 4) İsrafil bəy Sultanov (baş milis işçisi, yəni qəza milis idarəsinin cinayət axtarış şöbəsinin rəisi), 5) İsfəndiyar bəy Hocaxanski (qəza milis idarəsinin sahə müvəkkilləri şöbəsinin rəisi). Zəngəzurun bütün məsul şəxslərinin və şəxsən mənim xahişimə əsasən yenidən İnqilab Komitəsinin aşağıdakı tərkibdə təşkil olunmasını təklif edirik: İnqilab Komitəsinin sədri Nəzər Heydərov, onun yoldaşları Oruc Babayev, katib Canbin Möminov, milis rəisi Əli Şərifov. Onlar Xalq Daxili İşlər Komissarlığının mandatları ilə təmin edilsin və yoldaş Baqramova verilsin ki, adları çəkilən yoldaşlara təqdim etsin. Əsli ilə düzdür. MK Dəftər-

xana müdiri A. Karinçova". Bu məktub-tələb dərhal eynilə icra olunması üçün N.Nərimanovun dərkənarı ilə Xalq Daxili İşlər Komissarı Həmid Sultanova tapşırıldı və yerinə yetirildi, bununla da yuxarı Zəngəzurun ermənilərə verilməsi üçün ən böyük maneə olan rəhbər kadrlar əvvəl vəzifədən, sonra isə cismən aradan götürüldülər, yuxarı Zəngəzurun ermənistana birləşdirilməsi yolunda yaşıl işıq yandırıldı.




1921-ci ilin 3 iyununda RK[b]P MK Qafqaz Bürosu Stalinin iştirakı ilə iclas keçirib məxfi qriflə Zəngəzur məsələsini müzakirə etdi, Zəngəzurun Ermənistana birləşdirilməsi barədə qərara təkrar baxıldı. Bu iclasda bir nəfər də olsa azərbaycanlı, müsəlman yox idi. Əsas məqsəd yenə də cızılmış ssenarini başa çatdırıb reallaşdırmaq idi; Azərbaycanla Osmanlını bir-birindən ayırmaq, arada paz, kardon Ermənistanın ərazisini genişləndirmək, gücləndirmək, sözəbaxan Azərbaycanı zəiflətmək idi.

Zəngəzur qəzasının 6.742 kvadrat verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR-in tərkibində saxlandı, 3.637 kv.verstlik hissəsi - 4505 kvadrat kilometr ərazisi Ermənistana verildi.

Xatırladaq ki, XIX əsrin sonlarında, hətta indiki İran və Türkiyə ərazsisindən çarizmin müstəmləkə siyasətinə uyğun olaraq Qarabağa, o cümlədən Zəngəzura çox sayda erməni ailələrinin köçürülməsindən, ən münbit, səfalı torpaqlarda yerləşdirilməsindən sonra belə Zəngəzurda ermənilər həmişə azlıqda qalmışlar; qəzadakı 326 kəndin yalnız 81-də ermənilər yaşayırdı. 1 yanvar 1886-cı il tarixinə Yelizavetpol quberniyası əhalisinin qəzalar üzrə bölgüsündə Zəngəzurun sahəsi 6 644 verst, əhalisi 96 902 nəfər olmuşdur. 161 dövlət kəndindən 111-i müsəlman, yalnız 49-u erməni kəndi idi. Əhalinin 38 712-i müsəlman, 30 850-i erməni idi.

1933-cü ildə Zəngəzurun Azərbaycandan zorla qoparılaraq Ermənistan SSR-ə verilmiş hissəsində Qafan, Gorus, Sisian və Mehri rayonları yaradıldı. Nəticədə Naxçıvan digər Azərbaycan torpaqlarından ayrı salındı. Zəngəzurun Azərbaycanda qalan hissəsində Zəngilan (707 kv.km), Qubadlı (802 kv.km), Laçın (1835 kv.km) rayonları yaradıldı. Çar Rusiyası, Azərbaycan Cümhuriyyəti və Azərbaycan Şura Hökumətinin tərkibində mövcud olmuş Zəngəzur qəzası inzibati ərazi vahidi olaraq xəritədən silindi.

Moskva ilə Yerevan hətta bununla da kifayətlənmədi; 70 il fasilə vermədən SSRİ dağılana qədər, I Qarabağ müharibəsindən sonra ta 27 sentyabr 2020-ci il Vətən müharibəsinə qədər Azərbaycanın bütün sərhəd xətti boyunca torpaqlarımızın

hissə-hissə zəbt edilməsi, eləcə də içərisindəki xain planla yaradılmış Dağlıq Qarabağ və Naxçıvan muxtariyyətləri də daxil, 1988-ci ildən Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası, 7 rayonumuzun 28 il davam edən və bu gün də əsir, girov saxlanan Xankəndi, Xocalı, Xocavənd, Agdərənin işğalı, bütün bunlar eyni ssenarinin, zorakı işğal, təcavüz, daha çox torpaq, ərazi qoparma siyasətinin davamıdır.

1918-ci il mayın 29-da 9 min kvadrat kilometrlik Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti sonradan digər ərazilərin də ələ keçirilməsinə, genişlənməyə başladı: 1920-ci ilin dekabrından başlayaraq 10 il ərzində Moskvanın birbaşa köməyi ilə Zəngəzur qəzasından 405.000 desyatin (4414,5 km2), Qazax qəzasından 535096 desyatin (5832,82 km2 ), Naxçıvan MSSR-dən 657 km2 , Zəngəzurun Mehri rayonundan Nüvədi, Eynəzir və Tuğut kəndlərini əhatə edən Azərbaycan torpaqları Ermənistan ərazisinə qatıldı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1969-cu il 7 may tarixli qərarı ilə Mehri kəndlərinin Ermənistana verilməsi rəsmən təsdiqlənmişdi. Sovet rejiminin sonrakı illərində də Ermənistan ərazisi Azərbaycan torpaqları hesabına daha da genişləndirildi və 29,743 km2 -ə çatdırıldı. 1923-cü ilin iyununda Şuşa, Cəbrayıl, Qubadlının 169 kəndi, sonralar daha 31 kəndi DQMV-ə verildi, bu kəndlərin əksəriyyətində ermənilər yaşamırdılar. Əhalisnin 90 faizi azərbaycanlılardan ibarət olan Göyçə mahalı Ermənistana verildi. Az.K(b)MK-nın 25 dekabr 1924-cü il tarixli iclasında Azərbaycanın Qubadlı və Ermənistanın Zəngəzur qəzası arasında 136 sərhəd mübahisəsinə baxılır və...ermənilərin 13 kənd üzrə tələbi qəbul olu-

nur. Moskvanın təzyiqi, məkrli planları, sırf xristian təəssübkeşliyi, ermənipərəstliyi, imperiya maraqları və “sapı özümüzdən olan baltaların” şərəfsiz xəyanətləri nəticəsində ermənilər dəfələrlə Azərbaycandan torpaq qoparmışdılar; Şuşa qəzası torpaq şöbəsinin müdiri Roqozinin 26 iyul 1923-cü il tarixli məruzəsində göstərilirdi ki, Zəngəzur və Şuşa qəzalarının tərəkəmələri arasında sərhəd mübahisəsinin həlli zamanı silahlı toqquşma baş verməsin deyə, 20 yaylaq ermənilərə verilmişdir.




1928-ci ildə Gədəbəyin ən səfalı kəndlərindən - Başkənddən 4400 hektar, 1968-ci il Şınıx zonasında yerləşən Tağlar, Qaravəllilərdən bundan da çox torpağı alıb Ermənistana verdilər. XX əsrin 90-cı llərində hadisələr yenidən başlayana kimi Başkənddə 10 mindən çox erməni yaşayırdı. Bu kəndi kənardan gələn ermənilər alınmaz qalaya çevirmişdilər. Kəndin ətrafinda səngərlər qazılmış, istehkamlar qurulmuşdu. 7 may

1969-cu ildə rəsmi Bakının qərarı ilə Laçının nadir guşələri-Qaragöl və ətraf yaylaqlarının 250 hektar sahəsi ermənilərə növbəti bəxşiş olmuşdu. Ermənilər 20-ci illərə aid xəritələri Bakı, Tiflis və Moskvadakı arxivlərdən oğurlayıb, yerinə düzəltdikləri saxta tarixlə yeni sənədlər tərtib etmişdilər. Faciəyə baxaq; bu sənədlərə qol çəkənlər Azərbaycandan MİK-in o vaxtki işlər müdiri Qadaqçayan, Moskva və İrəvan tərəfdən isə Qriqoryan, İsaxanyan, Qalustyan, Çerekeşvili, Metreveli, Akopcan, Karkaşadze, Matekeviç, Kotyuk, Tatulov və Komarovski olmuşlar. Azərbaycan rəhbərləri bu ümummilli xəyanətdən dövləti cinayətdən guya ki xəbəsizlərmiş kimi adlarını bu imza siyahısına saldırmayıblar, qərar isə ən yüksək səviyyələrdə razılaşdırılmışdı.

1980-ci illərdə Laçın və Qubadlının yenidən ən səfalı guşələri yenə qoparılmışdı. Bunlara müqavimət göstərənləri isə müxtəlif adlarla həbsxanaya atırdılar. Moskvanın təzyiqi qarşısında müti icraçılara çevrilən, bununla da vəzifədə qalma sürəclərini bir az da uzadan, vəzifə kreslosunu vətənə, xalqa yox, Moskva, Yerevan, Tbilisidən gəlmə tapşırıqların itaətkar xidmətçilərinə çevirən respublika rəhbərləri hər torpaq bağışlama prosesində xalqı ayağa qaldırmaq əvəzinə, xalqın qəzəbini, mübarizə ruhunu hər cür inzibati yollarla söndürməyə, gizləməyə çalışırdı. 1980-ci illərdə ermənilərə Zəngəzurda təkcə Qaragöl-İşıqlı səmti deyil, Qubadlının strateji əhəmiyyətli yüksəklikləri, bənzərsiz nadir təbii gözəlliklərlə dolu Şurnuxu, Şamsız, Qurdbulağı, Ağbulaq, Şahverdilər kəndləri, Kəpəz dağı, Çayzəmi, Vəli düzü, Yazı düzünün bir hissəsi də qoparılıb verildi.

2020-ci il 8 Noyab Zəfərindən sonra Cənubi Qafqaz regionunda, Rusiya-Azərbaycan-Ermənistan arasında münasibətlərdə yeni situasiya yaranmışdır. Azərbaycan Dövləti, Hökuməti, Parlamenti Rusiya və Azərbaycan bolşeviklərinin xalqımızın iradəsi əleyhinə olaraq Zəngəzurun qərb hissəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsinə şərait yaradan, heç bir hüquqi qüvvəsi olmayan qərarların ləğv edilməsi istiqamətində rəsmi Moskva hökuməti, parlamenti ilə danışıqlara, aktiv hüquqi prosedurlara başlamalıdır, xalqımızın və müstəqil dövlətimizin həmin torpaqlara qarşı iddialarına beynəlxalq hüquqa uyğun şəkildə baxılmalı, qərbi Zəngəzur torpaqlarında qanlı repressiyalara, deportasiyaya məruz qalmış əhalinin varislərinin sülh, danışıqlar yolu öz dədə-baba yurdlarına qayıdışına imkan yaradılmalıdır.[2]

**Hacı Nərimanoğlu**,
*"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri,*
*tarix üzrə fəlsəfə doktoru*

---

[2] https://525.az/news/284950-rusiya-zengezurun-ermenilere-verilmesi-barede-qerarlarina-yeniden-baxmalidir?name=xeberprint&kecid=1&news_id=284950

## QUBADLIDA FÖVQƏLADƏ VƏZİYYƏT

Sovet İttifaqının rəhbəri Mixail Qorbaçovun israrlı təkidi ilə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin qəbul etdiyi "Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi haqqında" Fərman əsas tutulmaqla[3], 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə saat 23:30-da ağır texnika, silahlarla təmin edilmiş rus-sovet qoşunları bir neçə istiqamətdən paytaxt Bakıya yeridildi. Heç bir xəbərdarlıq edilmədən başlanan hərbi müdaxilə, atəşlər nəticəsində əksəriyyəti qadın, qoca, uşaq olmaqla 147 nəfər mülki vətəndaş öldürüldü, 638 nəfər yaralandı, 841 nəfər qanunsuz olaraq həbs edildi və bu azğın təcavüz respublikanın bütün ərazisinə yayıldı.[4]

Moskvanın əsas məqsədi xalqın imperiya əleyhinə günbəgün genişlənən etirazlarının qarşısını almaq, milli müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə ruhunu güc, zor, qorxu hesabına söndürmək, Ermənistanın Azərbaycan əleyhinə yönəldilmiş məkrli işğalçılıq planlarını - Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsini reallaşdırmaq idi.

Moskva Ermənistanla və Qarabağın ermənilərin nəzarətində olan dağlıq hissəsi ilə 132 km sərhəddi olan Qubadlı rayonunda 1990-cı il yanvarın 15-də fövqəladə vəziyyət elan etdi. SSRİ Daxili İşlər Nazirliyinin Şuşa və Xankəndidə yerləşən 21-ci briqadasının bir batalyonu yanvarın 17-də Qubadlıya daxil oldu və rayonda komendatura üsuli-idarəsi quruldu.

[3] https://files.preslib.az/projects/aggression/ru/c2.pdf
[4] https://azerbaijan.aza/related-information/6

## OLEQ BABAK ƏN TƏHLÜKƏLİ POSTDA



Qubadlının sərhəd kəndləri yandırılır, sakinləri öldürülür, yaralanır, oğurlanırdı.

Eyvazlı kəndində məktəblilərin gediş-gəliş yoluna bir neçə dəfə partladıcı maddələr qoyulmuşdu.

1988-ci il noyabrın 24-də bu kənd erməni silahlı dəstələri tərəfindən talan, qarət edilib tamamilə yandırıldı, sakinləri qovulub çıxarıldı, erməni postu quruldu. Ağbulaqlı kənd sakini, gənc zootexnik Ağbulaqda Bərxudar Əsgərov toyundan 24 gün sonra Çardaxlı kəndinin Çayzəmidəki fermasında öz işi ilə məşğul ikən xaincəsinə öldürüldü. Atası Əmrah kişi oğlunun müsibətinə dözməyib az sonra vəfat etdi.

Şahverdilər kəndinin 80 yaşlı sakini Sevdimalı kişi evində ikən 4 erməni saqqallısı hücum edib təsərrüfat işləri ilə

məşğul olan qız, gəlini girov götürmək istəyir, sərrast ovçu, cəsarətli kişi dərhal həmişə içi dolu hazır saxladığı qoşalülə tüfənglə saqqallının birini gəbərdir, digərini isə ağır yaralayır, qorxuya düşən ermənilər onlara əlbəyaxa müqavimət göstərən oğlunu, gəlinini yaralı halda buraxıb qaçırlar. O dövrlərdə erməni terrorçularu sifətdən tanınmamaq üçün saqqal saxlayırdılar, çünki bir çoxu illərdir azərbaycanlılarla qonşu kənd, şəhərlərdə yaşayırdılar, bir-birini də yaxşı tanıyırdılar, gəlib gedirdilər. Ancaq bu dəfə yenə də 1905-1906, 1917-1918-ci illərdə olduğu kimi erməni millətçi, separatçı partiyaları ələ alıb şirnikləndirdikləri gənclərin beynini pozaraq, silahlandıraraq onları on illərlə qonşuluqda yaşadıqları dinc, sakit müsəlman əhaliyə qarşı yönəltmişdilər.

Mülki sakinləri öldürmək, yaralamaq, əsir, girov götürüb sonra pul müqabilində azad etmək, meyidlərlə alver etmək bunların peşəsinə çevrilmişdi. Novlu kəndindən Tapdıq Ələkbərov və ilk dəfə məktəbə getməyə hazırlaşan 7 yaşlı Təzəgül ermənilərin kəndə atdığı top mərmisinin qəlpələrindən yaralandı, Seytas kəndində öz heyvanlarını otaran əlil İlham Xansuvar oğlu çoxsayda bıçaq zərbələri ilə qanına qəltan edildi, kənddə mal nobatına gedən fəhlə İnqilab Babışov, Sumqayıtdan könüllü olaraq doyüşməyə gələn Yuxarı Cibikli sakini 24 yaşlı Rəfael Qaybalıyev, Aşağı Cibikli kənd sakini Süleyman Həsənov, Bəxtiyarlı kəndində doğulmuş 19 yaşlı Rasim Zeynalov, Tarovlu kənd sakini, kolxoz sədri Nümayiş Mehdiyev, işçiləri Telman Eyvazov, Qədir İldırımov, Şirzad Həsənov, Əyinli Elşən Nəcəfov, Tarovlu Əbülfəz Mehdiyev, Çardaxlı İrşad Həsənquluyev və başqaları da erməni terrorizminin hə-

dəfinə çevrildi. I Qarabağ müharibəsində Qubadlı rayonundan ən çox bu sərhəd kəndlərinin sakinləri öldürülüb yaralanmışdı. 1-ci Qarabağ müharibəsində Yuxarı Cibikli kəndində şəhid olanlar: Qaybalıyev Rəfail Abbasəli oğlu, Əliyev Teyyub Kamil oğlu, Muradova Şəndə Fərəc qızı, Əliyev Zülfüqar Cabbar oğlu, Əliyeva Nərgiz Cəbrayıl qızı, Nəzərov Qərib Qulam oğlu, Hüseynov Şahin İlyas oğlu və yaralananlar: Nəzərova Gülnarə Qulam qızı, Nəzərov Ağaverdi Fərhad oğlu, İsmayılov Elşad Surxay oğlu.





# OLEQ BABAK - CİBİKLİLƏRİN “BABƏK”İ



1991-ci ilin yanvarında SSRİ Daxili İşlər Nazirliyinin 21-ci briqadasının 9 nəfərdən ibarət hərbi birlik rayon rəhbərliyinin, əhalinin israrlı təkidi ilə tez-tez erməni terror dəstələrinin hücumlarına məruz qalan bu ərazidə - Qafan-Gorus avtomobil yolunun Qubadlının sərhəd kəndlərindən keçən hissəsində yerləşdirildi.

Qrupun rəhbəri - postun komandiri 24 yaşlı ukrain leytenant Oleq Babak idi.



**İslah Qənbərov,** təqaüçü polis serjantı Yuxarı Cibikli kənd sakini: - həmin dövrdə Qubadlı rayon milis (sonradan polis) şöbəsində milis nəfəri idim. Milis kimi həmin kəndə təhkim olunmuşdum. Oleq Babak və əsgərləri ilə daim əlaqədə olurduq, tez-tez görüşürdük.

Onunla Azərbaycan-Ukrayna dostluğu barədə söhbət edirdik.

Futbol həvəskarı idi. “Neftçi” komandasının o vaxt çətin vəziyyətə düşəndə Kiyevin “Dinamo” komandasının ona xal verdiyini, ermənilərin buna necə qısqanclıqla yanaşdığını xatırlayırdı.

Deyirdi ki, ukraynalılarda Azərbaycan xalqına qarşı böyük simpatiya var. Özü də bizim onlara daxildən gələn hörmət hisslərimizi də görüb başa düşürdü.

Yanındakı digər millətlərdən olanların heç birində xalqımıza, yerli sakinlərə qarşı Oleqdə olan bu içdən gələn istəyi sezmirdim. O, bu dostluq əlaqələrinin möhkəmliyinə sevinirdi, münasibətimizin səmimiliyini yüksək qiymətləndirirdi.

Söhbətlərimizdə Ermənistanın Azərbaycana qarşı bəd niyyətlərini, bu münaqişənin səbəblərini gözəl bildiyini göstərirdi. Deyirdi, axı ermənilər nə haqla, hansı əsasla Azərbaycandan torpaq istəyir, axı onların özləri bu torpaqlara köçüb gəliblər.

Oleq bəzi silahdaşlarının Qafan-Gorus avtomobil yolu ilə gəlib gedən ermənilərdən ərzaq, siqaret aldıqların, ratsiya ilə danışdıqların da görür, bilir, imkanı daxilində bunun qarşısını almağa çalışırdı. Tez-tez Aşağı və Yuxarı Cibikliyə gəlirdi, yerli sakinlərlə xoş münasibət qurmuşdu, bir neçə ailədə qonaq olub, çörək yemişdi, bizim xörəkləri çox bəyənirdi. Ona ən çox ləzzət edən camaatın ona Babak əvəzinə Babək deməsi idi. Xalqımızın bu böyük qəhrəmanı haqqında ətraflı biliyi, geniş məlumatı var idi.

Elə son hadisədən bir neçə gün əvvəl də yarızarafat, yarıciddi dedi ki, Azərbaycanı çox sevirəm, deyəsən qalıb birdəfəlik Azərbaycanda yaşamalı olacağam.



**Yəhya Həsənov,** Yuxarı Cibikli kənd sakini: - Oleq çox gənc zabit olsa da, gələcəkdə yaxşı hərbçi kadr da ola bilərdi, təbiətən cəsur, qorxmaz oğlan idi. Onun dediyindən də bilirdim ki, ermənilər ratsiya ilə dəfələrlə onunla əlaqəyə girib öz tərəflərinə çəkməyə cəhd ediblər. Amma o, ermənilərin hiylələrinə yaxşı bələd idi, onlara içdən gələn qəzəb, nifrəti vardı. Bəzi xidmət yoldaşlarının ermənilərlə nələrinsə müqabilində silah-sursat ötürdüyünün izinə düşmüşdü, bu haqda rayondakı rəhbərliyinə məlumat da ötürmüşdü. Oleq təbiətən müstəqil, ədalətli, öz xidməti vəzifəsini səylə yerinə yetirən vicdanlı zabit və insan idi, cəsur zabit idi. Öz işini vicdanla görür, qayda-qanuna əməl etməyə çalışırdı, postunda ayıq-sayıq dayanırdı. Digər yoldaşlarından fərqli olaraq, erməni maşınlarını saxlayıb yoxlamaqdan çəkinmirdi, bir neçə dəfə ermənilərdən silah-sursat da götürüb sənədləşdirib müsadirə etmiş, onların bəd niyyətlərini sifətlərinə söyləmişdi. Bu obyektivliyinə görə ermənilər ondan qisas almaq fikrinə düşmüşdülər, əslində Oleq tərəf saxlamırdı, vəzifə borcunu vicdanla yerinə yetirirdi. Bizim bu münaqişəyə zorla cəlb olunduğumuzu, özümüzü müdafiə etdiyimizi anlayıb görürdü, azərbaycanlıların təbiətən davakar olmadığını deyirdi. Ona Babək deyiləndə xəfifcə gülümsünür, camaatın ona simsar münasibətindən, inamından məmnun qalırdı. Təhlükəsizliyinə məsul olduğu ətraf kəndlərin giriş-çıxışına yaxşı bələd idi, haradan təhlükə gələ biləcəyini gəzib görüb özü üçün müəyyən eləmişdi, yerli sakinlərin fikirlərini də öyrənmişdi. sanki özünü qarşıdakı günün son sınaq imtahanına hazırlayırdı.

## 1991-Cİ İL, 7 APREL

Bazar günü olduğundan hamı kənddə idi, işə gedən olmamışdı, sakit, günəşli hava idi. Yuxarı Cibikli kəndinin meşəbəyisi – meşə gözətçisi İlyas kişinin 20 yaşlı oğlu Şahin və dayısı oğlu Qərib Qulam oğlu səhər tezdən yenə kəndin ətrafındakı meşəyə, dağlara tərəf qalxmışdılar, onlar kəndin qoçaq, cəsur cavanlarından idilər, bir neçə dəfə asfalt yolla ge-



ŞAHİN İLYAS OĞLU HÜSEYNOV QƏRİB QULAM OĞLU NƏZƏROV

dib gələn erməni maşınlarından hədə-qorxu dolu mesajlar da almışdılar, erməni saqqallıları bu igid gəncləri çoxdan izləyirdi, bu qeyrətli gənclər hər yol-irizinə, kol-kosuna, dərə-təpəsinə bələd olduqları sərhəd kəndlərindəki ərazilərə erməni terrorçularının daxil olmasına maneə olurdular.

Nəhayət, həmin gün meşədə pusquda duran saqqallı ermənilər onları girov götürmək istəyir, atışmada Şahin ov tüfəngi ilə bir neçə ermənini gəbərdir, ancaq gülləsi qurtarıb ağır yaralı olduğu halda çoxluqdakı ermənilər onu amansız

vəhşiliklə öldürürlər, Qəribi də ağır yaralayıb özləri ilə girov götürüb hadisə yerindən uzağa aparırlar.



Qaniçən xislətli ermənilər hər şeyi əvvəlcədən ölçüb biçmişdilər, Şahinin nəşini sürüyüb yarğandan 70 metr dərinliyində dərəaşağı tullamışdılar, cəsədindən tələ kimi istifadə etmək istəmişdilər. Atışma səsini eşidib gəlib meyidi götürmək istəyənlər yuxarı yüksəkliklərdə gizlənib gözləyən terrorçuların hədəfinə çevrilib öldürüləcək, sağ qalan, yaralananları isə əsir, girov götürüləcəkdilər. Avtomobil yolundan kənar meşəliklərdə əvvəlcədən maşınları saxlayıb girovları daşımaq üçün xeyli erməni də gizlənmişdi.

Atışma səslərindən nə isə baş verdiyini anlayıb meşəyə tərəf axışan kənd camaatını önündə gedən kəndin sahə müvəkkili Əbdülqadir yaralanır, cəmi bir neçə ov tüfəngi ilə silahlanan kişilər terrorçularla atışır.

Terrorçuların kəndin evlərinə, mal-heyvan tövlələrinə, ot tayalarına atdığı alovsaçan güllələrdən kənd od tutub yanır, mühasirə halqası get-gedə daralır, kənd sakinləri artıq sonuncu güllələrini atırlar, terrorçuların sayı isə artmaqda, silahsız insanlara daha çox yaxınlaşmaqda idilər.

## OLEQ ÖZÜNÜ KÖMƏYƏ YETİRİR



Yuxarı Cibikliyə erməni hücumunu eşidən Oleq dərhal Qubadlı rayon mərkəzində yerləşən qərargaha məlumat verir, təcili kömək istəyir, eyni zamanda ratsiya ilə daimi təmasda olduğu Ermənistan tərəfdəki hərbi posta xəbər verir. Cavab alır ki, sən özünü və o biri hərbçiləri təhlükəyə atma, bu hadisəyə qarışma, postdan tərpənmə, onlar çoxdur, qorxuludur, qana susayıblar, məlumat, raport verdin, işin bitdi, nizamnamə ilə artıq vəzifə borcunu yerinə yetirmisən. Oleq elə vicdan, qeyrət, namusa sahib idi ki, bu vəziyyətdə dayanıb seyrçi dura bilməzdi. İki rus serjantını da özü ilə götürüb postdakı UAZ-la Yuxarı Cibikliyə tələsir.

O, əvvəlcə ratsiya ilə terrorçulara müraciət edərək atəşi dərhal dayandırmaq barədə xəbərdarlıq edir: - mən sovet zabitiyəm, atəşi dayandırın, əks halda hərbi rejim, fövqəladə vəziyyət qaydalarına uyğun olaraq əmrə tabe olmadığınıza görə

atəş açacağam. İndi isə terroçular ona səsgücləndirici ilə müraciət edir ki, onsuz da biz çoxuq, güclüyük, sən atəş açsan, səni də öldürəcəyik, əgər geri qayıtsan, sağ qalmağına zəmanət veririk.

Oleq bu terror dəstəsinin amansız niyyətini anlayır, ağıl, düşüncə, vicdan, qeyrətinin dediyi yolla gedir.

O, hər keçidinə, dağ, dərəsinə bələd olduğu yanğın bürüyən kəndin kənarında özünə etibarlı mövqe seçib avtomatla yaxınlaşmaqda olan bir neçə terrorçunu zərərsizləşdirir, Aleksey Loqinov və Aleksey Boçkovdakı güllə daraqlarını da alıb götürüb onlara mühasirədəki yaralıları kənddən çıxarmağı tapşırır, özü isə atışmağa davam edir.

Kənd sakinlərinin, yaralıların artıq təhlükəsiz yerə çıxarıldığını görür, azğınlaşıb gözlərini qan örtmüş terrorçularla daha böyük nifrətlə döyüşür, tez-tez yerini dəyişir, qəlpə, güllə yarası alsa da son gülləsinə qədər dayanmır, geri çəkilmir.

Murdar xislətli insanlıq düşmənləri atışma meydanında qalan ölü və yaralılarını, qan içində qıvrılan Oleqi də götürüb zirehli maşına qoyub aparırlar.

Köməyə gələn hərbçilər meşə yolları ilə rayon mərkəzindən 15 kilometr aralıdakı bu ucqar dağ kəndinə gəlib çatanda artıq savaş bitmişdi, kənd isə yanırdı.

Ətrafdakı sakinlər, yaxından, uzaqdan bu döyüşü görən şahidlər ən çox Oleqin igidliyindən danışırdılar.

# ŞAHİDLƏRİN DEDİKLƏRİ



**Kərim Musayev**: - Aşağı Cibikli kəndinin sakiniyəm, kəndin ortasında həmişəki kimi yığışıb söhbət edirdik. Birdən Yuxarı Cibikli tərəfdə atəş səsləri eşitdik. O vaxt nəinki mobil telefon, heç kənddə adi rabitə də yox idi, bildik ki, ermənilər yenə hücum ediblər. Biz piyada qaçdıq Yuxarı Cibikliyə - rəhmətlik Məmmədov Murad, Əliyev Vaqif, Əliyev İlham. Cəmi bir tüfəngimiz var idi.

Biz hadisə yerinə yaxınlaşanda uzaqdan gördük ki, ermənilər Qafan-Gorus avtomobil yolunu bağlayıblar, meşədən xeyli erməni silahlısı çıxıb gəldikləri avtobuslara minib qaçırlar. Görünən bu idi ki, onların hazırladıqları çox sayda insanı öldürmək, əsir, girov götürmək planı boşa çıxıb, əvəzində Qafandan gələn "Kamaz", "İkarus"lar içi saqqallıların meyidlərini götürüb geri qayıdırlar.



**Gülnarə Nəzərova,** Yuxarı Cibikli kənd sakini: - sahə müvəkkili Əbdulqadir Huseynov, Şahinin anası Diliş xala, mən hamıdan qabaqda atəş səsi gələn yerə təraf qaçırdıq, bizi gözləyən təhlükəni də gözümüzün önünə gətirəcək halda deyildik. Alçaq ermənilər işıqsaçan güllələr atırdılar, bir neçəsi bizim ot tayasına dəydi. Ot yanmağa başlayanda tüstü oraları

bürüdü. Bizi atəşə tutdular, güllə Əbdülqadirin buduna, bir güllə də mənim qıçıma dəydi. Sürünüb endik adamların gizləndiyi dalda yerə, yaxşı ki, yerimiz çala idi, güllə tutmurdu, başımızın üstündən uçub gedirdi. Yerimizi görən saqqallı ermənilərdən 35-40 yaşlarında 3-ü bizə tərəf yaxınlaşmaq istəyirdi, qara, mülki geyimdə idilər. Ayağa qalxıb qaçmaq açıqlıqda gülləyə tuş gəlmək demək idi. Qonşularla birlikdə sürünüb geridəki böyürtkən kolluğuna tərəf geri çəkildik. Bu vaxt yenə 2-ci güllə qolumdan dəydi. Üstümüzə dolu kimi yağan güllələrdən göz açmaq mümkün deyildi, onların sayı qat-qat çox idi. Qan məni aparırdı, artıq huşdan gedirdim. Qanı axan Əbdülqadir dedi ki, belə getsə, hamımız bu alçaqlara əsir düşəcəyik. Əmim oğlu bir güllə qoydu cibinə, dedi, Gülnarə, bu sənindir. Uşaq idim, 17 yaşım vardı, düzü başa düşmürdüm ki, onlar nə demək istəyirlər. Hərə özü üçün bir güllə saxlamışdı sağ əsir düşməmək üçün. Güllələr qurtaranda əmim yerdən yekə bir daş götürüb dedi ki, gözlərini yum. Sözün açığı, nə demək istədiyini başa düşmədim. Uzun saçlarım vardı, dağılmışdı üzümə. Əmim başımı sığalladı, üzümə baxdı. Daş əmimin qucağında idi, daşı qaldırdı, əlləri titrədi. Dedi insan öz balasını necə öldürə bilər?! Mən onda başa düşdüm ki, əmim məni öldürmək istəyirmiş ki, ermənilərə sağ əsir düşməyim. Dedim, əmi, məni öldür, təki ermənilərin əlinə diri düşməyim, yaşım az olsa da, vəziyyəti dərk eləyirdim, televiziyadan, yazılıb eşitdiklərimdən bilirdim əsir qız-gəlinlərin başına nanəcib ermənilər nə oyun açırlar, düşündüm ki o dəh-



şətlər mənim də başıma gələ bilər, özümü ölümümə hazırladım. Əmim əlindəki daşı tulladı yerə, dedi, ölsəm də səni burdan çıxaracam, tüfəngin götürüb irəli süründü. Bu zaman Oleq Babakın iki əsgəri ilə bizə tərəf gəldiyini gördük, avtomatından açdığı ilk atəşi görən, bizə tərəf gələn ermənilər qorxub geri qaçdılar, amma hər tərəfdən güllə səsləri daha da güclənib şiddətlənirdi, Oleqgili də nişan alırdılar, Allah Oleqi vaxtında yetirmişd. Oleqlə birlikdə gələn iki rus biz yaralıları maşına mindirib yola salanda huşumu itirdim. Ayılanda gözümü açıb özümü xəstəxanada gördüm, mənə qan vururdular. O vəziyyətdə Bakıya gətirdilər...Oleq indi mənə daha çox əzizdir, çünki oğlum Nahid də o yaşdadır və leytenantdır - Oleqin davamçısıdır.



**Ağaverdi Nəzərov,** Yuxarı Cibikli kənd sakini, Gülnarənin əmisioğlu: - Oleq Babak iki hərbçi ilə kəndə gəlib çatan kimi ermənilərlə atışması terrorçuları daha da qəzəbləndirdi, onlarda güclü səsötürücü meqafon var idi. Atışma başlanan kimi qışqırıb buradan getməyi tələb elədilər, yoxsa öldürəcəklərini, azərbaycanlılar ilə məsələni özlə-

rinin həll edəcəklərini dedilər, ona hədələr, söyüş, təhqirlər yağdırmağa başladılar. Bundan sonra güllə səsləri daha çox artdı.

Quldurlar Oleq Babakı bundan əvvəllər də qorxutmağa çalışmışdılar, xristian olduğu halda erməniləri yox, müsəlman azərbaycanlıları müdafiə etməkdə suçlamışdılar. Oleq isə "mən sovet zabitiyəm, sovet vətəndaşlarını müdafiə edirəm" – demişdi. Ona görə də ermənilər ona nifrət edirdi.




**Serjant Aleksey Boçkov:** - Oleq və rotanın starşinası Aleksey Loqinov ilə birlikdə özümüzü ən kritik momentlərdə kəndə yetirdik, biz əvvəlcə də arxadan, öndən, yandan yaxınlaşmaqda olan terrorçulara atəş açaraq özümüzü, bir-birimizi də qorumağa çalışırdıq.

Oleq ermənilərin artıq bir neçəsini öldürmüşdü, 3-4-nün də qadınlara tərəf yaxınlaşdığını görüb bizə onları xilas etməyi, yanlarına gedib oradan uzaqlaşdırmağı tapşırdı, mən və yaralı olan yerli sahə müvəkkili silahsız kənd sakinlərinin daldalandığı yerə tərəf sürünüb getdik.

Oleq bizi də qoruyurdu, yaralıları aparan maşının və əhalinin oradan uzaqlaşmasını təmin edib yenidən atışmaya davam etdik.

Kənddə ilk yaralananlardan biri yerli milis nəfəri Əbdülqadir Hüseynov oldu.

Ov tüfəngləri ilə silahlanmış Cibikli cavanları da cəsarətlə savaşırdı, ancaq gülləleri tez qurtardı, əgər ermənilərdə

olan silahlar onlarda olsaydı, qarşı tərəfin itkiləri daha çox olardı.



**Oleq Sulima**

Oleq Babakın xidmət yoldaşıdır, sonralar əldə etdiyi məlumatları jurnalistlərlə belə bölüşmüşdü; biz postda qalanlar da Oleqgilə kömək üçün kəndə yaxınlaşmaq istəyəndə ermənilər pusqudan bizi atəşə tutmağa başladılar, vaxtında köməyə getməyə imkan vermədilər, bizim aramızda Saşa adlı bir ukraynalı leytenant da vardı, erməni gülləri onu da yaralamışdı. Sonradan belə bir informasiya aldıq ki, Xankəndində oturmuş hərbi hissə komandirini müvəqqəti əvəz edən yüksək rütbəli rus zabit Qubadlıdakı komendant Viktor Burdukovdan kəndə erməni hücumu barədə məlumat alanda sülhməramlı sovet hərbçilərinin də ölüb yaralanmasından qorxub qəsdən köməyi gecikdirməyi tapşırmışdı.

Sərhəddə gedən döyüş haqqında komandanlığın dərhal məlumatlandırılmasına baxmayaraq, onlar tərəfindən heç bir təcili hərəkət görünmədi. Oleq tabeliyindəkilərə yaralıları, mülki insanları ərazidən çıxarmaq barədə əmri verəndə onlarda qalan son patronları da almışdı.

Erməni yaraqlıları ilə sonadək atışan Oleq Babak döyüşünü, ölümünü mərdliklə qəbul edib həyatını şərəflə sona ye-

tirmişdi. Banditlər sonra deyirdilər ki, türkləri (azərbaycanlıları) xilas naminə xeyli ermənini və xarici muzdlunu öldürdüyünə görə Oleqi qətlə yetirmələrinə peşman deyillər.

Mən Milis Məktəbində I kursda oxuyanda Oleq dördüncü kursda idi. O vaxt bizimlə 3 erməni də oxuyurdu. Həmin ermənilərdən biri Oleqi görən kimi tanımışdı. Çünki, Oleq məktəbdə fəal kursantlardan idi.

O batalyonun mədəni-kütləvi tədbirləri üzrə, mən isə idman hazırlığı üzrə taqım komandirinin müavinləri idik. Bütün kurslarda oxuyan uşaqlar bizi ən fəal kursantlar kimi tanıyırdılar.

Ona görə də həmin erməni Oleq Babakı görən kimi qışqırdı:- Oleq, Babak! - Demək, onu görən kimi tanımışdı. Yanındakılardan biri: - bunu sağ saxlayaqmı? O birisi: -Necə yəni sağ saxlayaq, gör nə qədər adamımız öldürüb! Bu ermənilərin içində iki qardaş da vardı.

O terrorçu qardaşların birini Oleq vurub öldürmüşdü. Sağ qalanın əlində lüləsi kəsilmiş tüfəng vardı. Oleqin zirehli gödəkçəsini çıxarıb gülləni Oleqin onurğa beyninə sıxıb atəş açıb öldürmüşdü.

Oleq zabit şərəfini son nəfəsinədək yerinə yetirib 10-dan çox günahsız insanın həyatını da xilas etmişdi. Mən insani xislətə malik erməni tanımıram. Tanımıram, vəssalam. Məni bu sözlərimə görə bağışlayın. Mən dediklərim sözlərə, əlbəttə ki, cavabdehəm.

Onlardan yalnız ikiüzlülük, biclik, əclaflıq və xəyanət gözləmək olar! – bunu da Oleq Babakın xidmət yoldaşı Oleq Sulima deyir.




**Əbdülqadir Hüseynov,** sahə müvəkkili hadisəni belə nəql edir: - İki il idi ki, ermənilər Qafan və Gorus rayonları tərəfdən tez-tez hücumlar təşkil edərək çalışırdılar ki, yerli sakinləri qorxudub doğma yurdlarından didərgin salsınlar. Oleq Babak 1991-ci ilin martında kəndə ən yaxın posta gəlmişdi, tərbiyəli, vəzifəsinə hörmətlə yanaşan gənc idi, dinc sakinləri müdafiə etmək üçün hər vasitə ilə silahlı toqquşmaların qarşısını almağa çalışırdı. Həmin gün - aprelin 7-də terrorçular Yuxarı Cibikli kəndinin cavan sakini Qəribi öldürüb Şahini də ağır yaralayıb aparmışdılar. Onları axtarmağa gedərkən pusquda duran erməni yaraqlıları mənə və arxamca gələn kəndin silahsız sakinlərinə atəş açmağa başladılar. Mən və Gülnarə Nəzərova güllə yarası aldıq, əsir düşməmək üçün sürünüb dalda bir yerə çəkildik. Atəş səslərini eşidib gələn Oleq Babak mərkəzdən batalyon komandanlığının göstərişlərini gözləmədən bizim köməyimizə tələsmişdi. Oleq və yanındakılar təlim görmüş gənclər idi. Onlar atəş başlanan kimi dərhal yerə yatdılar, güclə seçiləcək atəş nöqtələrini seçib nişangaha götürdülər və atəşə atəşlə cavab verməyə başladılar. Oleq görəndə ki, kənd sakinləri arasında yaralıların sayı artır, erməni quldurları qız-gəlinləri, uşaqları əsir, girov götürməyə xeyli yaxınlaşıblar, iki serjantına yaralıları, kəndin sakinlərini təhlükəsiz yerə geri çəkib aparmağı əmr etdi. Özü isə erməni saqqallıları ilə vuruşmağa başladı. İtkilərin qarşısını almaq

üçün Oleq Babak danışıqlara başlamağa da cəhd göstərdi. Lakin terrorçular dinc sakinlərin müdafiəsinə qalxmış gənc zabiti və iki köməkçisini də öldürüb çirkin niyətlərini gerçəkləşdirməyə çalışırdılar. Məqsədləri daha çox adam öldürüb, yaralayıb diri əsir götürmək idi. Oleq və iki yardımçısının igidliyi, cəsarət və şücaəti misilsiz idi.

**Aleksandr Lizoqub** Oleqin dəstəsindən sanitar maşının sürücüsü idi, o həmin günü belə xatırlayır: - döyüş şiddətli və dəhşətli idi. Atılan erməni gülləleri maşınımıza dəyirdi. Kəndə tərəf gedən dağ yol dar idi, dönmək çox çətin idi, amma Oleq əlverişli döyüş mövqeyi tutaraq, bizi də atəşdən qoruyur, ermənilərə bizə yaxın gəlməyə imkan vermirdi. Yağış kimi yağan güllələr altında birtəhər geriyə qayıda bildik. Yalnız sonralar leytenant Babakın hələ yaralı ikən erməni yaraqlıları tərəfindən vəhşicəsinə öldürüldüyünü öyrəndik. Terrorçuların sayı 80-ə qədər olardı. Oleqgil isə cəmi üç nəfər və bir neçə tüfəngli yerli sakin olub. O, serjantlarına dinc əhalini



atəş altından çıxarıb geri göndərməyi tapşırdı, özü düşmənlərlə sonadək vuruşdu. Hamını müdafiə etdi, amma özü həlak oldu. Ona döyüşdə qalib gələ bilmədilər, amma silahsız, yaralı olduğu halda kürəyindən vurub öldürdülər.

7 aprel bazar günü Pravoslav xristianlarının Pasxa və Müqəddəs Müjdə bayramları bir günə təsadüf etmişdi. Bu, çox nadir hallarda belə olur. Oleq bəlkə də son dəqiqəyə qədər inanırdı ki, ermənilər xristianlar üçün müqəddəs sayılan Məsihin “Bazar günündə öldürmə" əmrini pozmazlar, çünki həmin 7 aprel günü səhər durub dua da etmişdik. Görünür, leytenant Babakın taleyinə də, həmin gün son döyüşə çıxmaq yazılıbmış. Qatilləri xristianların müqəddəs günü belə saxlaya bilmədi. Amma o gün pis adamların bir çoxunun ölüm, günahsız insanların isə xilas günü imiş demək. Bununla biz ermənilər üçün müqəddəs heç nə olmadığını anladıq. Onun Qarabağda xidmətini başa vurmağa cəmi bir ay vaxtı qalmışdı. May ayında doğma kəndinə qayıdacaq və tezliklə toy edib evlənəcəkdi...




**Polkovnik İqor Şapovalov** ukraynalıdır, hazırda Ukrayna Daxili İşlər Nazirliyindən ehtiyata çıxıb, Kiyevdə yaşayır, SSRİ dağılandan sonra vətəninə qayıdaraq uzun müddət Ukrayna DİN-də çalışıb. Həmin vaxt kapitan rütbəsində bölük komandiri olub: - “Oleq Babak 1989-cu ildə SSRİ DİN-in Ali Siyasi

Kollecini bitirdikdən sonra SSRİ DİN-in Daxili qoşunlarının xüsusi təyinatlı 21-ci briqadasında siyasi hissə üzrə 11-ci bölüyün komandir müavini vəzifəsinə təyin olunub.

Həmin vaxt bölüyün komandiri mən idim. Bir yerdə qarşıya qoyulan vəzifələri yerinə yetirirdik. Komandanlığın bizə tapşırdığı məsələləri yerinə yetirmək üçün 1991-ci ilin martında Azərbaycana yollandıq.

Buraya ictimai asayişin qorunması, Ermənistan-Azərbaycan sərhəddi boyu erməni əhalisinin azərbaycanlılara hücumuna imkan verilməməsi daxil idi. Söhbət bizim əsasən tapşırıqları yerinə yetirdiyimiz Laçın, Qubadlı rayonlarından gedir.

1991-ci il aprelin 7-də Qubadlı rayonunun Ermənistanla sərhəddə yerləşən Yuxarı Cibikli kəndində xidməti vəzifələri yerinə yetirən zaman döyüşlər baş verib və Oleq Babak həyatını itirib. Döyüş erməni yaraqlıları ilə baş verib. Onların arasında başqa millətlər – nayomniklər də vardı. Məsələn, biz 1991-ci il mayın 9-da sərhəddən keçən avtomobil yolunda əməliyyat keçirdik və 42 yaraqlını saxladıq. Onların heç də hamısı erməni deyildi, başqa millətlərdən də var idi. Amma azərbaycanlılara hücum edirdilər. Aralarında məhbuslar, oğrular, keçmiş hərbçilər və s. var idi.

Oleq Babak yaxşı yoldaş, savadlı gənc idi. Şəxsi heyət arasında böyük hörmətə malik idi. Sözün bütün mənalarında hazırlıqlı şəxs idi.

Onunla xidmət etmək çox xoş idi.

## RUSİYALI JURNALİST DÖYÜŞÜ BELƏ YAZIR

**Boris Karpov** adlı hərbi jurnalist 1991-ci il aprelin 6-8-də Qubadlıda, Cibiklidə, Əyində, Oleqgilin Qafan-Gorus yolundakı postlarında olub, görüb eşitdiklərini "Qarabağda açılan atəş" başlıqlı yazısında qələmə alıb. Həmin yazını tərcümə edib bu kitabda paylaşıram.

"Qaynar nöqtələr"də xidmətin özəlliklərinə, Oleq Babakın portretinə, kursant ikən İrəvan və Bakıda ezamiyyədə olmasına, məktəbdə komsomol iclasını aparmasına, kommunist partiyası sıralarına keçməsindən duyduğu məmnuniyyətə,



"yoldaş Babək"in[5] postdakı dostlarına ev yeməyi gətirən Cibikli Xasay müəllimlə söhbətlərinə, Oleqin siyasi dünyagörüşünə, həyata baxışına güzgü tutan xeyli maraqlı məqamlar var bu yazıda. Gorus-Qafan yolu ilə irəliləyən ağ "Niva"nı görən Cibikli gənci "Yoldaş Babək, avtomatını ver mənə, bu erməni qatilini özüm güllələyim!" - deyir.

Hərbi jurnalist Boris Karpov 7 aprel döyüşünü belə təsvir edir:

*"Oleq döyüşdə təşəbbüsün qarşıdakılara keçməsinə imkan vermək istəmirdi. – Lexa (Aleksey Loqinov), sən mənim kürəyimi qoru, mən də sənin. Elə edək ki, bizi mühasirəyə almasınlar.*

*Onlar bir-birinə daha da yaxınlaşdılar.*

*- Lexa, bu gün buradan sağ çıxsaq, məndən necə lazımsa, bir qonaqlıq, axı bu gün Pasxadır! Gözlə, indi təcili kömək gələcəkdir!*

*Loqinov, bu yaraşıqlı kişi artıq "boyevik"lərin yarısını öz üzərinə çəkmişdi, BTR-dən atılan pulemyot atəşi də birbaşa onu hədəf almışdı.*

*Atışmada 5 dəqiqəyədək fasilə yarandı. Son daraqda axırıncı patronları qalmışdı, "boyeviklər" yenidən hücuma keçməyə tərəddüd edirdlər, bir neçə döyüşçülərini itirmişdilər deyə qorxurdular.*

*Boçkov boyeviklərə ən yaxın məsafədə idi. Ancaq günün batmağı ona mane olurdu, günəş şüaları düz onun gözünə düşürdü. Bulud gün işığının qabağın kəsən kimi, qısa fasilərlə yenə bir neçə dəfə atəş açdı.*

---

[5] https://armiya.az/ru/news/150699



*Oleqlə araları on metr olardı. Boçkov eşidir:-Tamam, Lexa, o tərəfə keçdilər, kürəyimi qoru, burda durub dayanmalı olacağıq!*

*Bu dəfə Oleq Boçkovu yamac tərəfdən qoruyurdu, dairəvi mühasirədə idilər, çünki boyeviklər onları zəncir kimi hər tərəfdən mühasirəyə almışdılar.*

*Səs lap yaxınlıqdan gəldi: - Ey, əsgərlər, silahlarınız atın və ....ib gedin, beş dəqiqə vaxtınız var! Aksentdən açıq bəlli idi ki, bu sözləri deyən ermənilər tərəfdə vuruşan təmiz rusdur, çünki sözünün başı da, ayağı da ana söyüşü idi.*

*Bu səs amma erməni boğazından çıxırdı:*

*-Əsgərlər, çıxın gedin! Silahınızı və azərləri də atın gedin!*

*Boçkov boyeviklərin nə barədə isə ciddi mübahisə etdiklərini eşidirdi. Snayper onlara ya xəbərdarlıq edirdi, ya da düzgün nişan ala bilməmişdi, çünki atdıqları hər iki güllə*

*Oleqlə onun bir neçə santimetrliyində səs salıb torpağa pərçimləndi.*

*-Get! - Oleqin səsiydi, Boçkova deyirdi "Get!".*

*Boçkov bu əmri yerinə yetirə bilməzdi. Daha 10 dəqiqə yalnız tək-tək atəşlə cavab verdilər, bilsinlər ki, hələ gülləmiz var, yaxın gələnləri sağ buraxmayacaqlar.*

*-Get, onlar gəlirlər!*

*Boçkov arxası üstə uzanmışdı, bir neçə metr aralıdakı yolun yamac tərəfindən Oleq onu qoruyurdu. Birdən Oleq ayağa qalxdı, Boçkov onun ancaq başını, çiyinlərini gördü. Oleq gur səslə dedi:*

*-Dayanın, atəş açmayın, mən təkəm!*

*Boçkov qorxdu, axı niyə banditlərə bu qədər yaxınlıqda durub ayağa qalxdı, bizim ki yaxın məsafədən atmağa qumbaramız yoxdur. Boçkov anladı ki, Oleq onun getməsi üçün vaxt, son şansı yaradır.*

*Ayaq üstə dayanıb avtomatını aşağı salan Oleqə tərəf arxadan bir neçə saqqallı qaçdı, əyinlərində sviter, əllərində karabinə oxşar gödək lüləli silahlar. Boçkov bu anda nə edəcəyinə qərarsız qaldı, atəş açmaq Oleqi açıq-açığına ölümə göndərmək idi, çünki tək banditlərin ortasında dayanmışdı, banditin lap 1-2-sin öldürsən də qalanları dərhal onu öldürəcəkdi.*

*Əlində karabin tutan saqqallı ermənicə özününkülərə kolluqda gizlənən azərbaycanlıları göstərib bağırırdı. Boçkov və yaralı azərbaycanlı milis banditlərə tərəf atəş açdı, elə o andaca banditlər onların gizləndikləri yeri atəşə tutdular. Boçkov yerinə dəyişib beş metrədək onlara tərəf yaxınlaşdı. Patronların sonuncu 2 ya 3-ü qalırdı.*

*Elə bu an tanış səs gəldi:- Lexa, Lexa! Serjant Edik Mitkovski idi, zastavadan kömək gəlmişdi, maşını uzaqda saxlayıb görünməmək üçün döngəni arxadan keçib gəlmişdilər. Ded Lukyanov da özünü yetirmişdi. Əfqanıstanda aldığı güllə yarasındakı ağrıları ucbatından zastavada qalmalı olduğu halda o da gəlmişdi. Edik Mitkovski və sıravi Jenka Nebeçki dərhal sürəkli atəşlə Boçkova tərəf gələn banditlərə atəş açdılar, yefreytor Aleksey Dubin və sıravi Aleksey Durasov bandirlətin serjant Loqinova yaxınlaşmasını əngəllədilər. Serjant Andrey Medvedev və sıravi Eduard Kulaqin yaralı qızın və sahə müvəkkilinin yaralarını bintlə sarıyıb ağrıkəsici verdilər, patron maqazinlərini avtomata taxıb özlərinə mövqe tutdular.*

*-Leytenant Babakı əsir apardılar! – Bunu hamı eşitdi. Qısa məsləhətləşmədən sonra qərara gəldilər ki, onun arxasınca getmək artıq gecdir, götürüb aparıblar, əsas odur ki, sağdır!*

*Çoxdan gözlədikləri əlavə kömək də indicə gəlib çatdı, leytenant Vasili Artamas ehtiyat qrupu BTR-lə atışma yerinə gətirmişdi, ancaq gec idi. Boçkovun səsi buradakı sükutu pozdu:- banditlər Oleqi aparıblar, çıxırıq trasa, kim gəldi girov götürürük, görək sonra Oleqi necə verməyəcəklər...*[6]

Jurnalist Karlov Əyindəki postda şam edir. Qubadlıdakı Sofrin batalyonunun yerləşdiyi "Bərgüşad" mehmanxanasının bayır qapısının üstündə vurulan bu şüarın fotosunu çəkir: *"Tapşırığı yerinə yetir! Evə sağ-salamat qayıt!"*

Təkcə Oleq bu 2-ci əmri yerinə yetirmədi...

---

[6] https://web.archive.org/web/20160304102634/ http://www.bratishka.ru/zal/1_1.php

## OLEQ QUBADLILARIN YADDAŞINDA



**Razim Əliyev –** Qubadlı rayon Müharibə, Əmək və Silahlı Qüvvələrin Veteranları təşkilatının sədri, 1990-cı illərdə Qubadlı rayon partiya komitəsinin II katibi, Rayonu Müdafiə Şurasının üzvü olub: - Oleq Babakla dəfələrlə həm Cibiklidə, həm də rayon mərkəzində, mənim raykomdakı kabinetimdə görüşüb söhbət etmişdik. O, həm zahiri görünüşcə gözəl oğlan idi, həm də xasiyyətcə mənəvi aləmi təmiz insan idi. O, başqalarından fərqli olaraq, erməni-azərbaycan münaqişəsinin köklərini öyrənməyə çalışırdı. Bəzən bu mövzuda söhbət edirdik, bu münaqişənin köklərini öyrənməyə çalışırdı. Əhali ilə olan münasibətləri səmimi idi, bəzən sərhəd kəndlərinin problemləri ilə bağlı danışırdı, çalışırdı ki, kəndin mühafizəsini yüksək səviyyədə təşkil edə bilsin. Oleq camaat arasında hörmət qazanmışdı, onlarla xoş ünsiyyət, mehriban münasibət yaratmışdı. Nə vaxt ehtiyac olurdusa, həmişə onların köməyinə gəlirdi. Bu xüsusiyyətlərinə görə biz hamımız onu çox sevirdik, sakinlər də onu Babək deyə çağırırdılar. Onunla bu tarixi qəhrəmanımız haqqında çox danışmışdıq. Atışma barədə xəbər alan kimi rayona yeni təyin olunan komendantla birlikdə Yuxarı Cibikliyə gəldik. Qafan tərəfdəki rus komendantla danışıqlardan sonra BTR-də Oleqin al-qan içindəki meyidini gətirdilər. Kənddə kişi, qadın hamı onu xilaskar doğmaları kimi ağlayıb yola salırdı, göz yaşları ilə vidalaşırdı. Nəşinin altına

sərmək üçün neçə evdən döşək, ağ mələfələr gəldi, hər kəs onun gətirdiyi döşəyi götürməyi xahiş edirdi. Yaşlı qadınlardan kimsə dilləndi; - can ay bala, kaş sənin yerinə mən öləydim, anan necə dözəcək sənin ölümünə. Mənim xidməti UAZ markalı maşınımın arxasını boşaltdıq, ağa büküb, altına ağ üzlüklü döşək sərib rayon mərkəzinə gətirdik. Aydın görünürdü ki, ermənilər onu yaralı halda əsir götürüb güllələmişdilər, sirehli jilet və silahını da aparıb qaytarmadılar. Müharibə aparan heç bir dövlətdə belə bir vəhşilik olmazdı. Bunu yalnız alman faşistləri, bir də onların ideya davamçıları olan erməni daşnak cəlladları edə bilərdi. Təəssüf ki, bundan əvvəl və sonra olduğu kimi, Moskvadan gəlmiş rus müstəntiqlər bu cinayəti törədənləri də tapıb aşkar etmədi. Halbuki 18 erməni terrorçusunun istintaqda ifadəsinin alındığını bilirdik. Sonralar bu işin məhkəməyə göndərilməsi, cinayətkarların cəzalanması barədə heç bir xəbər çıxmadı, digər cinayətlər kimi nəticəsiz arxivə göndərildi.

Mənim Oleq haqqında mətbuatda, televiziyada bir neçə dəfə məqaləm, müsahibəm yayılıb.[7]



**Ədalət Şahməmmədov** Cibikli kənd sovetinin katibi, Cibikli sakini: - Yuxarı Cibikli kənd sakinlərindən 20 aprel 1971-ci il təvəllüdlü Nəzərov Qərib Qulam oğlu erməni silahlı quldur dəstələri 7 aprel 1991-ci il tarixində xüsusi amansızlıqla qətlə yetirib, 15 aprel 1968-ci il təvəllüdlü

[7] https://azvision.az/news/256242/--ssri-nin-son-qehremani--ermeniler-oleq-babaki-qarabagda-nece-oldurmusduler--hadisenin-sahidi-danisir--.html

Hüseynov Şahin İlyas oğlunu yaralayıb girov aparıblar, sonra öldürüb danışıqlardan sonra nəşin geri qaytarıblar, dayıoğlu, mamaoğlu kənddə yanaşı dəfn edilib, hər ikisinə mülki şəhid adı verilib.

Həmin hücum nəticəsində 7 nəfər kənd sakini yaralanıb. 20 dekabr 1961-ci təvəllüdlü Nəzərov Ağaverdi Fərhad oğlu və 10 dekabr 1973-cü il təvəllüdlü Nəzərova Gülnarə Qulam qızına ikinci qrup əlillik dərəcəsi verilib. Qəribin 5, bacısı Gülnarənin 2 yaşı olanda anaları Raya bacı vəfat edib. Qulam dayı övladlarına həm Ata, həm Ana qayğısı göstərib, əziyyətlə böyütmüşdü.

Şahin 1983-cü ildə Aşağı Cibikli səkkizillik məktəbini bitirib 1986-1988-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdi. Qayıtdıqdan sonra meşə mühafizəçisi (meşəbəyi) olan atasına köməklik edirdi. O, dayısı oğlu Qəriblə tez-tez Ermənistan sərhəddində yerləşən meşələri qarış-qarış gəzib dolaşırdı. Dayısıoğlu Qəriblə birlikdə öz qorxmazlığı, cəsarəti ilə həmkəndlilərinə ruh verirdilər, dəfələrlə Qafan-Gorus avtomobil yoluna çıxıb, erməni saqqallıları ilə üz-üzə gəlib onlara öz yerlərini göstərmişdilər, bu yurdun keşiyini çəkənlərin olduğunu onların gözünə soxmuşdular. Şahinlə Gülnarə nişanlı idilər, ara sakitləşən kimi toyları olasıydı.

Ən böyük zülüm ona oldu, qardaşı ilə nişanlısın itirdi, ağır yara aldı. Ermənilər Gülnarə ilə Mina İsmayılqızını girov götürməyə az qalmışdı, sahə müvəkkili Əbdülqadir Hüseynovun erməniləri atəşə tutması erməniləri yerə yatmağa məcbur eləmişdi.

Sonra da Oleq Babak özün yetirmişdi, o gəlməsəydi daha faciəli hadisələr baş verərdi.



**Yusif İsayev,** Qubadlı rayonunun Saray kənd sakini, “Zəngəzur” Cəmiyyətləri Birliyi Ağsaqqallar Şurasının üzvü: - Oleq təbiətən haqqı, ədaləti sevən, bu əxlaqı özünə həyat yolu seçən gənc idi. Ukraynadan Azərbaycana göndəriləndə bəlkə də heç burada nə baş verdiyini də bilmirdi, ermənilərin azərbaycanlılara qarşı qeyri-insani hərəkətləri barədə də aydın təsəvvürü yox idi. Ancaq Qubadlının sərhəd kəndlərində xidmətə başlayanda anladı ki, burada haqlı və haqsız olan tərəf var. “Qurani-Kərim”də Allah buyurur ki, Torpaq, Vətən, Haqq, Ədalət uğrunda savaşmaq müqəddəs əməldir: “Haqq yolunda şəhid olanları ölmüş hesab etməyin, əksinə, onlar öz Rəbbinin dərgahında diridirlər və əcrə yetişən sayılırlar.” Ali-İmran, 169. "Allah yolunda savaşın sizinlə savaşanlarla. Ancaq təcavüz etməyin. Təcavüzkarları sevməz Allah. Harda yaxalasanız öldürün onları, sizi çıxardıqları yerdən siz də çıxarın onları." Bəqərə, 190-194. Məhəmməd Peyğəmbər (S.Ə.S) də bu yolu tutmuşdu, təcavüzkarlarla əlində qılınc döyüşmüşdü, hər dəfə də döyüşdə əsir düşənlərə toxunulmasına imkan verməmişdi.Erməni silahlılarının əliyalın dinc sakinlərə qarşı hücumlarına şahid olanda vicdanı Oleqi düzgün qərar verməyə yönəltdi, Yuxarı Cibikliyə hücumu görəndə də insanlığı, vicdanı ona demişdi ki, haqsızlığa qarşı özünü sipər elə, günahsız qadın, uşaq, qocaların öldürülməsinə imkan vermə. Xristianlar da, müsəlmanlar da bir olan Ulu Yaradana-Allaha inanırlar. Hər iki dində cənnətə, cəhənnəmə inam var. Oleqin ədəbi məkanı cənnətdir.



**Ruhulla Zahidov, yazıçı-jurnalist:** Oleq Babakın xatirəsinə həsr etdiyi kitabında yazır: *"Oleq Babak Azərbaycan uğrunda həlak olmuş bir şəhiddir! Çünki şəhid, yüksək amal, məslək, vətən, əqidə, inanc uğrunda ölən, canını fəda edən insandır və Oleq Babak da bu amal uğrunda qəhrəmanlıq zirvəsinə ucalmışdır! Fədakarlıq, insanların xeyrinə öz maraqlarını könüllü olaraq qurban vermək, bəzən isə, hətta, ümumi maraqlar naminə öz həyatından keçmək, bu yolda ümumi bir məqsədə çatmaq kimi hərəkətləri xarakterizə edən müsbət mənəvi keyfiyyətdir. Fədakarlıq, müəyyən şərtlərdə fərdlərin özünü təsdiq etməsinin zəruri bir formasıdır. Bu keyfiyyətlər bir insanın gündəlik həyatda və insanlar arasındakı adi münasibətlərdə belə həyata keçirdiyi vəzifələrin ölçüsünü aşmaq, özünün qanunla müəyyən olunmuş maraqlarından imtina etmək və həyatını qurban verməyə qədər olan müstəsna hallarda təzahür etmiş olur. Kütləvi miqyasda bu cür hərəkətlərə ehtiyac azadlıq müharibələri, inqilablar və böyük ictimai dəyişikliklər zamanı yaranır. Fədakarlıq ən dəyərli insani keyfiyyətlərdən biri kimi kütləvi miqyasda olan qəhrəmanlığa yol açır. Bu yüksək mənəvi keyfiyyətləri özündə daşıyan fərdlərdə insanlara xidmət etmək kimi hissi bu zaman onlarda mənəvi bir ehtiyaca çevrilir".*[8]

[8] "Azərbaycan xalqının Ukraynalı oğlu", Gəncə – 2021, 104 səh.



**İslah Qənbərov** Cibiklidir, təqaüdçü polis, müharibə veteranıdır. Oleqlə birlikdə postlarda dayanıb, xoş ünsiyyətləri olub. Şeir həvəskarı olan şirin təbli İslah Oleq Babaka həsr etdiyi bu şeirlə Qəhrəmana ehtiramını ifadə edib:

**O qəhrəman bizim Oleq Babakdır!**

Xatirəmdə 30 ildir yaşayır,
Bu həsrəti neçə insan daşıyır.
Bir igidin xatirəsi başlayır
O igidin, adı Oleq Babakdır.

Haqsızlığa nifrət idi gözündə,
Bütöv idi söhbətində, sözündə.
Əsil zabit şərəfiydi özündə
O qəhrəman, bizim Oleq Babakdır.

Bu torpaqı doğma bildi, sevildi...
Danışanda, şirin dildi, sevildi
Öz dərdini bizlə böldü, sevildi...
O qəhrəman, bizim Oleq Babakdır.

Duman gəldi, dağ-dərəni bürüdü.
Baxmadı ki, düşmən çoxdu, sürüdü,
Çəkinmədən güllə üstə yeridi,
O qəhrəman, bizim Oleq Babakdır.

Bir kənd ilə doğmalaşdı, qol açdı,
Babək kimi el qəlbinə yol açdı.
Ermənilər qabağından qaçardı,
O qəhrəman, bizim Oleq Babakdır.

Doxsan birin yeddi aprel günündə,
Şir kimi dayandı düşmən önündə.
Kürəkdən vuruldu, silah əlində,
O qəhrəman, bizim Oleq Babakdır.

Ötsə də on illər, neçə əsrlər,
Yaşadar ürəkdə gələn nəsillər.
Şanına yazılar dastan, şeirlər,
O qəhrəman, bizim Oleq Babakdır.





**Tural İldırımlı** Qubadlı rayon icra hakimiyyəti başçısının Aşağı Cibikli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsidir: - Qubadlı rayonu 30 avqust 1930-cu il tarixli Azərbaycan Respublikası İcraiyyə Komitəsi və Xalq Komissarlar Sovetinin Qərarı ilə təşkil edilib. 31 avqust 1993-cü ildə rus-erməni hərbi birləşmələri tərəfindən işğal olunana qədər rayonun 1 şəhər və 93 kəndində 29 903 nəfər yaşayıb. 25 oktyabr 2020-ci il tarixdə Azərbaycan Prezidenti, Ali Baş Komandan möhtərəm İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahli Qüvvələri tərəfindən 27 il sürən işğaldan azad edilib. Hazırda rayonun əhalisi 40 min nəfərdən çoxdur. Qubadlı Azərbaycanın cənub-qərbində, Qarabağ yaylasının cənub şəqində yerləşir. Sahəsi 807 kvadrat kilometrdir. Ermənistan Respublikası ilə 120 km, Xocavənd, Laçın, Cəbrayıl və Zəngilan rayonları ilə həmsərhəddir.

Yuxarı Cibikli kəndi Bərgüşad çayının qolu olan Kosakərəm çayının sahilindədir. Kənd Aşağı Cibikli kəndinə nisbətən bir qədər yüksəklikdə yerləşir. Kənd  cibikli tayfasının adını əks etdirir.[9] Təcavüzkar erməni terrorçuları kiçik bir kənddən 7 nəfəri öldürüb, 3 nəfəri yaralayıbdır. 1993-cü ilədək Aşağı Cibikli, Yuxarı Cibikli və Xallava kəndlərini əhatə edən sovetlikdə 91 ailə 349 nəfər yaşayıb. 2026-cı ildə isə 141 ailə 452 nəfər yaşayır.

---

[9] https://www.wikiwand.com/az/Yuxar%C4%B1_Cibikli




44 gün davam edən Vətən müharibəsində, ondan əvvəl və sonra Ukrayna dövləti və xalqı daim Azərbaycanın yanında olub. Rusiyanın Ukraynaya qarşı bütün insanlıq, hüquq normalarını aşan təcavüzünün davam etdiyi bu ağır günlərdə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin şəxsi tapşırığı ilə artıq 4-cü ildir ki, ölkəmizdən Ukraynaya ən çox ehtiyac duyulan zəruri avadanlıq, yanacaq-sürtkü materialları, tibbi ləvazimat, geyim, ərzaq məhsulları göndərilir, valideynlərini, daimi yaşayış yerlərini itirmiş ukrain uşaqlar Azərbaycana dəvət edilərək istirahəti təmin olunur, onlar üçün mənəvi-psixoloji reabilitasiya tədbirləri görülür. Mən kəndimizin, rayonumuzun sakinləri adından Oleq

Babakı yetişdirən dost, qəhrəman ukrain xalqına Uca Yaradandan haqq işi uğrunda mübarizəsində yardımçı olmağı arzulayıram. İnsanlıqdan uzaq siyasilərin məkrli düşüncəsinin törətdiyi müharibədə yaşamını itirənlərə rəhmət, yaralılara şəfa, bu qara günlərin tezliklə bitməsini diləyirəm.

Vaxt gələcək, azad olunmuş Qubadlı rayonuna da böyük köç olacaqdır. O gün çox da uzaqda deyil. İnşallah, rayonumuzda Oleq Babaka əzəmətli abidə ucaldılacaq, onun şərəfinə küçələr veriləcək, gənc nəsillər onu da digər qəhrəmanlar kimi daim hörmətlə anacaqlar.

Bu məktub isə Azərbaycanın Qubadlı rayon sakinləri tərəfindən qəhrəman Oleq Babakın valideynlərinə yazılıb.

"*Hörmətli Yakov və Nadejda Babak!*

*Sizin oğlunuz Oleq çox şərəfli bir amal uğrunda həlak olmuşdur. O, Qubadlı rayon Yuxarı Cibikli kəndinin sakinlərini 70-dən çox erməni quldurunın hücumundan qoruyaraq, bu zaman xüsusi igidlik göstərmiş, dinc kənd camaatını müdafiə edərkən erməni silahlı terorçuları tərəfindən qətlə yetirilmişdir. Biz hər zaman əziz oğlunuz Oleq Babakın xatirəsini sevgi ilə anırıq.*






*Əzizlərimiz, biləsiniz ki, Oleq Babak təkcə Sizin oğlunuz deyil, bütün Azərbaycanın oğludur. Çünki o Azərbaycan üçün canını qurban verib. Bu günkü, gələcək nəsillər sizin oğlunuzdan, onun qəhrəmanlığından danışacaqlar, Oleqin adı uşaqların qəlbində, dilində, anaların duasında daim yaşayacaq. Qəhrəman Oleqi böyüdən Ata, Anaya minnətdarlığımızı bildiririk.*

*Çox hörmətlə: Qubadlı rayon ictimaiyyəti və Yuxarı Cibikli kənd sakinləri".*

## POLKOVNİK ZAHİD NƏZƏROVUN QİSASI



Yuxarı Cibiklidə doğulmuş Zahid Qulam oğlu Nəzərov Yuxarı Cibiklidə baş verən döyüşdə öldürülən qardaşı Qəribin və yaralanan Gülnarənin qardaşıdır. 1982-1984-ci illərdə Moldovada həqiqi hərbi xidmətdə olub. 1984-1988-cü illərdə Serqo Orconikidze adina Ali Hərbi Məktəbdə oxuyub, Sovet Ordusunda peşəkar hərbçi zabit idi.

O, kənddəki ailələrində baş verən faciəni eşidən kimi qardaşı Qəribin dəfn mərasiminə gəlib, Rusiyada qulluq etdiyi hərbi hissədə xidmətdən imtina edib dogma Vətənə gəlib Milli Orduya yazılıb, 1991-1993-cü illərdə Kəlbəcərdə, Ağdərədə, Sırxavənddə, Daşaltıda xidmət etdiyi hərbi hissənin qərargah rəisi kimi döyüşlərdə olub. Onunla birlikdə qulluq edən silahdaşları deyirlər ki, Zahid dəfələrlə erməni terroçuları ilə

döyüşdə şəxsən iştirak edərək Şəhid edilən, yaralanan dogma, əzizlərinin intiqamını alıb.

O, 1994-cü ildə atəşkəs imzalandıqdan sonra da müxtəlif hərbi hissələrdə rəhbər vəzifələrdə çalışıb. Prezident İlham Əliyevin 2005-ci il 803 nömrəli sərəncamı ilə polkovnik Zahid Nəzərov “Hərbi xidmətlərə görə” və "Vətən uğrunda" medalları ilə təltif edilib. Acı təəssüflər olsun ki, bu peşəkar zabit ömrünün ən yetkin çağında vəfat edib.

Onun vəfatı haqqında “Fədai” qəzetinin yaydığı nekroloq məlumatında deyilir: *“Daxili İşlər nazirliyinin Daxili Qoşunların baş idarəsinin ehtiyatda olan zabitlərinə, Silahlı Qüvvələr və Müharibə Veteranlarına ağır itki verib. Daxili işlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinin Gəncə şəhərində, Binəqədi və Quba rayonlarında yerləşən hərbi hissələrdə hərbi hissənin döyüş hazırlığı bölmələrinin rəisi, hərbi hissə komandirinin birinci müavinini, hərbi hissə komandiri, Daxili Qoşunların Baş idarəsinin Qərargahında isə Əməliyyat şöbəsinin rəisi vəzifələrində xidmət etmiş ehtiyatda olan polkovnik Nəzərov Zahid Qulam oğlu 23 oktyabr 2021-ci il tarixində 57 yaşında vəfat edib*[10]

[10] *https://fedai.az/?p=51981* ”

# QUBADLI I QARABAĞ MÜHARİBƏSİNDƏ



1989-1993-cü illərdə Qubadlıda batalyon komandiri, şəhid Milli Qəhrəman Əliyar Əliyevin, digər komandirlərin, polis rəisləri Nadir Hüseynov, Faiq Kərimov, Evarest Paşayevin başçılığı ilə ərazinin, mülki əhalinin silahlı erməni terrorçu dəstələrinin hücumlarından müdafiəsi sahəsində yaddaqalan uğurlu döyüşlər aparılmışdı.

I Qarabağ müharibəsi başlayan günlərdən ölkədə yeganə dövlət informasiya qurumu olan AZƏRTAC-Azərbaycan Dövlət İnformasiya Agentliyinin "Zəngəzur İnformasiya Mərkəzinin direktoru-AZƏRTAC-ın (o zaman belə yazılırdı: AzərTAc) direktoru olaraq (əmək kitabçamda tam 16 il bu vəzifə və "AzərTAc-ın Azərbaycan dilində informasiya ma-

teriallarının buraxılış redaktoru" yazılıb) Şuşa, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonlarında baş verən hadisələri yazıb yaymaq mənim vəzifəm idi. 1994-cü il 12 may atəşkəsinə qədər dövlət televiziya, radiolarının xəbər proqramları, rəsmi qəzetlərin xəbər blokları tez-tez mənim Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzulidən verdiyim xəbərlərlə açılırdı: - AzərTAc-ın xüsusi müxbiri Hacı Nərimanoğlu xəbər verir...Və o xəbərlərin bir çoxunu yığıb toplayıb dəfələrlə dərc, nəşr etdirmişəm. Bunlar II Qarabağ – Vətən müharibəsinin başlanmasından 77 gün qabaq, "525-ci qəzet"in 2020-ci ilin 10 iyul nömrəsində yayılan, ölkədə ən çox oxunan materiallardan biri olan "Biz döyüşdə uduzmadıq…" başlıqlı məqaləmdən parçalardır;

-1990-cı il fevralın 25-dən 26-a keçən gecə ermənilər Rusiyanın 366-cı motoatıcı briqadasının əsgər və zabitləri ilə Xocalı şəhərində yaşayan mülki əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdi, 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini xüsusi amansızlıqla qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdiib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralandı. 1275 nəfər əsir götürüldü. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Xocalı qırğınının intiqamını almaq üçün fürsət gözləyən Milli Qəhrəman Əliyar Əliyevin komandir olduğu Qubadlı alayının topçuları (Qurban, Qiyas, Nurəli…) yuxarıların əmri olmadan daşnak yuvası Gorus şəhərinin altını üstünə çevirdilər. Ermənininin yatsa yuxusuna da girməzdi ki, meşə yolu ilə dağ-dərələrə Gorusu vura bilən toplar dartıb gətirmək olar. Moskvadan

"Vesti" proqramının verdiyi məlumata görə, ölənlərin sayı 300-ü keçmişdi. Ermənistanda üç günlük matəm elan edilmiş, goruslular şəhər merini və komendantını elə həmin gün biabırçılıqla İrəvana qovalamışdılar.

- Əliyarın başçılıq etdiyi batalyon tərəfindən Gorusun Şurnuxu kəndində yerləşən erməni qərargahının dağıdılıb 40 rus-erməni əsgərinin əsir götürülməsini əks etdirən canlı videolentlər televiziyalarda tez-tez göstərilirdi, arxivlərdə qalır. Ancaq bu tutulanlar elə həmin gün Moskva və Bakıdakı rəsmilərin, mərkəzdən göndərilən yüksək rütbəlilərin müşayiəti ilə azad edilib Moskvaya, oradan isə İrəvana yola salınmışdı. İrəvanın Teatr meydanında onların qarşılanma mərasimini Ermənistan televiziyaları göstərirdi.



-1991-ci ilin aprelində və mayında Cibiklidə, 1992-ci ilin 12 oktyabrında Topağac-Başarat yüksəkliyi uğrunda gedən döyüşlərdə də erməni ağır itkilərə məruz qalmışdı. Rusiyanın Ermənistana hədiyyə etdiyi 1 PDM, 1 "T-72" tankı 1992-ci ilin 12 dekabrında Seytas kəndi yaxınlığında, daha 2 "T-72" tankı 1993-ci ilin 27 iyulunda Yazı düzündə qabaq-qənşər döyüşdən qaçan ermənilərdən qənimət alınmışdı.

-15 mart 1992-ci ildə Gorus-Qafan yoluna yaxın kəndlərdə bir neçə nəfəri qətlə yetirmiş terroçu dəstəbaşı Karen

Qriqoryan Laləzar körpüsü ətrafında mühasirəyə alınır, quldurlar çevik, cəsarətli sərrast atəşlərlə məhv edilir, cəsədləri Xocalı əsirləri ilə dəyişdirilir. Bu terrorçuların məqsədi Laləzar körpüsünü partladıb bir neçə sərhəd kəndinin rayonun digər ərazisi ilə əlaqəsini kəsmək, həm strateji yüksəklikləri ələ keçirmək, əhalisini öldürüb əsir götürmək idi.

- 16 mart 1992-ci ildə saat 16 radələrində Ermənistan Müdafiə Nazirliyinin iki Mİ-24 hərbi vertolyotu Qubadlıdan sərhəddi keçərkən Əliquluuşağı kəndi sahəsinə aid ərazinin müdafiə mövqelərində yerləşən 1-ci Motoatıcı taborun (batalyon) 3-cü motoatıcı bölüyün (komandir leytenant İlham Nəriman oğlu Məmmədli) əsgərlərinin sərrast atəşləri ilə vurulub yerə salınmışdı, ancaq onların ardınca uçan xüsusi zireh örtüklü Mİ-8 vertolyotu vurulan hər iki helikopterin yaralanmış ekipajını yerdən götürərək Gorus şəhərinə çatdırmağa macal tapmışdı. Vertolyotlardan birincisi Teymur Müskanlı kəndinin içində yerə düşüb parçalanmışdı, "skeleti" gətirilib rayon mərkəzində qoyulmuşdu. O biri vertolyot Bərguşad çayının sahilindəki çaylağa düşüb alışsa da, çayda çimən uşaqlar tez söndürmüşdü, səhərisi kiçik təmirdən sonra pilotlar Zakir Yusifov və Feyruz Cəlilov bu vertolyotu Azərbaycan Hava Qüvvələrinin Zabratdakı hərbi alayına aparıb təhvil verdilər. Ad da qoymuşdular: "armyaşka". Bu barədə videogörüntülər internet resurslarında qalır.[11]

Vertolyotdakılardan biri Şimali Qafqaz Hərbi Dairəsinin keçmiş Baş Qərargah rəisi və Varşava Müqaviləsi Təşkilatına üzv dövlətlərin Birləşmiş Silahlı Qüvvələrinin Baş Qərargah

[11] https://www.youtube.com/watch?v=fw2wdMyEdU4

rəisi, həmin günlərdə isə Qarabağın Ermənistana birləşdirilməsinin hərbi planını hazırlayıb əməliyyata şəxsən rəhbərlik edən, ermənilərin marşal Baqramyandan sonra ən böyük sərkərdə saydıqları general-leytenant Qraç Amayakoviç Andresyan olub. O, Qubadlı üzərindən Xankəndiyə uçarkən yolüstü "əliboş" getməməyi düşünürmüş.

Andresyan "ürəyinin və erməni qanının çağırışı ilə" könüllü olaraq 1992-ci ilin aprelində dünya ermənilərinin "miatsum" xoruna səsini qatıb real töhfə vermək niyəti ilə Ermənistana gəlmişdi.

Bu hadisənin gerçək tərəfləri rusdilli erməni saytlarında təhrif edilmiş formada yazılıb[12]. I Qarabağ müharibəsinin ən möhtəşəm uğurlarından biri olan həmin olayın informasiyasını AZƏRTAC-ın hərbi müxbiri və hadisə yerinə ilk gələnlərdən olaraq 1-ci dəfə ölkə və xarici mediaya mən yaymışam, bu haqda dəfələrlə yazmışam.[13]

-Azərbaycanın qəhrəman oğlu Əliyar Əliyevin 1992-ci ilin 30 oktyabrında bir qrup döyüşçü ilə 6 aydır yağı tapdağında olan Laçının 30-dək kəndini azad etməsi hərb tariximizə yazılan hadisə idi. Əliyarın dəstəsinin Laçın şəhərinə çatıb koridoru bağlamağına 2 kilometr qalmışdı, lakin öndə gedən igid komandir və sürücüsü Qanlı zəmi, Şurum təpəsi deyilən

---

[13] https://www.yenises.az/az/posts/detail/vhaci-nerimanoglu-yasar-ureklerde-adi-eliyarin-1671039325?fbclid=IwY2xjawQvExVleHRuA2FlbQIxMQBicmlkETFGU2hNSzhWS21YSkIzSlJzc3J0YwZhcHBfaWQQMjIyMDM5MTc4ODIwMDg5MgABHtSNbDhwwlWverLup0eXxvPn51gUZUyVhnXF-GyDwspzdyUfiS55Pr673GBm_aem_3vAIOtKcohuqZKXGn45RQg

yerdə xaincəsinə qətlə yetirildi, hücum dayandırıldı, tutulan postlar xəyanətkar əmrlə boşaldıldı.[14]



**İlham Xəlilov,** 2-ci batalyonun qərargah rəisi Yuxarı Cibikli kəndi və ətrafında baş verən sonrakı hadisələrdən danışır: artıq SSRİ dağılmış, rus-sovet ordu dəstələri Qubadlını tərk etmişdi. Qonşu respublika və Qarabağın dağlıq hissəsi (dqmv) ilə 130 kilometrdən çox sərhəddi olan Qubadlı rayonu ərazisinin müdafiəsi bütünlüklə Müdafiə Nazirliyinin və rayon milis şöbəsinin şəxsi heyətinin məsuliyyətində idi. Ermənistan dqmv ilə birləşməni (ermənicə "miatsum") yekunlaşdırmaq istəyirdi. Kəlbəcər, Şuşa və Laçının işğalından sonra bu planın qarşısında duran ən böyük maneə Qubadlı idi. 10 dekabr 1992-ci ildə rus-erməni hərbi dəstələri çoxlu canlı qüvvə və texnika ilə güclü hücuma keçir, Yuxarı Cibikli kəndində burada doğulub böyümüş topçu Rəfail Abbasəli oğlu Qaybalıyev, Qayalı kəndindən bölük komandiri Həsən Qorxmaz, Beyləqanlı döyüşçü Sirac Mehdiyev, Oğuzlu döyüşçü Əhməd Nofiyev, Xaçmazlı Tərlan Məhərrəmov, Ağbulaq kəndindən qaçqın gəlib bu kənddə məskunlaşan Zülfüqar kişi və həyat yoldaşı Nərgiz xanım, Əyin kəndinin yuxarı hissəsindəki "Əyindağ" postunda Əyinli topçu Elşən Nəcəfovu,

[14] https://525.az/news/145308-biz-doyusde-uduzmadiq-bir-xeberin-xatiresi



əsgər Elman Qəhrəmanovu qətlə yetirir, bir neçə nəfəri yaralayır. Bu strateji yüksəklikləri tutan ermənilərin növbəti hücuma hazırlaşdığı aydın görünürdü. Hərbi hissə və milis dəstələri dekabrın 11-də sübh tezdən bir neçə tərəfdən hücuma keçərək Yuxarı Cibiklini azad etdi. Həmin döyüşdə 3-cü tabordan köməyə gəlmiş qrupun komandiri Novruz Rüstəmov (Başarat kəndi), Ağstafalı Süphan Abdullayev, Kürdəmirli Zahid Əhmədov şəhid oldu, 7 nəfər yaralandı. Xeyli silah-sursat, texnika, o cümlədən BMP-1 qənimət götürüldü. Əyin, Cibikli istiqamətindəki bütün postlar erməni silahlılarından təmizləndi. Qubadlıların I və II Qarabağ müharibəsi salnaməsində belə uğurlu döyüşləri barədə faktlar onlarladır.[15]

Bütün şəhidlərimzin, vətən, torpaq uğrunda vuruşub canlarını fəda edənlərimizin məzarı nurla dolsun, ruhları şad olsun!

[15] “Xalq qəzeti”, 14 -17 sentyabr 1996-cı il.

Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi

# İlham Əliyev Qubadlı və Zəngilan rayonlarında olub

23 dekabr 2020

Dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.

Qubadlıya gedən yolda avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:

-Cəbrayıl rayonunun ərazisindəyik. Azad edilmiş torpaqlardayıq. Sağ tərəfdə ermənilər tərəfindən dağıdılmış kəndlərimizdir. Gedirik Qubadlı rayonuna.

Dağıdılmış üzüm bağları. Bütün kəndlər dağıdılıb. Yolun sol və sağ tərəflərində olan dirəklər torpaqlar işğaldan azad olunandan sonra qısa müddət ərzində qoyulmuşdur.

Bütün kəndlər dağıdılıb. Düşmən bu cinayətlərə görə cavab verəcək. Bütün kəndlərimiz, tarixi abidələrimiz, dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Bütün dünya bunu görməlidir.

Sovet vaxtından qalan abidə. İkinci Dünya müharibəsinə həsr edilmiş abidədir. Onu da dağıdıblar.

Növbəti dağıdılmış kənd.

Birinci xanım Mehriban Əliyeva: Kəndin adı nədir?

Prezident İlham Əliyev: Göyərçin Veysəlli kəndi. Erməni faşistlər tərəfindən dağıdılıb. Heç İkinci Dünya müharibəsi zamanı faşistlər belə vəhşilik törətməyib. Görün, biz hansı vəhşi düşmənlə üz-üzə idik, biz hansı şər qüvvələri məğlub etdik?! Bölgəmizi, Qafqazı faşistlərdən azad etdik. Bütün bu kəndləri bərpa edəcəyik. Ancaq, ilk növbədə, bütün kəndlər, o dağıntılar sənədləşdiriləcək, uçota alınacaq.

Zəngilan rayonunun ərazisindən keçirik.

Babaylı kəndi. Bu da dağıdılıb.

Bir dənə də salamat bina yoxdur. Baxın, bütün binalar dağıdılıb. Köhnə qəbiristanlıq.

Zəngilan rayonunun gözəl mənzərəsi, səfalı məkan. Hamısını bərpa edəcəyik. Bu da Üçüncü Ağalı kəndi. Görünür burada ermənilər yaşayıblar. Amma görün nə gündə yaşayıblar. Mən deyəndə ki, işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, budur bunun sübutu. Bizim kəndimizə gəliblər, kəndimizin böyük hissəsini dağıdıblar.

Ermənilərin zəbt etdikləri evlərimiz. İndi Üçüncü Ağalı kəndinin sakinləri yəqin ki, tanıyar bu ev kimindir. Gələsən, başqasının torpağını zəbt edəsən, insanları evsiz-eşiksiz qoyasan, onların evində yaşayasan, xarabalığa çevirəsən, sonra da deyəsən ki, bu, qədim erməni torpağıdır. Saxtakarlar, oğrular, yalançılar, vəhşilər bizim torpaqlarımızı 30 ilə yaxın müddət ərzində işğal altında saxlayıblar. Bütün bu videosənədlər hüquqi müstəvidə bizim təzminat davamız üçün əşyayi-dəlil olacaq.

Birinci Ağalı kəndi. Bura da dağıdılıb. Amma bəzi evlər qalıb. Ermənilər bizim evlərimizdə yaşayıblar. Bundan sonra

özümüz yaşayacağıq öz evlərimizdə. Onlar da getsinlər öz vətənlərində yaşasınlar.

Seləli kəndi. Bu kənd də dağıdılıb. Görün nə günə qoyublar. Mən hələ müharibədən əvvəl deyirdim ki, bizim bütün kəndlərimiz, şəhərlərimiz talan edilib. Ermənilər dam örtüklərini, pəncərə çərçivələrini, hər şeyi aparıblar. Açıq-aşkar oğurluq ediblər, bizim torpaqlarımızı istismar ediblər.

Evin yarısını söküb, o biri tərəfdə yaşayıb. Baxın, nə günə qoyublar. Talançılar!

Vəhşi düşmən keçib bu torpaqlardan, dağıdıb ki, heç vaxt Azərbaycan əhalisi buraya qayıtmasın. İnşallah, hamımız qayıdacağıq. Hər şey dağıdılıb.

Birinci xanım Mehriban Əliyeva: Yəqin ora hərbi hissədir.

Prezident İlham Əliyev: Orada artıq Azərbaycan bayrağı ucaldılıb. Hərbi hissələr tikiblər ki, torpaqlarımızı əbədi işğal altında saxlasınlar, amma rədd etdik onları, qovduq torpaqlarımızdan. Torpaqların sahibləri qayıdır.

Baxın, ağacları necə qırıblar. Baxın, vəhşi düşmən neyləyib, bütün ağacları kəsib. Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsınlar, gözlərini açsınlar. Riyakar siyasətçilər açın gözlərinizi, baxın. Sizin parlamentləriniz qətnamələr qəbul edib. Bizim üçün o qətnamələrin heç bir əhəmiyyəti yoxdur, bir kağız parçasıdır. Amma iş ondadır ki, bizə qarşı yenə əsassız ittihamlar irəli sürülür. Fransa parlamentinin deputatları, Bel-

çika, Hollandiya parlamentlərinin deputatları, baxın, sizin sevimli ermənilər nələr ediblər bu torpaqlarda? Açın xəritəyə baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr. Azərbaycanı ittiham edirlər.

Qubadlının Xanlıq kəndi. Xanlıq kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Ermənilər bizim bu tarixi, qədim kəndimizə eybəcər ad veriblər. Xanlıq kəndi Qubadlı rayonunun ərazisində yerləşir. Biz indi Qubadlı rayonunun ərazisindəyik. Ermənilər Xanlıq kəndində özləri üçün hərbi istehkam, hərbi baza qurmuşdular. Xanlıq kəndində qanunsuz məskunlaşma aparılmışdı. Xaricdən gətirilən ermənilər burada qanunsuz yollarla yerləşdirilmişdilər. Bu da hərbi cinayət sayılır. Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Baxın, xaricdən gələn ermənilər üçün xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salınıb.

Kənd təsərrüfatı texnikası. XX əsrin 50-ci illərində istehsal olunub. Xaricdə yaşayan ermənilər cinayət törədiblər. Xaricdən erməniləri gətirib bizim torpaqlarımızda məskunlaşdırıblar. Xanlıq qəsəbəsində azərbaycanlıların evlərini söküb sonra ermənilər üçün evlər tikiblər. Bu da ermənilərin maşını. Bax, bu maşınları sürürdülər onlar. Bu da bizim qəhrəman əsgərlərimizin adları. Öz adlarını yazıblar bu evlərin üzərində. Biləsuvar, Şabran, Sabirabad, Şuşa, Oğuz. Bax, qanunsuz məskunlaşma budur. Bu da ermənilərin növbəti maşınları, baxın.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəldilər, burada hərbçilərlə görüşdülər.

Prezident İlham Əliyev: Salam uşaqlar.

Əsgərlər: Sağ olun!

Prezident İlham Əliyev: Nə var, nə yox, necəsiniz?

Əsgərlər: Çox sağ olun!

Prezident İlham Əliyev: Xidmət necə keçir?

Əsgərlər: Əla. Hər şey yaxşıdır.

Prezident İlham Əliyev: Çox yaxşı. Bu, ermənilərin bizim qədim kəndimizdə saldığı bir qəsəbədir. Bizim evlərimizi söküb, ondan sonra da xaricdən gələn ermənilərin pulu ilə bu qəsəbə salınıb. İndi biz burada yaşayırıq. Siz burada məskunlaşmısınız, xidmət göstərirsiniz. Biz öz doğma torpaqlarımıza qayıtmışıq. Bu torpaqları döyüş meydanında azad etmişik. Düşməni öz torpaqlarımızdan qovmuşuq, bax, sizin kimi əsgərlərin sayəsində. Bütün dünya gördü ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti nəyə qadirdir.

Gəlin uşaqlar, gəlin.

Əsgərlər: Xoş gəlmisiniz, cənab Prezident.

Prezident İlham Əliyev: Xoş gördük. Bu, bizim qədim torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb.

Əsgər: Ay maşallah, igiddir, əsl igid.

Prezident İlham Əliyev: Salam, salam. Sonra şəkil çəkdirək.

Döyüş meydanında gücümüzü göstərdik. Erməniləri torpaqlarımızdan qovduq. Azərbaycan Bayrağını torpaqlarımızda ucaltdıq. Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdik, döyüş meydanında, danışıqlar yolu ilə yox. Bizim

başımızı aldadırdılar. Bu 27 il ərzində ermənilər burada özləri üçün qəsəbə salıblar, xaricdən erməniləri gətiriblər. Xanlıq qəsəbəsinə bir eybəcər erməni adı veriblər.

Əsgərlər: "Onları iti qovan kimi qovduq" sözləriniz şüarımızdır.

Prezident İlham Əliyev: Gördülər bizim gücümüzü. Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli.

Əsgərlər: Var olun, var olun, var olsun Azərbaycan! Allah Sizi bizim başımızın üstündən əskik etməsin!

Prezident İlham Əliyev: Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi. Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.

Əsgərlər: Sizin başçılığınız və iradəniz sayəsində.

Prezident İlham Əliyev: Sağ olun.

Əsgərlər: Biz sizinlə fəxr edirik. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev: Gəlin, şəkil çəkdirək.

Əsgər: Ad gününüz mübarək, yüz yaşayın, Allah ömrünüzü uzun eləsin!

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşdülər.

Prezident İlham Əliyev: Qubadlı rayonunun ərazisindən iki böyük çay keçir: Həkəri çayı və Bazarçay. Onlardan biri də budur, baxın. Çox güman ki, bu, Həkəri çayıdır. Bura isə

Aşağı Mollu kəndidir. Şəhidimiz Əsgərov Rüfətin şəkli. Allah rəhmət eləsin! Bütün şəhidlərimizə Allah rəhmət eləsin!

Birinci xanım Mehriban Əliyeva: Allah rəhmət eləsin!

Prezident İlham Əliyev: Qubadlı rayonunun gözəl mənzərəsi. Yenə də dağıdılmış kənd. Hər şeyi yenidən quracağıq, yolları da, bütün infrastrukturu da. Gözəl mənzərədir.

Bu da yəqin ki, Bazarçaydır. Çünki Qubadlının bir tərəfindən Həkəri çayı axır, digər tərəfindən Bazarçay, bax, buradan görünür. Ona Bərgüşad çayı da deyirlər. Qəzyan kəndi. Bax, ermənicə nəsə yazıblar orada.

Diləlimüskənli kəndi. Bu kənd də dağıdılıb. Bütün evlər dağıdılıb. Bir-iki ev qalıb, orada da düşmən yaşayıb. Bu da Saray kəndidir. Saray kəndi Qubadlı şəhərinin yaxınlığında yerləşir. Bu kənd də dağıdılıb.

Baxın, Qubadlı şəhərini düşmən nə günə qoyub. Bütün binalar dağıdılıb. Ancaq özləri üçün hərbi hissə tikiblər. Bu da Qubadlı şəhəri. Bu, yəqin ki, onların anbarları olub. Bu ev də sökülüb.

Qubadlı şəhərinin girəcəyində ermənilər hərbi baza tikiblər. Gün də çıxdı. Təbiət də bizi alqışlayır, salamlayır. Sahibləri gəlib bu torpağa. Gör nə gündədir Qubadlı şəhəri? Nə günə qoyub düşmən bizim şəhərimizi?

Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı.

Dövlətimizin başçısı burada çıxış etdi.

## PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

– Bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidova mən Milli Qəhrəman adını Aprel döyüşlərindən sonra verdim, göstərdiyi qəhrəmanlığa görə. Allah ona rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan hərbçiləri, o cümlədən Şükür Həmidov dövlət tərəfindən yüksək döyüş ordenləri ilə təltif edilmişdir.

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, bizim növbəti istiqamətimiz Qubadlı rayonu idi və şəhərdə ermənilər güclü istehkam qurmuşdular. İndi şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar dağıdılıb, sökülüb və yol boyunca Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bütün kəndləri, qəsəbələri dağıdılıb. Ancaq burada, şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək, ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi

yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdirilib. Bu, özlüyündə hərbi cinayətdir. Bu cinayətə və bütün digər cinayətlərə görə Ermənistan dövləti cavab verəcəkdir.

Qubadlını azad etmək üçün, ilk növbədə, biz bu yüksəklikləri götürməli idik. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Eyni zamanda, Ermənistan ərazisindən bizə atəş açılırdı. Nəzərə alsaq ki, Azərbaycan Ermənistan ərazisinə keçmək fikrində deyildi və mən bunu müharibə zamanı dəfələrlə bildirmişdim. Onlar hesab edirdilər ki, bu imkanlardan istifadə edib, bizim hücumumuzun qarşısını ala bilərlər. Buradan, Qubadlı şəhərindən Ermənistan sərhədinə, bax, o istiqamətdən 5 kilometr məsafədir. Həm oradan ağır artilleriya ilə, həm də bu yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək bizim əsgərlərimizi, hərbçilərimizi atəşə tutmuşlar. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizləyiblər.

Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün

görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi - gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda, strateji yüksəkliklər ələ keçiriləndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün.

Düşmən bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya gedəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Biz Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızıbazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığnaq, Çanaxçı və Daşaltı kəndini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qubadlı azad olundu və noyabrın 8-də



Şuşa şəhəri azad edildi. Beləliklə, düşmən təslim olmağa məcbur oldu.

Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən

tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat – bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət göstərir. Bu da böyük nailiyyətdir. Biz mütləq o bölgələri də, o rayonları da döyüşərək alacaqdıq. Amma çox itkilər verə bilərdik, xüsusilə Ağdam istiqamətində, hər tərəf minalanmışdı və bir neçə müdafiə xətti var idi. Eyni zamanda, xüsusilə hava şəraitini nəzərə alsaq, Kəlbəcər, Laçın rayonlarının döyüşlə azad edilməsi də böyük itkilərə gətirib çıxaracaqdı. Artıq qış başlamışdı, yolları buz bağlamışdı. Kəlbəcərə Göygöl rayonundan keçmək üçün saatlarla vaxt lazımdır.

Ona görə noyabrın 10-da imzalanmış Bəyanatın çox böyük əhəmiyyəti var. Təbii ki, əgər biz o günə qədər böyük ərazini işğalçılardan azad etməsəydik, düşmənin belini qırmasaydıq, düşmən ordusunun məhv edilməsində istədiyimizə nail olmasaydıq, əlbəttə, düşmən onun üçün bu alçaldıcı sənədə qol qoymazdı. Biz onu məcbur etdik, torpaqlarımızdan qovduq və mən verdiyim sözə həmişə olduğu kimi sadiq qaldım. Müharibənin ilk günlərindən demişdim, Ermənistan rəhbərliyi açıq-aşkar bəyan etməlidir ki, nə vaxt, hansı tarixdə bizim torpaqlarımızdan çıxır. Tarix verməlidir bizə. Əgər bu olarsa, biz müharibəni dayandırarıq. Amma bizə tarix verilmədi. Çalışırdılar ki, müxtəlif yollarla xarici ölkələri bu işlərə qoşaraq öz çirkin əməllərini davam etdirsinlər, işğalı davam etdirsinlər. Əgər Ermənistan rəhbərliyi o vaxt mənim sözümə baxıb düzgün addım atsaydı, belə alçaldıcı vəziyyətə düşməzdi. Mən demişdim ki, axıra qədər gedəcəyik və axıra qədər də

getdik, lazım olan anda dayandıq, üç rayonu bir güllə atmadan, bir itki vermədən qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, bax, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Mən azad edilmiş bu bölgələrdə olarkən, ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə saldı. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub, bizim qabağımızda diz çöküb və düzgün nəticə çıxarmalıdır. Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar.

Biz öz istəyimizə nail olduq. Dekabrın 10-da Zəfər paradı keçirildi. Zəfər paradında biz düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasını nümayiş etdirdik və öz hərbi potensialımızı nümayiş etdirdik. Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. İndi gələn ilin büdcəsi müzakirə olunur. Mənim təşəbbüsümlə hərbi xərclər artırılır. İlk növbədə, ona görə ki, müharibə zamanı biz bir çox silah-sursatdan istifadə etdik, onları bərpa etmək lazımdır. Eyni zamanda, müasir texnikanın bundan sonra da alınması nəzərdə tutulur. Bundan sonra da ordumuzun müasirləşdirilməsi, ordumuzun döyüş potensialı, ordumuzun peşəkarlığı daim diqqət mərkəzində olacaqdır.

Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır.

Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur.

Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik.

Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nə-

zərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanır, bütün dəymiş ziyan hesablanacaq. Bizim torpaqlarımız istismar edilirdi, təbii ehtiyatlarımız istismar edilirdi. Zəngilan rayonunda qızıl yatağı istismar edilirdi. Azad edilmiş digər ərazilərdə də, həmçinin. Bütün bunların hesabını Ermənistan dövləti verəcək. Bununla paralel olaraq bütün bərpa işləri təmin ediləcək və biz bütün şəhər və qəsə-



bələrimizi, kəndlərimizi bərpa edəcəyik, insanlar buraya qayıdacaq və biz öz torpağımızda bundan sonra əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi öz torpağımızdan çıxara bilməz.

Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!

* * *

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşdülər.

Prezident İlham Əliyev: Zəngilan. Zəngilan şəhərinə az qalıb.

Düşmən Zəngilanda da hər şeyi dağıdıb. Baxın, dağılmış evlər. Baxın, bu evi nə günə qoyublar.

Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaltdı.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəldilər.

Məscidin qarşısında çıxış edən Prezident İlham Əliyev dedi:

- Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib.

Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün,

məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu "dost ölkəyə" 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq tor-

paqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan “beynəlxalq məmurlar” öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.

* * *

Prezident İlham Əliyev: İndi isə Zəngilandan Bakıya qayıdırıq. Yolboyu Zəngilanın gözəl təbiətini seyr edirik. Görün, necə gözəl yerlərdir. Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, İnşallah.

İndi istiqamət Bakı şəhəridir. Çəkilişi aparan Mehriban xanıma da təşəkkürümü bildirirəm. Xahiş edirəm özünü də çəksin.

Birinci xanım Mehriban Əliyeva: Dərin hörmət və məhəbbətlə sizin Mehriban.

Prezident İlham Əliyev: Sağ olun, əziz bacı və qardaşlar. Qarabağ Azərbaycandır![16]

[16] https://president.az/az/articles/view/49394



**İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq keçirilən yürüşdə iştirak ediblər**

**27 sentyabr 2021**

Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində yürüş təşkil edilib.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.

Sonra dövlətimizin başçısı Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlini qoyub.

Yerli vaxtla saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.




Təməlqoyma mərasimindən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dənizkənarı bulvar ərazisinə gələrək qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla yad etdilər.

Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərindən fasiləsiz fit səsi verildi, toplardan yaylım atəşi açıldı.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.[17]

[17] https://president.az/az/articles/view/53234

## 2026-cı İLDƏ QUBADLIYA QAYIDIŞ BAŞLAYIR



Tarixi Zəfərin 6-cı ilində Qubadlıda böyük tikinti işlərinə başlanır "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsi tərəfindən elan edilən tender müsabiqəsi şəhərdə çoxsaylı yaşayış binalarının tikinti-quraşdırma işlərini əhatə edir. Bu layihənin icrası üçün 36 225 492,39 azn məbləğində vəsait müəyyən edilib. Elan edilən tenderinə yekun vurulub, tenderin qalibi Emin Ağalarovun qurucusu olduğu "See Breeze Construction" MMC olub. Bundan əvvəl Qubadlı rayonunun Xanlıq kənd yaşayış məntəqəsində genişmiqyaslı tikinti-quraşdırma işlərinin həyata keçirilməsi üçün ehtimal olunan dəyəri 94 milyon 807 min manat təşkil edən layihənin icrasına başlanacağı da elan edilib. Layihə çərçivəsində fərdi yaşayış evləri, çoxmənzilli binalar, mühəndis kommunikasiya sistemlərinin qurulması nəzərdə tutulur. Mahruzlu kəndində 26.4 milyon manatlıq tikinti-quraşdırma işləri də son günlər sürətlə davam edir. Qayıdışın mübarək, Qubadlı![18]

---

[18] https://zengezur.com/index.php/component/content/article/qubadli-see-breeze?catid=18&Itemid=101

## ŞƏHİDLƏR AND YERİMİZDİR



**Rəşad Salmanov:** Qubadlı rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi-təşkilat məsələləri sektorunun müdiri: Torpaqlarımızın ərazi bütövlüyü uğrunda həlak olan qəhrəmanların xatirəsi qəlbimizdə daima yaşayacaqdır. Qubadlı rayon sakinləri Sovet İttifaqının sonuncu qəhrəmanı Olek Babakın xatirəsini hər zaman əziz tutur. Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin anım günlərində onu da yad edərək böyük etiramla anırlar.

Qarabağ müharibəsi zamanı Qubadlının 252 şəhidi olub. Onlardan 138-i hərbi, 114-ü isə mülkü şəhiddir. 281 rayon sakini əlil olub. Rayon polis şöbəsinin 12 əməkdaşı şəhid olub, onlardan 2-si Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Ümumilikdə Qubadlı rayonundan 9 nəfər Azərbaycanın Milli Qəhrəmanı adını alıb. 44 günlük Vətən müharibəsi zamanı 12 rayon sakini şəhid olub. Bunlardan 3-ü Vətən Müharibəsi Qəhrəmanıdır. 40-dan cox rayon sakin əlil olub.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun torpaqlarımızın işğal edildiyi 8 Noyabr Zəfərindən dərhal sonra şəxsən Qubadlı rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqovun təşəbbüsü və birbaşa rəhbərliyi ilə ilk öncə rayonumuzdan olan 5 Milli Qəhrəmanımızın ermənilər tərəfindən dağıdılmış məzarları yenidən yüksək səviyyədə bərpa olundu.

Xalq qəhrəmanları Qaçaq Nəbi və Həcər xanımın xatirə kompleksi ucaldıldı. Bunlarla yanaşı Qubadlı torpağında əbədi uyuyan 40 hərbi və 29 mülki şəhidin dağıdılmış məzarları rayon İcra hakimiyyətinin maddi və mənəvi dəstəyi ilə yenidən edildi, üzərində mərmər qəbirüstü abidələr qoyuldu.

Rayon sakinlərinin rəyi də nəzərə alınmaqla "Şəhidlər xiyabanı" abidə kompleksinin layihəsi hazırlanaraq quruculuq işlərinə başlanıb.

Bu gün qarşıda duran mühüm vəzifələrdən biri də Vətən müharibəsində əldə etdiyimiz qələbəni təbliğ etmək və gələcək nəsillərə çatdırmaqdır. Bu təbliğat yalnız keçmişi yad etməklə kifayətlənmir, eyni zamanda indiki dövrdə gənclərə vətənpərvər olmağa təşviq edir. Rayon İcra Hakimiyyəti aparatının fəaliyyət istiqamətinin əsas hissələrindən biri şəhidlərin anım günlərinin təşkili, şəhid ailələrinə qayğı və problemlərinin həlli ilə bağlıdır.

Bu, birbaşa Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qarşıya qoyduğu vəzifədir. Qubadlıda da bu məsələlərə xüsusi həssaslıqla, ən yüksək səviyyədə diqqət yetirilir.

**Adınız dilimizdə, əziz xatirəniz qəlbimizdədir, Şəhidlər!**









İSGƏNDƏROV
İLKİN
CAMAL
OĞLU







**Yaxın gələcəkdə Qubadlıda qurulacaq abidə**




ƏLİYEV
ƏLİYAR
YUSİF oğlu




1-ci QARABAĞ MÜHARİBƏSİNDƏ 06.08.1992-ci İL TARİXİNDƏ
QUBADLI RAYONUNUN QARAĞACLI KƏNDİNDƏN BİR GÜNDƏ ŞƏHİD




Копія

Подлежит опубликованию в "Ведомостях"

УКАЗ

ПРЕЗИДЕНТА СОЮЗА СОВЕТСКИХ СОЦИАЛИСТИЧЕСКИХ РЕСПУБЛИК

О присвоении звания Героя Советского Союза лейтенанту Бабаку О.Я.

За мужество, героизм и самоотверженные действия, проявленные при исполнении воинского долга, присвоить лейтенанту БАБАКУ Олегу Яковлевичу звание ГЕРОЯ СОВЕТСКОГО СОЮЗА (посмертно).

Президент Союза Советских Социалистических Республик М.ГОРБАЧЕВ

Москва, Кремль
17 сентября 1991 г.
№ УП-2574

Разослано: т.т.Горбачеву, Баранникову.

Згідно з оригіналом
Начальник загального відділу
та інформаційного забезпечення
виконкому міської ради
Т.Д.Нестерень

# QƏHRƏMAN OLEQ BABAKIN TƏLTİFLƏRİ

Ölümündən sonra Oleq Babak hərbi borcunu yerinə yetirərkən göstərdiyi mərdlik və fədakarlığına görə SSRİ Prezidentinin 17 sentyabr 1991-ci il tarixli UP-2574 saylı fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, ailəsinə Lenin ordeni və 1161 saylı "Qızıl Ulduz" medalı təqdim edilib.[19]

1941-1945-ci il Böyük Vətən Müharibəsindən 46 il sonra keçmiş SSRİ-nin Daxili Qoşun sistemində bu ad ilk dəfə olaraq Daxili Qoşunların Sofrin briqarasında rota komandirinin siyasi işlər üzrə müavini leytenant Oleq Babaka verilib.

Daxili Qoşunlar Günündə Müqəddəs Stanislav Ordeninin Böyük Magistrı, 5-ci dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif olunub.

---

[19]https://ru.wikipedia.org/wiki/Олег_Яковлевич_Бабак
https://en.wikipedia.org/wiki/Oleg_Babak

Onun general komandanları silah yoldaşları ilə birlikdə Oleqin doğulduğu Viktoriya kəndinə gələrək möhtəşəm tədbirdə bu ordenləri xüsusi təyinatlıların şərəf və şücaət simvolu olan tünd qırmızı beret taxmaq hüququ verən sertifikatlarla birlikdə daimi saxlanmaq üçün Yakov Andreyeviçə və Nadejda İvanovnaya  təqdim ediblər. Moska yaxınlığında, Aşukino kəndində Oleq Babakın xatirəsinə abidə ucaldılıb, kəndin küçələrinin biri onun adını daşıyır. Xatirə lövhəsində yazılıb:




*"Bu küçə sonuncu Sovet İttifaqı qəhrəmanı, Rusiya Daxili İşlər Nazirliyinin tabeliyində olan Daxili Qoşunların zabiti, 1991-ci ilin 7 aprelində Qarabağda dinc əhalinin xilası naminə həyatını qurban vermiş leytenant Oleq Babakın (1967-1991) adını daşıyır".*

Poltava İqtisadiyyat və Ticarət Universitetində Oleq Babakın xatirə muzeyi yaradılıb.

İlk təhsilini aldığı Viktoriya məktəbi Oleq Babakın adını daşıyır, burada yaradılmış muzeydə qəhrəmanın xatirə şəkilləri, məktubları, şəxsi əşyaları, Ukrayna, Azərbaycan, Rusiyada haqqında yazılıb çap edilən, gənc leytenantın qəhrəmanlığından bəhs edən qəzet və jurnal materialları qorunub saxlanılır.

SSRİ Daxili İşlər Nazirliyinin Moskvada yerləşən Xüsusi Təyinatlı Sofrin briqadasının 21-ci batalyonunun şəxsi heyətinin siyahısına Oleq Babakın adı əbədi yazılıb, xidmətini




keçdiyi Sofrin briqadasında Oleqin doğum, vəfat günləri münasibətilə anım mərasimləri keçirilib. [20]

Qeyd: 1989-cu ilin iyunundan 1992-ci ilin martınadək olan dövrdə millətlərarası münaqişə bölgələrində ictimai asayişin qorunması vəzifələrini



yerinə yetirərkən keçmiş SSRİ-də 1 general, 18 zabit, 2 zabit, 5 serjant və 30 əsgər olmaqla, 56 daxili qoşun hərbçisi öldürülmüşdü. Onların arasında Sovet İttifaqı Qəhrəmanı adını birinci və sonuncu olaraq alan Oleq Babakdır! 28 illik işğaldan azad edilən, yenidən qurulan Qubadlıda Oleq Babakın xatirə abidəsinin ucaldılacağı, adının əbədiləşəcəyi gün də uzaqda deyil.

[20] https://apa.az/ru/xeber/azerbaydjanskaya-diaspora/xeber_v_ukraine_-pochtena_pamyat_ubitogo_armyanam_-269082

# GƏNC NƏSLƏ ÖRNƏK QƏHRƏMAN

7 aprel 1991-ci ildə baş vermis bu hadisələrin üstündən 35 ildən artıq vaxt keçib-Oleqin yaşadığı illərdən çox. Bu gün böyüməkdə olan gənc nəsil Oleq Babakın Yuxarı Cibikli kəndində göstərdiyi misilsiz qəhrəmanlığı unutmayıb. Çünki haqqında yazılır, xatirəsi anılır, yaşlı nəsil öz övladlarına Ukrayna xalqının igid oğlu Oleq Babak haqqında danışır, uşaqların yaddaşına ötürürlər.






**Səmrin Hüseynli** Yuxarı və Aşağı Cibikli kəndinin sahə milisi olmuş Əbdülqədir Hüseynovun qızıdır.

O, televiziyaya müsahibəsində deyir: - Atam 1991-ci ilin həmin 7 aprel tarixində kəndimizin erməni quldurlarından müdafiəsi uğrunda döyüşdə ağır yaralanıb.




Həmin döyüşdə canını fəda edən qəhrəman Oleq Babak haqqında tez-tez danışır, ona görə də Oleqin adı yaddaşımıza əbədi yazılıb. Mən həmyaşıdlarım adından Oleq



Babakın valideynlərinə belə oğul böyütdüklərinə görə “sağ olun, sizlərə minnətdarıq!” deyirəm.

Ona göstərdiyi bu qəhrəmanlığa, Cibikli kəndinin dinc sakinlərini xilas etdiyinə görə əbədi təşəkkür borcumuz var.

Bu gün sağ qalan bir çox həmkəndlimiz, onların övladları da Oleqə əbədi minnətdardır. Onun xatirəsi daim qəlbimizdə yaşayacaqdır!

Poltava vilayəyində Oleq Babakın adını daşıyan Viktoriya kənd orta məktəbin şagirdləri də CBC Tv-nin çəkdiyi filmdə eyni sözləri təkrar edirdi-qəhrəmanlıq milli, dini duyğulardan daha yüksəkdir.

## OLEQ BABAK VİKTORİYALILARIN YADDAŞINDA




Oleq Yakovleviç Babak 1967-ci il fevralın 25-də Ukraynanın Poltava vilayətinin Piryatin rayonunun Viktorya kəndində doğulub.

Maraqlıdır ki, Viktoriya ingilis dilində "qələbə" deməkdir və Oleq də ömrünün son günü pisliyin, şərin üzərində qələbə qazanıb həyata şərəflə "əlvida!" demişdi, həm də pravoslav xristianları üçün müqəddəs olan Pasxa və Müqəddəs Müjdə bayramları günündə.

1974-ci ildən 1982-ci ilə qədər Viktoriya kənd məktəbində, sonra isə qonşu Teplovskayada oxuyub.

1985-ci ildə Daxili İşlər Nazirliyinin Leninqrad Ali Siyasi Məktəbinə daxil olub və məktəbi bitirdikdən sonra rota komandirinin müavini kimi xidməti vəzifəsini davam etdirib.

Məktəbdə oxuduğu ilk gündən Oleq hərbi anda sadiq, qanunlara, qaydalara əməl edən intizamlı kursant kimi tanınıb, üçüncü kursdan başlayaraq, Oleq bir çox müxtəlif qaynar nöqtələrdə - Vilnüsdə, Sumqaytda, İrəvanda, Bakıda ... xidməti borcunu yerinə yetirib, həmin dövrdə SSRİ-nin dağılmasının təməlini qoyan bir çox siyasi hadisələrin şahidi olub.

Oleq Babaka ilk zabit rütbəsinin verilməsi haqqında attestasiyada və xasiyyətnaməsində yazılıb ki, Oleq Yakovleviç Babak SSRİ Daxili İşlər Nazirliyi Komsomolun 60 illiyi adına Ali Siyasi Məktəbdə oxuduğu müddətdə özünü intizamlı,

icraçı kursant kimi göstərmişdir. Tədris proqramını "yaxşı" və "əla" qiymətlərlə öyrənir. Geniş dünyagörüşü var, çox oxuyur. Məktəbin ictimai həyatında fəal iştirak edir. Məktəbin komsomol bürosunun katibi, partiya komitəsinin üzvüdür. Yoldaşları ilə münasibətdə nəzakətlidir, hər zaman yoldaşlarına kömək etməyə hazırdır. Prinsipialdır, özünün və yoldaşlarının çatışmazlıqlarını açıq deyir. Təbiətcə sakitdir, çətin situasiyalarda özünü tez ələ almağı bacarır, münasibətdə ünsiyyətcildir, böyük bir dost əhatəsinə malikdir. Hərbi xidmətin çətinliyindən qorxmur. Rota komandirinin siyasi işlər üzrə müavini olaraq, hərbi təhsilini əla qiymətlərlə başa vurub. Yüksək mənəvi, əxlaqi və döyüş keyfiyyətlərinə malikdir. Kütləvi siyasi təbliğat işinin formalarını inamla mənimsəyir. Şəxsi təhsilinə xüsusi diqqət yetirir. Yüksək komandirlik keyfiyyətlərinə malikdir. Zaqafqaziyada hökumət tapşırığını yerinə yetirərkən özünü müsbət tərəfdən göstərmişdir. Çətin bir şəraitdə düzgün istiqamət götürməyi bilir, düzgün qərarlar verir, aydın hərəkət edir. Ümumi hərbi nizamnaməni yaxşı bilir və onlara əməl edir. Fiziki cəhətdən yaxşı inkişaf etmişdir. Ona etibar edilmiş silahı əla bilir, onunla inamla davranır. Hərbi və dövlət sirlərini saxlamağı bacarır.

Oleqin məktubları əziz xatirə kimi saxlanır və bu məktublar onun mənəvi aləminə, duyğu, düşüncələrinə də güzgü tutur. Dostlarından birinə göndərdiyi məktubda yazırdı ki, indi orduda xidmət etməmək ayıb, xidmət etmək məqbul hala gəlib. Axı niyə hərbi xidmətə getməmək üçün bir fürsət axtarırlar ki əsgərliyə getməsinlər. Ancaq əvvəllər bu şərəf məsələsi idi. Bizdə bu psixologiya illər əzində inkişaf edib. Vil-



nüsdə olarkən televiziyada 10-15 dəqiqəlik bir müsahibə verib, xidməti barədə danışıb. O kaset hələ də valideynləri tərəfindən qorunur. Oleq Vilnüsdən Qarabağa göndərilmişdi, qaynar nöqtənin birindən o birinə.  O, xidmət keçdiyi bölgələrdəki çətin vəziyyətlər barədə danışıb deyir ki, adətən gəldiyimiz bölgədə ya poçt, ya da teleqraf işləmir, fövqəladə vəziyyət olduğu üçün valideynlərdən istədiyimiz əşyaların çatdırılmasında problemlər var, bəzən gənc yoldaşlarımız getdiyimiz yerlərin, əhalinin xüsusiyyətləri, nə üçün gəldiklərini də anlamaqda çətinlik çəkirlər. Milis Məktəbində oxuyanda yazırdı ki, bu gün fiziki hazırlıqdan imtahan verdim, 6 kilometri nəzərdə tutulandan 10 dəqiqə tez çatdım finişə, çiynimdə avtomat, hələ yolda qalan iki yoldaşıma da kömək elədim. Oleq Azərbaycanda SSRİ-nin saxlanması haqqında referendumda çal-çağırla lehinə səs verdiyini yazır və onların tərəfində olduğunu deyir: belə güclü Vətənin parçalanmasının əleyhinə kim səs verər ki? Postda yoldaşları ilə isti paltarlarını, xörək bişirməklərini, yeməklərini necə dostcasına bölüşməsindən yazır.

8-ci sinifdə oxuyanda müəllim Alla Boyko şagirdlərə belə bir sual-anket paylayıb cavab yazmağı tapşırır: - Həyat nə

deməkdir? Oleq cavab yazır: - Ölümqabağı gəlib qulağına deyərəm. Abxaziyada bir kursant yoldaşının ölümünü eşidəndə yazır: “Biz dostlarımızla vidalaşmağa ancaq qəbristanlığa gedirik”. Maşınlara vurulmuş sözləri xatırladır: “Ata, yolunu gözləyirik!".

Oleq hələ Milis Məktəbinin kursantı olarkən Qarabağdan əvvəl Bakı, İrəvan, Vilnüsdə “sülhməramlı” birliklərin tərkibində olmuşdu. Dağılmaqda olan SSRİ adlı dövlətin bütövlüyünü zor gücünə saxlamaq üçün 19-20 yaşlı həyatın bərk-boşuna düşüb çıxmamış gənclərdən istifadə olunması həqiqətən faciə idi, özünü dünya gücü sayan, yaxın-uzaq bir çox ölkələri qana boyayan, hərbi güc hesabına sosializm, saxta kommunizm ideyalarını ixrac etməyi özünün öhdəliyinə çevirən dövlət artıq iflas həddində idi, bunun da cəfasını çəkənlərdən biri Azərbaycan olmuşdu. Tiflisdə, Vilnüsda, Alma-



Atada, Sumqayıtda, Bakıda sovetlərin KQB agenturasının törətdiyi qanlı qırğınlar, Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarından azərbaycanlı əhalinin zor gücünə qovulması, ev-eşiyini, illər uzunu qurub yaratdığı, topladığı əmlakı itirərək Azərbaycana deportasiyası həm də bu iflasın sübutu, vahid bir dövlətin içəridən parçalanması idi. İmperiya rejimini qorumaq, ömrünü uzatmaq üçün millətlərarası münaqişə, müharibələr yaradıb, alovlandırıb, həm də arabuluculuq etməyə çalışan sovet-KQB rejiminin anti-humanist mahiyyətinə Oleq kimi gənclərin qurban verilməsi də gerçək faciə idi. Bu gəncləri doğub minbir əzab-əziyyətlə boya-başa çatdıran, amma övladlarının xoşbəxtliyini görmək, toy edib evləndirib nəvələr görmək, qocalıq çağlarında onların varlığı ilə nəfəs almaq kimi ülvi, ümdə arzu-dilәkləri gözündə qalan ata-anaların yaşadığı ömürlük faciələri, kədəri, iztirabı heç nə ilə ovundurmaq mümkün deyil. Yuxarı Cibiklidəki döyüş vaxtı Oleq Babakın 24 yaşı vardi. Bir ay sonra onun xidmət vaxtı sona çatacaqdı və o, doğma yurduna dönərək nişanlısı ilə toy edəcəkdi. Evə yazmışdı ki, ilk partiyada 1-ci olaraq məni buraxacaqlar, nümunəvi xidmətimə görə.

Yakov Andreyeviçin və Nadejda İvanovnanın da yeganə arzu, muradı, rahat gələcəyi Oleq idi. Atası deyir ki, Oleq, bu xidmətdən çıx, çox çətin və təhlükəlidir. Yeganə övladımızsan, başqa kimimiz var ki, bu ev-eşik, hər şey sənindir, gəl, evlən, nəvəmiz, ailən olsun, bizə də sahib dur, qocalırıq. Cavab vermişdi ki, mənim işim çox xeyirlidir, gözəl işlər görürəm, siz bilmirsiniz, uşaqların, yaşlı insanların günahsız yerə öldürüldüyün, hamilə qadınların qarınlarının necə kəsildiyin, bunları görməmisiniz. Dinc insanları qorumaqdan gözəl nə iş

ola bilər? Yazırdı ki, Qarabağ torpağında amansızlıqla günahsız qanlar tökülür, insanlar qətlə yetirilir, burada ədalət mütləq zəfər çalmalıdır.

Oleq valideynlərinə seçdiyi milis peşəsinin şərəfini anladaraq belə cavab vermişdi ki, mənim ən çox sevdiyim anam, atam, silahım və komandiri olduğum tağımdır.

Məktublarından birində aşağıdakı sözlər var: *“Fotoşəkillərə baxdım... Dostlarımın qaralmış üzlərinə, üzlərində həkk olunmuş, bizə artıq tanış hissləri oxuyuram. Onlar üçün heç olmasa belə bir iş görmək istərdim: - Uşaqlar, geri çəkilin, mən sizi atəşlə qoruyaram! Allaha şükür, nə yaxşı ki, hələ buna ehtiyac yoxdur!”*




Ancaq o gün gəlirdi, yaxınlaşmaqda idi. Bir vərəqdə əks olunmuş bu düşüncələr və hisslər sanki Oleq Babakı həyatın ona hazırladığı taleyin xəbərçiləri idi.

Tale ona belə bir xilaskarlıq, qəhrəmanlıq missiyası hazırlamışdı. Və bu sanki onun alnına yazılmış qismət idi, fikirlərinə, düşüncələrinə hopan kimi də gerçək olmuşdu. Sadəcə bu son şərəfli tale-qismətin məkanı Azərbaycanın Qubadlı rayonunun əsrarəngiz gözəlliklərlə dolu olan, elə adının mənası da gözəl diyar anlamına gələn Yuxarı Cibikli kəndi olmalıymış, 7 aprel 1991-ci il, bazar günü.

**Qalina Petriçenko,** məktəb müəllimi, həmkəndlisi: - hələ orta məktəb illərində ibtidai hərbi hazırlıq dərslərində Oleq xüsusilə seçilirdi. Məktəblilər arasında keçirilən "Zarnitsa"-"Üfüqdə parıltı" hərbi - idman oyunlarında onu taqım komandiri seçərdilər. Oleqin ölüm xəbərini alanda bunu xatırladım, çox sarsıldıq, ən çox qorxduğumuz gerçək oldu. Bütün kənd yas içində idi, günlərlə qapıları bağlanmadı, hamı gedib gəlir, başsağlığı verirdi. Oleqin cənazəsi gətirilənə qədər anası da, biz də onun ölümünə hələ də inana bilmirdik. Dəhşətli günlər idi…

Valideynləri Oleqin Qubadlıdan yazıb göndərdiyi son məktubunu əbədiyyətə qovuşandan sonrakı gün - 8 apreldə günortadan sonra almışdılar. Oleq yazırdı: "*Əziz ana və atam! Əzizlərim, narahat olmayın. Mən yaxşıyam. Hər şey həmişəki kimi normaldır. Ana, səni necə də görmək istərdim! Səni qucaqlamaq və möhkəm, möhkəm öpmək istəyirəm, ana! Uşaqlıqda olduğu kimi qollarının üstündə başımı çiyninə qoyaraq yatmaq, bütün bu pisliklərdən, təlaşdan, bu pis bəlalardan gizlənmək istəyirəm. Sənin incə əlinlə tikilən isti pambıq yorğanın altında gizlənmək istəyirəm, əziz ana. Bütün bu bəlalardan gizlənmək istəyirəm. Lənətə gəlmiş bu pisliklər isə məni hər yerdə axtarıb tapır!"*

Oleq sanki duyurdu, nəyi isə gözləyirdi, son aqibəti onu addım-addım izləyirdi.

Oleqin ölüm xəbəri gələndə heç kim inanmayıb, Nadejda İvanovna əlində iki məktub tutub acı xəbəri eşidib həyətinə axışıb gələn kədərli insanlara göstərirmiş: - axı ondan indicə məktub gəlib, bəs bu nə bildirişdir gətiriblər?!

Ananın durumunu ağla gətirmək, sözlə ifadə etmək çox çətindir.

Bir gündə həm Oleqin öz əlləri ilə yazdığı məktubu gəlir, həm də hərbi komissarlığın ölüm xəbəri gətirən məktubu. Oleqin nəşi isə hələ bir neçə gün sonra gəlib döğulub boya-başa çatdığı, intizarla sağ-salamat gələcəyini gözləyən valideynlərinə, əzizlərinə, sevgilisinə, Viktoriya kəndinin qəbiristanlığına qovuşacaqdı və Oleq bu üzüntüdən, göz yaşları leysanından xəbərsiz olacaqdı.

Oleq Babakın nəşini gətirən dostları Aleksey Loqinov və Aleksey Boçkov komandirlərinin dəfnində çıxış edirlər: - *Oleq təkcə silahsız, günahsız azərbaycanlıları deyil, həm də bizi labüd ölümdən xilas etdi, həyatımızı Oleqə borcluyuq! Oleq Qəhrəmandır!*




**Larisa Suşko** Oleq Babakın sevgilisi idi**:** - Oleq çox sevimli, sevilməyə layiq yaraşıqlı, ağıllı və şən oğlan idi. Onunla çox maraqlı, unudulmaz günlərimiz keçib. Çoxlu dostu vardı, həmişə deyib-gülərdi, üzündən gülüş əskik olmazdı, gitarada yaxşı çalırdı, mahnılar oxuyurdu. Şən və gülərüz, düzgün, sözü üzə deyən insan idi. Onun üçün düzgünlük, tərbiyə, əxlaq həmişə birinci yerdə dururdu. Arzularımız yarımçıq qaldı, mən ondan ötrü çox darıxıram...




**Nikolay Qluşko** Viktoriya kənd orta məktəbinin direktorudur: - Oleq Babak qoruduğu mülki kənd sakinlərini və tabeçiliyində olan xidmət yoldaşlarını xilas etmək naminə şüurlu surətdə ölümünə doğru getmişdi. O, başqa cür hərəkət edə bilməzdi. Öz həyatını riskə ataraq onlarla yaraqlı ilə təkbətək döyüşə atılıb insanları xilas etmişdi. Nankor ermənilər onu yaralı ikən xaincəsinə, tüfəngi onun zirehli gödəkçənin altından salıb, alçaqcasına ona atəş açaraq öldürüblər. O, öz zabit borcunu, insanlıq borcunu ləyaqətlə yerinə yetirdi.




**Alla Udodenko** Oleq Babakın sinif yoldaşı olmuşdur**:** - Oleqin haqqında keçmiş zamanda danışmaq bizim üçün çox ağırdır. Uşaqlığımız bir yerdə keçib, kiçik yaşlarından yüksək keyfiyyətləri ilə seçilirdi. Mərdlik, haqq-ədaləti müdafiə etmək, köməksizə əl uzatmaq onun ən ali keyfiyyətlərindən sayılırdı.

O, Qubadlıda xidmət edəndə bizə tez-tez məktub yazırdı. Orda son dərəcə mehriban,

qayğıkeş, mülayim və qonaqpərvər insanların olduğunu söyləyirdi. Erməni terrorçularının orda yaşayan günahsız insanlara qarşı qəddarlığını ürək ağrısı ilə qeyd edirdi. O, bu haqsızlıqlara, günahsız



uşaqlara və qadınlara olunan zülmlərə dözməyərək, son gülləsinədək düşmənə qarşı vuruşub. O, şərəfli ölümü ilə sübut etdi ki, din, dil ayrılığı insanları bir-birinə düşmən etməməlidir, əsl qəhrəmanlar dinindən və milliyətindən asılı olmayaraq, düzgünlüyü, haqqı və ədaləti qorumalıdır.

Oleq zülmə və zalıma qarşı vuruşub.

Oleqin məzarı onun sinif yoldaşları, məktəblilər və tələbələr tərəfindən daim ziyarət olunur. İnsanlar üçün bu yer müqəddəs məkana çevrilib. Biz öz həmyerlimizlə fəxr edirik. Əminəm ki, onun valideynləri, dostları və doğmaları o yerləri ziyarət edəcək.

Mən çox istərdim ki, Oleqə həm də Azərbaycanın Milli Qəhrəmanı adı verilsin. Azərbaycanda onun abidəsi ucaldılsın. Bu abidə tarix boyu Azərbaycan - Ukrayna dostluğunun sarsılmaz simvoluna çevrilsin…

**Oleqin atası Yakov Andreyeviç** təbiətən sakit, azdanışan, mülayim insandır, daim düşüncəli olduğu görünür. Deyir: - Bilirəm ki, oğlumu erməni terrorçuları öldürüb, bunu mənə onunla birlikdə son ana qədər döyüşdə bir yerdə olduqları, cənazəsini gətirən silahdaşları ətraflı danışıblar. Həm də



sağ ola-ola yarasından qan axarkən kürəyindən vurublar, əynində zirehli jilet olub, əynindən çıxarıblar, silahı ilə birlikdə götürüblər, hətta, Oleq onu tanıyan, Milis Məktəbində bir yerdə oxuduqları erməniyə bu sözü də deyib ki, yəqin məni öldürməzsiniz, ancaq öldürüblər. Azərbaycanlılar elə etməzdilər, çünki Oleq məktublarında azərbaycanlıları həmişə yaxşı insanlar kimi xarakterizə edirdi, yazırdı ki təmənnasız qonaqpərvərdilər, tez-tez bizə yemək gətirirlər, bizi evlərinə yeməyə dəvət edirlər.

Azərbaycanlılar-həm səfirlik, konsulluq, həm də diaspor təmsilçiləri bizə tez-tez yardım edir,[21] bəzən bu qayğı, diqqətdən özümüz də rahatsız oluruq.

Mən sizin xalqınızdan çox razıyam. Rusiyanın Ukraynaya işğalçı müharibəsi başlanandan az sonra Poltava vilayətinə

---

[21]https://azertag.az/xeber/qubadlida_ermeniler_terefinden_qetle_yetirilen_ukraynali_oleq_babakin_poltovada_yasayan_ailesine_yardim_gosterilib_video-2709676

də raketlər atıldı. Həmin çətin günlərdə Bakıdan teleqram aldıq; Qubadlıdan olduğunu, Oleqi şəxsən görüb tanıdığını, yazıçı-jurnalist olduğunu dedi, bizi- Oleqin ata-anasını israrla Bakıya dəvət edirdi, ardınca yenə zəng etdi, "sizi gözləyirik" - dedi (söhbət bu kitabın müəllifindən gedir), bu diqqət və qayğıdan çox təsirləndik, bu, sizin xalqınızın böyüklüyü idi.

Oleqin adını əziz tutaraq haqqında sənədli film çəkmək üçün Poltavaya - Oleqin göz açıb ilk gördüyü, könül verib ilk sevdiyi Viktoriya kəndinə Bakıdan gələn çəkiliş qrupu Qəhrəmanın anası Nadejda Babakla səmimi söhbətlər aparıblar. Onu dinləyib dediklərini yazıya almışam.

**Nadejda Babakın** Azərbaycan televiziyalarına dediklərindən: - hərdən yuxuma girir, deyir, ana, ağlama. Mən ölməmişəm, mən sağam...Oğlumun həlak olduğu bu illər ərzində mən onun məzarını heç zaman yalqız qoymamışam. Maraqlıdır, bir dəfə oğlumu yuxuda dağlıq ərazidə döyüşən yerdə görmüşəm. Sonradan öyrəndim ki, onun vuruşduğu yerlər həqiqətən də dağlıq ərazilər olub. Bu onu göstərir ki, onun məzarı burda olsa da, ruhu vuruşduğu yerdə gəzib dolaşır. İndi mənim bir arzum var – çox istəyirəm ki, tezliklə Oleqin xətrini çox istədiyi insanlar öz dədə-baba yurdlarına qayıtsınlar. Belə olarsa, Oleqin ruhu da şad olar...

Həmişə ona verdiyimiz sözə əməl edirdik və görürdük ki, sözümüz əməllərimizlə uyğun gəlir. Oleq elə uşaqlıqda da çox diqqətcil idi. Onu əhatə edən hər şeyi öyrənməyə çalışırdı. Onda öyrənmək həvəsi sonsuz idi. Qəhrəmanlıqla dolu macəra kitablarını oxumağı, tarixi filmlərə baxmağı çox sevərdi. Onun yaşıdları yay-qış, kəndin küçələrində oynayanda, çox vaxt o, əlindəki kitabı yerə qoymaz, birnəfəsə oxuyub

qurtarmağa çalışardı. Bu kitablar sonralar onun xarakterinə, həyati istəklərinə böyük təsir etmiş oldu…Oleqi yeganə övladımız kimi çox sevirdik. Bu sevgimizi ondan gizlətmirdik də. Amma onun düzgün tərbiyəsi üçün əlimizdən gələni etmişik. Digər ailələr kimi bizim ailənin də öz ənənələri olub və Oleq son gününədək bu qaydaları pozmamağa çalışıb, ailədə olan mehriban mühiti qoruyub, saxlayıb. Biz ona digər insanlara da belə hörmətlə, mehriban yanaşmağı hələ uşaqlıqdan tərbiyə etmişik. Çox mərhəmətli, sakit oğlan idi. Məktəbdə müəllimləri, sinif yoldaşları ilə heç vaxt problemləri olmayıb. Oleq balaca uşaqları çox sevirdi. Onları gəzməyə aparırdı. Onun uşaqlığı plastilinlərlə, tank oyuncaqlarla keçib. O, televizorda hərbi verilişlərə baxmağı çox sevirdi və hərbçi olmaq istəyirdi. Oleq həmişə insanların köməyinə yetməyi özünə bir insani borc bilib. Heç tanımadığı insanlar belə ondan kömək istəyib. O isə heç vaxt insanlara yardım etməkdən yayınmayıb. Biz qorxmaz, igid, eyni zamanda, həm də təbiətcə mülayim, qəlbi geniş bir övlad böyütmüşük…Mən oğlumla qürur duyuram. Bir onunla təskinlik tapıram ki, o, tanımadığı günahsız və köməksiz insanları xilas edərkən dünyasını dəyişib. Haqqı müdafiə etmək onun xarakterində idi. Bu itki bizim ailəmiz üçün çox ağır itkidir. Oğlumun ölümündən artıq 35 il keçir. Qarabağ müharibəsi çox ailələri başsız qoyub. Onlardan biri də bizim ailədir. Mən çox istərdim ki, oğlumun haqq işi uğrunda öldüyü Qarabağ torpağında həmişə sülh olsun. Qubadlıda, onun vuruşduğu, həlak olduğu kənddə Oleqin abidəsi ucaldılsın. Oleq zalıma və zülmə qarşı vuruşub. Sevinirəm ki, onun yolunda can qoyduğu torpaqlar artıq işğaldan azad olunub.

…"Xəzər TV"-nin çəkdiyi sənədli filmdə jurnalist dostum Nəcəf Həsənov Oleqin ata-anasını salamlayır, rusca "zdravstvuyte, kak vı?" sualına anası Nadejda İvanovna Azərbaycan dilində "salam, yaxşı!" - deyir. Sual verir: - Oğlunuzu kimin öldürdüyünü bilirsiz?

-Əlbəttə, ermənilər, azərbaycanlılar elə şey etməzdilər.

Kənd sakinləri də eyni cavabı verirlər: - Oleqi ermənilər gülləyib öldürdülər.

Və sənədli filmin ən təsirli məqamlarından biri Nadejda Babakın skaypda oğlunun xilas etdiyi Cibikli kəndinin sakinləri ilə canlı bağlantıdakı dialoqudur. Hər iki tərəfdə göz yaşları axır, oğul anası sanki bu sözləri ilə həm də qarşısındakılara təskinlik verirdi: -sağ olun ki, siz də Oleqi unutmursunuz, xatirəsini əziz tutursunuz, oğlum məktublarında yazırdı ki, yerli azərbaycanlılar onun xətrini çox istəyir, evlərində qonaq edirlər, pulsuz süd, qatıq, çörək verirlər, çox mehriban insanlardır.

-Biz onu çox sevirdik, öz balamız kimi, hamı ilə mehriban davranırdı.

Nadejda İvanovna Babak onlardan necə yaşadıqlarını soruşur, ev-eşiklərindən, doğma yurd-yuvalarından məcburən qaçqın düşdüklərini öyrənəndə isə yenidən göz yaşlarına hakim ola bilmir, doğma yurdlarına qayıtmaları üçün dua edəcəyini deyir: - sağ olun ki, yeganə oğlumu belə sevgi ilə xatırlayısınzı, sizi tanıdığıma, səsinizi, səmimi sözlərinizi eşitdiyimə görə çox təsirləndim, mən də sizə buna görə minnətdaram.

25 fevraldır, çəkiliş qrupu məhz Oleqin dünyaya gəldiyi gün onun ailəsi ilə birlikdədir, məktubları, uşaqlıq, məktəb,




kollec fotolarını, geri dönən kimi ona toy edib gəlin gətirəcəkləri toy otağını göstərir. - bu otağa gəlin gətirəcəkdik, həsrətlə o günü gözləyirdik, qismət olmadı...

Hazır bəzədilmiş bəy-gəlin otağında Oleqin uşaqlıq şəkilləri, sevdiyi kuklalar, şəxsi əşyaları, orden, medalları, aldığı fəxri fərmanlar, məktubları səliqə-sahmanla düzülüdür. Kadrlarda nizamlı xətlə yazıdığı məktublar görünür, hamısı da "Mənim istəkli anam, mehriban atam" kimi isti sözlərlə başlayır, *"Mən sizi qucaqlayıb öpmək, dönə-dönə qucaqlamaq istəyirəm, uşaqlıqdakı kimi sizin köksünüz üstündə, yanınızda yatmaq istəyirəm, anacan, sənin incə, zərif əllərini öpmək bütün bu pisliklərin, bədbəxtliklərin tez bitməsini, bezdirici pisliklərin insanlardan uzaq olmasını istəyirəm ki, yenidən sizinlə birlikdə olum, isti yorpan döşəkdə sənin isti nəfəsini duyum".*



Nadejda İvanovna Azərbaycanın Kiyevdəki səfirliyi, Xarkovdakı konsulluğu, diaspor nümayəndələri, Ukraynadakı Azərbaycan jurnalistləri, ictimai təşkilatlarının təmsilçilərindən ürəkdolusu razılıq edir. Deyir həmişə bizi arayırlar, oğlumu unutmur, xatirəsini əziz tuturlar, hər zaman yad edirlər, 25 fevral doğum günündə və 7 aprel anım günlərində yanımızda olurlar, ağrımızı yüngülləşdirmək istəyirlər. Hətta, mənim 75 illik yubileyimə də hədiyyələrlə gəlmişdilər.[22] Evimizdəki otağında,məktəbdəkimuzeyində Azərbaycanlıların gətirdikləri xeyli xatirə əşyası var. Məzarı, başdaşı, sinədaşı, abidəsini canını fəda etdiyi Qubadlıda düzəldib gətirdilər. Azərbaycan diasporunun vəsaiti hesabına Oleq Babak adına

---

[22] https://azconsulate.com.ua/uk/z-dnem-narodzhennya-mamo-geroya/ https://azertag.az/ru/xeber/V_Poltave_otmechen_yubilei_materi_Geroya_Sovetskogo_Soyuza_ubitogo_armyanami_v_Gubadly_VIDEO-1820975

park salınıb, yaraşıqlı abidəsi qoyulub, xatirəsinə ehsanlar verilib, adını daşıyan məktəbə yardımlar edilib, bizə anım günlərində yardımlar gətirirlər. Bu ehtiramı görüb, səmimiyyəti duymaq bizə böyük təsəllidir. Yaxın-uzaq kənd, qəsəbələrdə bunları hamı bilir, buna görə Azərbaycanı, azərbaycanlıları çox sevirlər. Yakovla mən Qubadlının azad olunduğunu eşidəndə çox sevindik. Bilirik ki, Oleqimizin qanı yerdə qalmadı, artıq haqq-ədalət öz yerini tutub. Dostlar həmişə olduğu kimi yenə də başdaşına qəhrəmanın əksi həkk olunmuş, üzəri mərmərlə örtülmüş məzarı önündədir. Onlar kəndin bütün sakinlərinin də toplandığı anım mərasimində iştirak edirlər.



**Oleq Stanislaviç Sulima** çıxış edir: - Mən Ukrayna Veteranlar Birlliyinin regional təmsilçisiyəm, Oleqin xidmət yoldaşıyam. Onun dostları, xidmət yoldaşları və xüsusi təyinatlı briqadamızın komandanı general-mayor Maltsev, Milli Qəhrəman Lısyuk bu sözləri Oleqin valideynlərinə və  sizə çatdırmağı xahiş edib: - Hörmətli Nadejda İvanovna, Yakov Andreyeviç, öz övladının 24 yaşında ölümünü görmək çox dəhşətlidir. Siz bizim üçün, həmçinin bizdən sonra gələcək nəsillər üçün bir nümunəsiniz. Taleyin zərbəsini necə saxlamaq olar? Sizin övladınızın böyüməsində çəkdiyiniz əziyyətlərə, verdiyiniz tərbiyəyə rəğmən gözəl bir şəxsiy-

yət yetişdirmisdiniz. Tanrı ona gözəl, geniş ürək bəxş etmişdi. O, sovet dövlətinın dağıldığı ərəfələrdə nəinki ona verilən əmri ləyaqətlə yerinə yetirə bildi, həmçinin vicdanı qarşısında seçim edə bildi. Axı o öz əsgərlərini tək buraxa, dinc sakinləri isə müdafiə etməkdən yayına bilərdi. O, sadəcə çıxıb gedə bilərdi. O, digər başqalarının o dövrdə etdikləri kimi də edə bilərdi. Amma etmədi, zabit şərəfini, ukrain millətinin adını hər şeydən, hətta, şirin canından üstün tutdu. Onun daxilində hansısa hisslər onu başqa cür davranmağa qoymadı. Baxmayaraq ki, bizim aramızda artıq sərhədlər olsa da, Azərbaycan xalqı onlardan ötrü canını fəda etmiş qəhrəmanları unutmur. Onlar da bizim kimi həmişə Oleqi xatırlayırlar və xatırlayacaqlar. Sofrin briqadası bu illər ərzində 109 hərbçisini itirib. Cəsarət və qəhrəmanlığa görə bizim briqadamızın təxminən 700 hərbçisi dövlət mükafatlarına, üçü Rusiya Federasiyasının Qəhrəmanı adına layiq görülüb. Oleq Babak isə ilk dəfə olaraq Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, həm də bu adı alan sonuncu qəhrəman kimi tarixə düşüb. Qəhrəmanlar və qəhrəmanlıq heç vaxt unudulmur! Mən döyüş dostlarının adından Oleq Babakın məzarı qarşısında baş əyirəm, Siz Ata və Anasının qarşısında baş əyirəm, əziz valideynlərimiz!

Oleq Stanislaviç Sulimanın Oleq Babakın məzarı başındakı bu təsirli çıxışını videoda dinləyəndə sevimli şairimiz Səməd Vurğunun sözləri xəyalımdan keçdi:

*Ölüm sevinməsin qoy, ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər!*

Oleq insanları sevdiyini görə, həmişə də seviləcəkdir.

# OLEQİN FOTOLARDA ƏBƏDİLƏŞƏN ANLARI















Место гибели лейтенанта
Бабака О.Я. у населенного
пункта Юхары-Джибикли.







Какой вкусный
виноград
продают в Ленинграде!
И даже не очень
дорого...


З 1985 по 1989 роки Олег – курсант Ленінградського вищого політичного училища.










ДИПЛОМ


21 ОТДЕЛЬНАЯ БРИГАДА ОПЕРАТИВНОГО НАЗНАЧЕНИЯ

БАБАК
ОЛЕГ
ЯКОВЛЕВИЧ

БАБАКУ
Олегу Яковлевичу
ПРИСВОЕНО ПОСМЕРТНО ЗВАНИЕ
Героя Советского Союза
за мужество, героизм и самоотверженные действия, проявленные при исполнении воинского долга.
СОЮЗ
СОВЕТСКИХ
СОЦИАЛИСТИЧЕСКИХ
РЕСПУБЛИК

# AZƏRBAYCANLILAR UKRAYNA UĞRUNDA DÖYÜŞLƏRDƏ

Azərbaycanlılar Rusiyanın Ukraynaya hərbi təcavüzünün ilk günlərindən bu müharibədə birbaşa və dolayısı ilə iştirak edirlər. 2023-cü ilin məlumatına görə, Ukrayna tərəfdə döyüşən azı 130 azərbaycanlı öldürülüb, 70 nəfər itkin düşüb və 100-ə yaxın azərbaycanlı yaralanıb. Bunların çoxu Donetsk vilayətində, xüsusilə Mariupolda yaşayanlardır. Həmin döyüşlərdə həlak olan 26 azərbaycanlının adı məlumdur.[23] 2022-ci ildə Ukrayna Silahlı Qüvvələrində təxminən 500 Azərbaycan əsilli Ukrayna vətəndaşı xidmət edib.[24] Ukrayna Prezidenti Vladimir Zelenskinin 7 may 2022-ci il tarixli sərəncamı ilə Ukrayna ordusundakı igid azərbaycanlılardan biri -92-ci Əlahiddə Mexanikləşdirilmiş Briqadanın tağım komandiri, baş leytenant Kirill Yaşar oğlu Ağasıyev xüsusi şücaətinə görə "Ukrayna Qəhrəmanı" adına layiq görülüb.[25] Xeyli azərbaycanlı Ukraynanın yüksək hərbi mükafatları ilə təltif olunmuşdur. Raqif Vaqif oğlu Əliyev və Məcid Marlen oğlu Əbdülqafarov "İgidliyə görə" medalı ilə təltif ediliblər.[26] Ən qızğın döyüşlərin getdiyi Xarkov və Donbas vilayətlərdə iştirak edən azərbaycanlı Təyyar Bəşirzadə ilk gündən müharibəyə qoşulub, dəfələrlə təltif olunub, sinəsində Azərbaycanla Ukraynanın bayrağı həkk olmuş emblemi gəzdirən Təyyar Baxmut yaxınlığında qızğın döyüşdən az sonra ondan müsahibə alan "Amerikanın səsi" müxbirinə son ağır döyüşlərdən,

---

[23] https://report.az/xarici-siyaset/ukraynada-muharibede-olen-yaralanan-ve-itkin-dusen-azerbaycanlilarin-sayi-melum-olub
[24] https://zerkalo.az/v-ryadah-vs-ukrainy-voyuyut-okolo-500-etnicheskih-azerbajdzhantsev/
[25] https://1news.az/news/20220517012715358-Azerbaidzhanets-Kirill-Agasiev-poluchil-zvanie-Geroi-Ukrainy-FOTO
[26] Yenə orada

Rusiyanın bu müharibədə qələbə qazana bilməyəcəyindən danışaraq deyir: "Ukraynanı özümə ikinci vətən sayıram, haqq-ədalət uğrunda savaşıram, qalib gələcəyimizə əminəm!"[27] Bu, hər birimizin arzu, diləyidir!

Krımın ilhaqı zamanından azərbaycanlılar Ukraynanın silahlı müdafiəsinə qoşulmuşdular. 2014-cü il sentyabr ayının 30-da Luqansk vilayətinin Debaltsev şəhərində Kiyev Batalyonunun kəşfiyyat qrupunun komandiri İlqar Bağırov rəhbərlik etdiyi kəşfiyyat qrupu müəyyən edilən hərbi tapşırıqları yerinə yetirib geri dönərkən mühasirəyə düşür. Qarşı tərəfi xeyli itkiyə uğratdıqdan sonra İlqar mühasirədən çıxmayacağını görüb əl qumabarası ilə özünü partladır. İlqar Ukrayna xalqı arasında "Balu" adı ilə tanınırdı. İlqar Bağırov ölümündən sonra "İgidlik" ordeni ilə təltif olunmuşdur[28]. Belələri onlarladır, onların arasında həm Ukrayna vətəndaşlığı olanlar var, həm də müvəqqəti yaşayıb işləyənlər də, qadınlar, gənc qızlar da ukraynalı həmcinsləri ilə birlikdə döyüşən orduda yaralananlara ilk tibbi xidmət göstərənlərin sırasında olmuşar. Bu haqda, onların kimliyi, döyüşdüyü, yaralandığı, bəzilərinin həlak olduğu barədə Ukrayna və Azərbaycan KİV-də xeyli informasiya yayılıb.[29] 2022-ci ildə Samirə Moroz dəniz piyadasında xidmətə başlayaraq Ukrayna ordusunda ilk azərbaycanlı qadın olub. Bundan əvvəl Moroz 2014-cü ildən könüllü kimi müharibədə iştirak etmişdi.[30] Həmçinin, Kiyevdə yaşayan iki azərbaycanlı tibb bacısı – Leyla Mahmudova və

---

[27] https://www.amerikaninsesi.org/a/7229060.html

[28]https://az.wikipedia.org/wiki/Rusiya%E2%80%93Ukrayna_m%C3%BCharib%C9%99sind%C9%99_az%C9%99rbaycanl%C4%B1lar

[29] https://modern.az/reportaj/343253/media-ukraynada-dyusen-azerbaycanli-bacilardan-yazir-fotolar/

[30] https://modern.az/reportaj/449903/ukrayanada-dyushen-tek-azerbaycanli-xanim-men-her-iki-xalqin-numayendesiyem-fotolar/





Darya Hüseynova – rus işğalının əvvəlindən hərbçilərə və mülki şəxslərə yardım göstərməyə başlayıblar.[31]

[31] https://modern.az/reportaj/449903/ukrayanada-dyushen-tek-azerbaycanli-xanim-men-her-iki-xalqin-numayendesiyem-fotolar/

Bəşər tarixinin ən amansız təcavüz aktlarından olan Rusiya təcavüzü zamanı minlərlə mülki ukraynalı ilə yanaşı, sadəcə olaraq bu ölkədə yaşayıb işləmək üçün gəlmiş mülki azərbaycanlılar da həlak olub. 2022-ci ilin martında Odessada yaşayan 4 nəfərdən ibarət ailə, Xarkovda ər-arvad 2 nəfər, 2023-cü il fevralın 9-da Rusiya ordusu tərəfindən Kleşçeyevkanın atəşə tutulması zamanı 2, avqustun 13-də Xersonda yol kənarında rus kolonunun keçib getməsini gözləyən ər-arvad 2 nəfər rus tankistlərinin qəsdən üzərindən keçərək şəxsi avtomobillərinin içərisində əzilib parçalanmışdı.[32] Ukraynanın Çerniqov şəhərində bir müddət əvvəl Rusiya ordusu tərəfindən atılan raket zərbələri nəticəsində yanaraq kül olan bir qrup şəhər sakini arasında şəhərin ərazi müdafiə qüvvələrinin üzvü olan, 1966-cı il təvəllüdlü Əsgərov Fəzail İsa oğlu da var. Onun yanmış nəşi diaspor tərəindən morqdan götürülərək dəfn edilib.









[32] https://turan.az/ru/obshhestvo/v-xersonskoi-oblasti-pogibli-dvoe-grazdan-azerbaidzana-768388




Digər həlak olan azərbaycanlı isə Poltava sakini olub. Poltava Azərbaycanlılar Radasının sədri Füzuli Qənbərov "Report"un Şərqi Avropa bürosuna açıqlamasında bildirib ki, yaxın qohumu, 1966-cı il təvəllüdlü Əsgərov Tofiq Məmməd oğlu Dnepropetrovsk vilayəti ərazisində mülki mühafizəçi işlədiyi əraziyə Rusiya ordusu tərəfindən raket zərbələri nəticəsində həlak olub. Onunla birlikdə daha 10 ukraynalı mülki sakin ölüb.[33]

Ukraynada yaşayan həmvətənlərimiz bu torpaqların bütövlüyü, müstəqilliyi və azadlığı uğrunda gedən döyüşlərdə canını fəda edənlər haqqında diaspor təşkilatlarının və özlərinin feysbuk səhifələrində paylaşımlar edir, məlumat verirlər, dəfn mərasimlərində iştirak edirlər. "Mustafayev Rüstəm Dilavər oğlu həlak olub, o, əsl vətənpərvər, şərəfli döyüşçü və mərd insan idi.

Rüstəm 128-ci əlahiddə dağ-hücum briqadasının, 1-ci dağ-hücum batalyonunun tərkibində xidmət edib, zenitçi-atıcı olub. O, Ukrayna üçün ən ağır zamanda silaha sarıldı və son ana qədər öz hərbi borcunu şərəflə yerinə yetirdi. Rüstəm

[33] https://qafqazinfo.az/news/detail/ukraynada-daha-2-azerbaycanli-helak-oldu-372467

azadlıq, ədalət və sülh uğrunda mərdliklə mübarizə apardı. Rüstəm Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Badamlı kəndindən idi. Onun cəmi 33 yaşı var idi. Ailəsi uzun illərdir Ukraynada yaşayır. Valideynləri hazırda Zaporojye şəhərindədir, qardaşı isə bu gün də cəbhədə Ukrayna uğrunda döyüşlərini davam etdirir. Rüstəm Dilavər oğlu ən dəyərli varlığını - öz həyatını Ukrayna torpağında azad yaşamaq hüququ, ölkənin ərazi bütövlüyü və müstəqilliyi uğrunda fəda etdi. Bu ağır itki ailəsi, yaxınları, silahdaşları və Ukraynadakı bütün Azərbaycan icması üçün böyük və sağalmaz dərddir.[34] Çox arzu edərdik ki, Ukraynada da döyüşlərdə qəhrəmanlıqla savaşan, canlarını fəda edən azərbaycanlılara, onların ailələrinə daha artıq diqqət, qayğı göstərilsin, nə vaxtsa savaş bitəndə onların xatirə ensiklopediyası yaradılsın, haqlarında kitab yazılsın, abidələri qurulsun. Azərbaycanın hökumət, qeyri-hökumət, diaspor qurumlarının Oleq Babak adına, ailəsinə göstərdiyi münasibətə uyğun forma, məzmunda. Heç kəs, heç kim unudulmamalıdır. Biz "Zəngəzur" Cəmiyyətləri Birliyi olaraq bu təklifimizi diplomat və diaspor təmsilçilərimizə bildirmişik, bu işin gerçəkləşməsinə maddi, mənəvi dəstək verməyə hazırıq.

Rusiya yenə günahsız qanları axıtmaqda, insanların illərlə minbir zəhmətlə yığdığı mülklərini dağıtmaqda davam edir. 1990-cı il 20 yanvarında Bakıya hücum zamanı da öldürülənlərin əksəriyyəti məhz belə rus vəhşiliyinin qurbanı olmuşdu.

---

[34] https://www.facebook.com/KonqressAzeUkr

## SƏFİRLİK VƏ KONSULLUĞUMUZ DƏFƏLƏRLƏ ATƏŞƏ MƏRUZ QALIB

2025-ci il noyabrın 14-nə keçən gecə Rusiya silahlı qüvvələrinin Ukraynanın paytaxtı Kiyevə çoxkombinasiyalı hava hücumu nəticəsində Azərbaycanın Ukraynadakı səfirliyinin binasına ciddi ziyan dəyib. Raketlərdən biri səfirliyin ərazisinə düşüb və orada böyük bir yarıq əmələ gəlib. Səfirliyimizin binası da daxil olmaqla divarlarına ciddi zərər dəyib, divarın bir hissəsi uçub, həmçinin səfirliyin pəncərələri sınıb, diplomatlara məxsus avtomobillərə ziyan dəyib.

Hadisə yerinə Ukraynanın müvafiq qurumları da gələrək,




dəyən ziyanı araşdırıblar. Həm də bu artıq birinci hal deyil.

Paytaxt Kiyevə hava hücumları nəticəsində Azərbaycanın Ukraynadakı səfirliyinin binası bir neçə dəfə ziyan görüb. Lakin budəfəki ziyan miqyasına görə daha böyük və ciddi olub. Bakı etiraz bildirmək üçün Bakıdakı Rusiya səfirini Xa-

rici İşlər Nazirliyinə çağırıb, bununla bağlı Rusiyaya nota verib, Zelenski Əliyevə zəng edib və deyib: "Bu zərbə xüsusi olaraq insanlara və mülki infrastruktura mümkün qədər çox zərər vurmaq məqsədilə planlaşdırılıb",- Ukrayna prezidenti Vladimir Zelenski şəxsi Teleqram səhifəsində belə yazıb.

Bundan əvvəlki hücumlarda da səfirlik və konsulluq binalarında dağıntılar olub; 2022-ci ildə Xarkovdakı Fəxri Konsulluq binası aviazərbə ilə dağıdılıb, 2024-cü ildə "Kinjal" raketi səfirlik binasının yaxınlığında krater yaradıb, 2025-ci ilin avqustunda səfirliyin binası və konsulluq şöbəsi zədələnib, SOCAR-ın Odessa neft bazasına dron hücumları nəticəsində işçilər xəsarət alıb.[35]



[35] https://www.bbc.com/azeri/articles/cvgvyw9lvj7o

# ƏSL DOSTLUQ DARDA SINANAR

Rusiyanın Ukraynaya genişmiqyaslı təcavüzünün ilk günlərindən Azərbaycan ardıcıl olaraq Ukrayna xalqı ilə sarsılmaz həmrəylik nümayiş etdirərək mühüm əhəmiyyətli ölkəmizə humanitar, maliyyə və enerji dəstəyi göstərib. 2026-cı ilin mart ayına olan məlumata görə, Bakının yardımının ümumi məbləği artıq 45 milyon dolları ötüb ki, bu da Azərbaycanın Ukrayna suverenliyinin qorunub saxlanması ilə bağlı qəti və ədalətli mövqeyinin təzahürüdür.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Bakı Ukraynanın ən çox ehtiyacı olduğu enerji sahəsində köməklik göstərir. Ukrayna artıq 2300 tondan çox 130 partiya enerji avadanlığı əldə edib. Güclü transformatorlar, yüzlərlə generator və kilometrlərlə güc kabelləri daxil olmaqla bu humanitar yardımlar Ukraynanın dağılmış infrastrukturunun bərpasının ayrılmaz hissəsi olub. ARDNŞ təcili yardım maşınlarının benzinlə təminatına yardım etməklə bərabər, enerji mənbələrinin bərpa işlərinə investisiya qoyur. Bunun bir nümunəsi İrpen şəhərində Zərifə Əliyeva adına 12 saylı liseyin dağıdılmış enerji sisteminin yenidən qurulmasıdır. Müharibənin dəhşətlərindən əziyyət çəkən 500-ə yaxın uşaq Bakı, Qəbələ və Şəki kimi Azərbaycanın mənzərəli yerlərində sağlamlıq kursları keçib. Ukrayna vətəndaşı olan minlərlə etnik azərbaycanlı Rusiyanın düşmən işğalına məruz qaldığı ilk günlərdən könüllü olaraq Ukrayna Silahlı Qüvvələrinin sıralarına qoşulub. Onlar inanılmaz cəsarət nümayiş etdirərək Ukraynanı müdafiə edirlər. Təəssüflər olsun ki, artıq 130-dan çox azərbaycanlı Ukraynanın ərazi bütövlüyü uğrunda canından keçmişdir.

Birgə mübarizənin mühüm tərkib hissəsi informasiya cəbhəsidir ki, burada "Azərbaycan işıqları" qəzeti əsas rol oynayır. 2026-cı ilin yanvarında nəşr 24 illik yubileyini qeyd edərək, diasporun ən nüfuzlu səsi və iki xalq arasında etibarlı intellektual körpü statusunu təsdiqləmiş oldu. İnformasiya müharibəsi dövründə qəzet baş redaktor  və himayədar Sərxoş İsmayılovun məsləhəti ilə ardıcıl olaraq Azərbaycan döyüşçülərinin şücaətlərini sənədləşdirdib, həm də bu nəşr informasiya, dostluq güzgüsünə çevrilib. İşıqlar kəsiləndə, enerji sistemi çökəndə belə peşəkar redaksiya qrupu çox vaxt gecələr də işləyərək xüsusi buraxılışlar dərc edib. Bu gün işğalçı orduya qarşı mübarizədə ağrı-acılı günlər yaşayan ukraynalılarla azərbaycanlıların qardaşlığı yenilməzdir. Necə ki, vaxtilə ukraynalı zabit Oleq Babak Qubadlıda dinc azərbaycanlıları silahlı erməni terrorçularından qorumaq üçün canını qurban verib, bu gün də Ukraynadakı Azərbaycan diasporu, döyüşçülər birlikdə Ukraynanın qələbəsini yaxınlaşdırır!

*Xüsusi olaraq Hacı Nərimanoğlunun*
*"Oleq Babak, Azərbaycan səni unutmayacaq" kitabı üçün*

**Andrey Çurkanov,**
*Dnepropetrovskda*
*ukrain dilində çıxan*
*"Voqni Azerbaydjanu" qəzetinin*
*baş redaktoru, tərcüməçi,*
*publisist*



# ПОДВИГ УКРАЇНСЬКОГО ОФІЦЕРА ОЛЕГА БАБАКА В АЗЕРБАЙДЖАНІ

*Закінчення.*
*Початок на 1-й стор.*

**Олег Якович Бабак народився 25 лютого 1967 року в селі Вікторія Пирятинського району на Полтавщині. Вихований у дусі відповідальності та справедливості, він обрав шлях військового, вступивши до Вищого політичного училища МВС.**

**Службу проходив у складі елітної 21-ї Софринської бригади особливого призначення.**

**За короткий час офіцерської кар'єри Олег пройшов через найскладніші випробування у «гарячих точках» тогочасного срср: від Вільнюса до Сумгаїта та Баку. З 18 місяців служби 385 діб він провів у зонах збройних конфліктів.**

**Коли проходив службу в Азербайджані, то місцеве населення ставилося до нього з глибокою пошаною, називаючи офіцера «Бабеком» – на честь легендарного народного героя, що підкреслювало його благородство та готовність захищати беззбройних.**

### Останній бій у святий день

Трагічні події розгорнулися у квітні 1991 року, коли ситуація в прикордонних районах Азербайджану загострилася до межі. 7 квітня, що того року збіглося з великими християнськими святами – Великоднем та Благовіщенням (дуже рідкісний збіг двох великих свят), підрозділ лейтенанта Бабака отримав повідомлення про напад вірменських бойовиків на мирних жителів села Юхари Джибіклі.

За словами товаришів по службі, він до останнього вірив, що у Світле Христове Воскресіння вони не зможуть порушити святу заповідь «Не вбий». Але Олег, на жаль, навіть після довгих місяців служби, мабуть, усе одно погано знав підступних дашнаків…

Прибувши на місце з невеликою групою бійців на санітарному автомобілі, Олег зіткнувся з чисельно переважаючими силами противника. Коли ситуація стала критичною, лейтенант прийняв вольове рішення: він наказав своїм солдатам відступати разом із цивільними, а сам залишився прикривати відхід.

Вже потім стало відомо, що під час перестрілки бойовики пропонували Бабаку та його товаришам залишити на полі бою мирних жителів та пораненого азербайджанського міліціянта, який продовжував відстрілюватися від терористів. Але «Бабек» такий варіант навіть не розглядав. Наказавши товаришам відступати разом із цивільними, він поодинці прикрив їх і взяв увесь удар на себе. Завдяки його самопожертві було врятовано життя підлеглих і запобігнуто розправі над мирними жителями.

Він бився до останнього набою. Коли боєприпаси закінчилися, бойовики підступно вбили оточеного офіцера. Ціною власного життя 24-річний лейтенант забезпечив евакуацію всього населення селища.

### Вічна пам'ять Герою

Визнання подвигу О.Бабака стало безпрецедентним випадком в історії: 17 вересня 1991 року йому посмертно було присвоєно звання Героя радянського союзу, що зробило його останнім українцем та взагалі військовослужбовцем, відзначеним цією самою високою нагородою за мужність у міжнаціональних конфліктах після Другої світової війни.

Сьогодні пам'ять про нього бережно плекають як в Азербайджані, так і на рідній Полтавщині, де школа в селі Вікторія гордо носить ім'я свого відважного випускника. Особливим осередком виховання молоді та збереження національної пам'яті стала музейна кімната, відкрита безпосередньо у навчальному закладі.

Тут зберігаються не просто експонати, а часточка душі молодого офіцера: його дитячі фотокартки, шкільні зошити, листи до батьків, сповнені любові до рідного краю та щирого захоплення красою Азербайджану, а також особисті речі, що супроводжували його у важких буднях на передовій.

Окрему частину музейної експозиції займає архів газети «Вогні Азербайджану», де детально описано бойовий шлях та героїчну загибель Олега, а також численні нагороди, передані батькам Героя. Серед них – Орден Святого Станіслава V ступеня та посвідчення на право носіння «крапового берета», що є найвищим символом професійної честі спецпризначенців.










Величезну роль у підтримці музею та родини загиблого відіграла азербайджанська діаспора, зокрема, голова «Ліги азербайджанців Дніпропетровщини» Сархош Ісмаїлов. Далеко за межами України відомий вагомий внесок цього відомого громадського діяча у розбудову азербайджанської громади, зміцнення азербайджансько-української дружби, допомогу постраждалим українцям під час російської агресії, а також щодо матеріального забезпечення батьків Олега Бабака, які перебувають у поважному віці. Він не любить говорити про це та про інші свої добрі справи та соціально-гуманітарні проєкти, але незаперечним фактом є те, що Сархош Ісмаїлов уже багато років за власний кошт призначив родині Героя індивідуальну пенсію.

Протягом десятиліть меценати та активісти азербайджанської діаспори відвідують Батьківщину Героя, привозять подарунки для школи та рідних, організовують меморіальні заходи. Хоча повномасштабна війна росії проти України тимчасово обмежила можливість проведення масових міжнародних зустрічей, духовний зв'язок між народами не розірвався.

### Спадкоємність мужності: від Карабаху до українських степів

Історія Олега Бабака сьогодні набуває ще глибшого змісту, стаючи дзеркальним відображенням сучасної боротьби за свободу. Як свого часу молодий українець без вагань віддав життя, так сьогодні сотні представників азербайджанської діаспори та громадян Азербайджану стоять пліч-о-пліч з українськими воїнами на передовій. Вони захищають українську землю від російських окупантів, демонструючи таку ж самовідданість, яку проявив «Бабек» понад тридцять років тому у Губадлинському районі.

Ця бойова співдружність загартована спільною волею до Незалежності та спільним болем від окупації територій. Азербайджанці, які знайшли в Україні другу Батьківщину, нині воюють у складі Збройних Сил України та добровольчих батальйонів.

Для них захист українських міст є таким же святим обов'язком, як оборона Шуші чи Кяльбаджара. Вони доводять, що справжня відданість не знає кордонів, а героїзм Олега Бабака знайшов своє продовження в душі кожного сучасного бійця-азербайджанця, який міцно тримає український фронт проти російської навали.

Сьогодні в окопах на різних напрямках можна зустріти воїнів, які виросли на розповідях про подвиг українського лейтенанта. Для них це не просто сторінка з підручника історії, а моральний орієнтир, що надихає на боротьбу проти окупантів. Цей приклад став фундаментом, на якому будується сучасне братерство, де українець і азербайджанець захищають право на мирне життя у вільній державі.

Важливо відзначити, що азербайджанська діаспора в Україні виступає потужним гуманітарним щитом. Волонтерські організації, підтримувані азербайджанськими підприємцями, щодня допомагають ЗСУ необхідним спорядженням та медикаментами. Ця системна підтримка вже давно трансформувалася у непохитну вірність Україні в її найважчі часи.

Подвиг Олега Бабака та сучасна боротьба азербайджанських добровольців в Україні складають єдиний літопис великої дружби. Це історія про те, як один офіцер зміг стати рідним для людей в іншій державі, і як ці громадяни сьогодні відповідають Україні взаємністю, проливаючи кров за її цілісність.

Справжній Герой не вмирає – він продовжує жити в серцях побратимів, які наближають спільну Перемогу над російським агресором.

## UKRAİNLƏRİN AZƏRBAYCANDAKI MÜDRİK AĞSAQQALI



Vladimir Vasilyeviç Timoşenko - "Şöhrət" ordeni təqaüdçü general-mayor, Azərbaycan Respublikası Ali Sovetinin və Milli Məclisin keçmiş deputatı olub. O, 1942-ci il noyabrın 25-də Kiyevdə doğulub, Vladiqafqazda Ali Hərbi Zenit-Raket Məktəbini və Moskvada Hərbi-Siyasi Akademiyasını bitirib.

Hərbi xidmətə Bakıda kursant kimi başlayan Timoşenko 1962-ci ildə 20 yaşında Hövsan qəsəbəsində təcrübə keçib. Elə o vaxtdan bütün varlığı ilə Azərbaycana, onun səxavətli və açıq ürəkli insanlarına heyran olub. SSRİ-də general-polkovnik rütbəsində qulluq edən ilk həmvətənimiz Tofiq Ağahüseynov onu hərbi məktəbi bitirəndən sonra xidmət keçmək

üçün Azərbaycana qayıtmağa dəvət edib. Sonralar Rusiyada, Ukraynada qulluq keçib, Zaqafqaziya Hərbi Dairəsində korpusun siyasi şöbə rəisi, ordu Hərbi Şurasının üzvü olub, çox sayda orden və medallarla təltif edilib, 1990-cı ildə ehtiyata buraxılıb. Hərbi xidmətini başa vurandan sonra Rusiyadan



yaxşı vəzifələrdə işləmək, yaşamaq təklifi alsa da, özü, həm də övladları üçün sadəcə doğma ev yox, sözün həqiqi mənasında Vətən hesab etdiyi Azərbaycanda daimi yaşamaq qərarı verib. Azərbaycan Prezidentinin ilk Hərbi müşaviri olub, 4 prezidentinin dövründə parlamentin deputatı olub. Rusiyada yüksək vəzifələrə dəvət alsa da, hər dəfə imtina edib.

Əslən ukraynalı, qəlbən isə azərbaycanlı olan V.Timoşenkə dəfələrlə Ermənistanın Azərbaycana qarşı təcavüzünü, rəsmi Moskvanın və Qərb ölkələrinin ikiüzlü siyasətini, Ru-

 

siyanın respublikamızdan çıxarılan döyüş texnikasının Ermənistana verməsini, 1 milyard dollar dəyərində ən müasir hərbi texnikanı Ermənistana müftə hədiyyə etməsini, Xocalı faciəsini qətiyyətlə pisləmişdir.

O, Milli Ordumuzun ilk batalyonlarının, o cümlədən beynəlmiləl batalyonun formalaşmasında iştirak etmiş və Qarabağ cəbhəsində bir sıra uğurlu döyüş əməliyyatlarında iştirak etmişdir. Bu beynəlmiləl batalyonun cəsur döyüşçülərindən biri öz vətəni Azərbaycanı alovlu məhəbbətlə sevən bakılı yəhudi, şəhid Milli Qəhrəman Albert Aqarunov idi.

V.Timoşenkonun Qarabağ münaqişəsinin tarixi və onun acı nəticələri haqqında Ukrayna televiziyası ilə çıxışları ölkə sakinlərinin gerçək həqiqətləri bilib öyrənməsində, beynəlxalq auditoriyada yayılmasında əhəmiyyətli olmuşdur.

Hərbi, siyasi, ictimai xadim Timoşenko müsahibələrində deyir: “Rusiyanın, Ukraynanın müxtəlif yerlərində xidmət keçmişəm, amma heç bir yerdə Azərbaycandakı qədər rahat olmamışam. Bu yer möhtəşəm təbiəti ilə yanaşı, xalqın qeyri-adi xarakteri və gözəlliyilə cənnətdir. Mənim üçün ən yüksək vəzifə Azərbaycan vətəndaşı olmaqdır.

General Timoşenko 44 günlük Vətən müharibəsindən hələ xeyli öncə demişdi: “Qarabağ problemi heç vaxt sülh yolu ilə həll edilməyəcək... Biz genişmiqyaslı hərbi əməliyyatlara hazır olmalıyıq ki, torpaqlarımızı azad edək”.

Zaman istefada olan generalın proqnozlarını doğrultdu.

Vladimir Timoşenko Bakıda dəvət olunduğu rəsmi və qeyri-rəsmi tədbirlərdə iştirak və çıxış edir.

Generalın üç oğlu və bir qızı var. Böyük oğlu İqor atasının yolu ilə gedib. Ali Hərbi Məktəbi bitirib, hərbçidir – Ukrayna Ordusunun generalıdır. İkinci oğlu Oleq iqtisadçıdır, Azərbaycan Dövlət İqtisad İnstitutunda təhsil alıb. Onların hər ikisi hazırda Ukraynada yaşayır. "Mən hələ də güc və enerji ilə doluyam" deyən Timoşenko zarafat etməyi, ürəkdən gülməyi, tost söyləməy, tez-tez ziyafətlərdə dostlarımın xahişi ilə tamadalıq etməyi, lətifə deməyi sevir və bunlar onda yaxşı da alınır. Onun lətifələrdən ibarət 4 mindən çox kolleksiyası da var. Bu gün Bakıda yaşayan general Vladimir Timoşenkonun bir gözü gülsə də, bir gözü ağlayır... Bu da səbəbsiz deyil. Generalın gözü-qulağı tarixi vətəni Ukrayna ilə bağlı xəbərlərdədir: "mənim iki oğlum Kiyevdə, qardaşım Dnepropetrovskda, bacım Kiyev yaxınlığında yaşayır.

Oradakı qohumlarım saysız-hesabsızdır"- deyərək, ukraynalıların başına gətirilən müsibətlərə görə rəsmi Moskvanı lənətləyir: "Putin özünü şortikdə gəzən küçə uşağı kimi aparır. O düşünür ki, Krımı Rusiyaya birləşdirməklə reytinqini qaldırıb. Bəs dünyada nə qazanıb? Bütün dünya ictimaiyyəti Putinə nifrət edir. O öz simasını bir daha göstərdi".

84 yaşlı Vladimir Timoşenkonun ən böyük arzusu Ukraynanın bu amansız təcavüzə qarşı savaşı qələbə ilə başa vurmasıdır.

Biz də o günü gözləyir və cani-könüldən arzulayırıq.[36]

---

[36]https://azertag.az/xeber/sabiq_deputat_azerbaycanin_vetenperver_oglu_general_vladimir_timosenkonun_70_yasi_varazerbaycan_meneviyya

# TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIĞIN YENİ ARXİTEKTURASI



Bəzən diplomatiya ofislərin sükutunda deyil, müharibə uğultusunda doğulur. Protokollardan deyil, itkilər, mübarizələr və çətin qərarlar təcrübəsindən. O zaman formallıqdan çıxıb zərurətə çevrilir. Çünki uzun izahat tələb etməyən şeylər var - onları eyni sınaqlardan keçənlər başa düşürlər.

Ukrayna prezidenti Vladimir Zelenskinin Bakıya səfəri təkcə diplomatik hadisə deyil və beynəlxalq cədvəlin başqa elementi də deyil. Bu, müharibə təcrübəsi, itkilər və insan həyatı ilə ölçülən qərarları olan insanların görüşüdür. Bu, ölənlərin xatirəsinin, dirilərin qarşısında məsuliyyətin və itkisiz sülhün olmadığının dərk edildiyi bir söhbətdir. Bəzən diplomatiya ofislərinin sükutunda deyil, savaş ugultusunda doğu-

---

t_diyaridirodlar_diyarini_ilk_defe_gorende_bu_qenaete_gelmis_general_vladimir_timosenko_onu_omurluk_sevmisdir-193862

lur. Protokollardan yox, sınaqlar, mübarizələr və çətin qərarlar təcrübəsindən yaranır. O zaman formallıqdan çıxır zərurətə tərəf gedir. Çünki uzun izahat tələb məsələlər var, bunu eyni acıları yaşayanlar başa düşər.

Ukrayna prezidenti Vladimir Zelenskinin Bakı səfəri təkcə diplomatik hadisə deyildi, beynəlxalq masanın digər elementləri də bura daxil edilməyib. Bu müharibə təcrübəsi keçən, itkilər və insan həyatı ilə ölçülən tarix yaşamış liderlərin görüşüdür. Bu, günahsız ölümlərin acısını yaşamış, sülh, rifah içərisində yaşamağı arzu edən, bu yolda çalışan ölkə rəhbərlərin görüşüdür. Azərbaycandan fərqli olaraq, Ukrayna hazırda hələ ki sülhün olmamasından əziyyət çəkir.

Paralelliklər formal xarakter daşımır. Qarabağ müharibəsi və Ukrayna müharibəsi fərqli tarixə malik, lakin mahiyyətcə oxşar olan müharibələrdir. Onlar xarici təsir amillərini, separatizmi və gələcəyə nəzarət uğrunda mübarizəni birləşdirir. Ona görə də Kiyev və Bakı arasında uzun izahatlara heç bir izahata ehtiyac yoxdur: anlaşma diplomatik ifadələrdən daha tez yaranır.

Münasibətlərin praktiki tərəfi də az əhəmiyyət kəsb etmir. Azərbaycan son illər təkcə sözdə, bəyanatlar səviyyəsində deyil, Ukraynaya gerçək dəstək nümayiş etdirir. Humanitar yardım, enerji sahəsində əməkdaşlıq və ərazi bütövlüyünə dair ardıcıl mövqe etimad yaradan konkret addımlardır. Müharibə dövründə ən böyük yükü məhz belə addımlar daşıyır.

Hazırda belə əməkdaşlıq yeni konkret ölçülər alır. Görüşdən sonra tərəflər təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq sahəsində altı strateji saziş imzalayıblar. Bu, qarşılıqlı fəaliyyətin siyasi bəyannamələrdən kənara çıxaraq sistemli

koordinasiya müstəvisinə keçdiyini göstərir, burada təhlükəsizliyə ümumi məsuliyyət və ümumi maraq kimi baxılır. Eyni zamanda, daha geniş kontekst yaranır. Azərbaycan tədricən Avrasiyanın müxtəlif hissələrini birləşdirən mühüm enerji və nəqliyyat marşrutlarının mərkəzinə çevrilib. Ukrayna öz növbəsində Avropada təhlükəsizliyin əsas amili olaraq qalır. Bu iki ölçü kəsişdikdə təkcə ikitərəfli dialoq yaranmır, yeni regional tarazlığın elementi formalaşır. Bu qarşılaşmanın başqa, daha az açıq bir ölçüsü var. Bir vaxtlar postsovet məkanını keçmişin ətaləti birləşdirirdi. Bu gün onu müqavimət təcrübəsi və xalqların öz yolu ilə getməkdə  səmimi istəyi getdikcə daha çox birləşdirir. Böhrandan çıxmağı bacaran və subyektivliyini qoruyan dövlətlər bir-birini strateji tərəfdaş kimi görməyə başlayır. Ona görə də belə görüşlərin protokoldan kənar əhəmiyyəti var. Onlar təkcə maraqların deyil, həm də ümumi təcrübənin, qarşılıqlı hörmətin və qərarların qiymətinin başa düşülməsinin vacib olduğu münasibətlərə yer açır. Və bu anlaşma olan yerdə uzunmüddətli əməkdaşlıq imkanı var - sakit, praqmatik və eyni zamanda dərin insani münasibətlər daha əhəmiyyətlidir.

Bu kontekstdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mövqeyi xüsusi əhəmiyyət kəsb edir. Bu, ardıcıl və birmənalıdır: Ukraynanın ərazi bütövlüyü və suverenliyinə dəstək prinsipialdır. Azərbaycan Respublikasının lideri ictimai bəyanatlarında öz ərazilərinin itirilməsi ilə barışmağın yolverilməzliyini dəfələrlə vurğulamışdır və bu yanaşma Azərbaycanın təcrübəsində öz əksini tapır. Danışıqlar zamanı səslənən spesifik mülahizələr xüsusilə təsirlidir. Prezident İlham Əliyev xüsusi vurğuladı: “Azərbaycan və Ukrayna bütün

beynəlxalq təşkilatlarda suverenliyi və ərazi bütövlüyünü qarşılıqlı şəkildə dəstəkləyir və dəstəkləyəcək”. Bu mövqe təkcə diplomatik bəyanat kimi önəmli deyil. O kursun sabitliyini əks etdirir və dəstəyin situasiya maraqlarına deyil, hər iki dövlətin ardıcıl olaraq müdafiə etdiyi prinsiplərə əsaslandığını nümayiş etdirir.

Tarix insanlara çox vaxt unikal şans vermir, lakin həmişə onlara seçim imkanı verir. Ukrayna və Azərbaycan artıq bu seçimi edib. Buna görə də onların dialoqu bu gün xüsusilə inandırıcı səslənir - daha az söz və daha çox məzmun var. Belə görüşlər dünyanı bir anda dəyişmir. Lakin onlar hərəkət istiqamətini dəyişirlər. Və bəzən bu, gələcəyin itkilərin davamı olmaqdan çıxması və bərpa məkanına və müstəqil bir yola çevrilməsi üçün kifayətdir.

Azərbaycan artıq özünü Cənubi Qafqazda təhlükəsizliyin və sabitliyin sütunu kimi təsdiqləyib. Ukrayna Şərqi Avropada da analoji rola yiyələnməyə qadirdir və bunun üçün ilkin şərtlər bu gün artıq formalaşır. Təcrübə artıq bölünmür, birləşməyə başlayır. Gələcək təcrübənin birliyə çevrildiyi yerdə başlayır. Və iki liderin  görüşü bu məqsədə doğru atılan mühüm addımdır.[37]



**Oleq Tulyakov,**
*Pedaqoji elmləri namizədi, Sumi Dövlət Universitetinin dosenti*

[37] https://azconsulate.com.ua/uk/

## OLEQ BABAKIN VALİDEYNLƏRİNƏ DAİMİ QAYĞI GÖSTƏRİLİR

***Azərbaycan Prezidenti İlham Əliyevin bu barədə xüsusi tapşırığı var***



Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev, Azərbaycanın Xarkovdakı fəxri konsulu Əfqan Salmanov diplomatik fəaliyyətlərinin ilk günlərindən başlayaraq dəfələrlə Oleq Babakın doğulub yaşadığı, dəfn olunduğu Viktoriya kəndinə gəliblər, məzarını ziyarət ediblər, ata-anasına, kənd sakinlərinə, oxuduğu, adını daşıyan məktəbin müəllim, şagird kollektivinə xalqımızın səmimi hörmət, ehtiramını çatdırıblar[38]. Eyni missiyanı dost ölkədəki diaspor nümayəndələri də ardıcıl olaraq davam etdirir.

---

[38]https://azertag.az/xeber/qubadlida_ermeniler_terefinden_qetle_yetirilen_ukraynali_oleq_babakin_xatiresi_poltavada_anilib_video-3750003

## DİASPORUMUZ BABAKLAR AİLƏSİNDƏ

**Eldar Tağıyev "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin Ukrayna nümayəndəliyinin rəhbəridir**.



O, Sultan bəy, Xosrov bəy Sultanov yurdu Laçında doğulub, Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib. İnternet əsrində yaşayırıq; hər hansı insan barədə məlumat əldə etmək, hər hansı məsələ, mövzu barədə biliklər əldə etmək istəyirsən, google.com-da yaz, axtarış ver, informasiya axınına düşəcəksən.

İllərdən bəri kitabımızın qəhrəmanı Oleq Babak ailəsinə Ukraynadakı səfirlik və Xarkovdakı konsulluğumuzun əməkdaşlarından əlavə Azərbaycan, azərbaycanlı adından üz tutanlar, diqət, qayğı göstərənlər arasında ən çox rast gəlinən isimlərdən biri Eldar Tağıyev olub. Onun *https://www.facebook.com/eldarlacin, Biz gəldik, Laçın!* feysbuk səhifəsindəki Azərbaycan tarixi, həqiqətləri barədə məqalə, araşdırmaları maraqla qarşılanır, çoxsaylı oxucu auditoriyası vardır, mənfur qonşularımızın rus və ukrain dillərində yazıb yaydıqları həqiqətdən uzaq yazılarına operativ, sərrast, elmi mənbələrə istinadla cavablar yazır. E.Tağıyevin Zəngəzur, Laçınla bağlı

---

https://modern.az/az/aktual/297005/azerbaycanin-xarkovdaki-fexri-konsulu-sovet-ittifaqi-qehremanin-ailesinde-olub/



araşdırmaları da çox əhəmiyyətlidir. Onun Ukraynada, özəlliklə də Dnepropetrovsk vilayətində diaspor quruculuğunda əməyi həmişə hörmətlə çəkilir, çünki onun fəaliyyəti şəxsi mənafedən uzaq, Azərbaycan adına təmənnasız xeyirli işlər görməyə yönəlib. Bu kitabın oxucularına onun zəngin feysbuk səhifəsini oxumağı tövsiyə edirəm._Heç kim, heç nə unudulmamalıdır, heç nə yaddan çıxmamalıdır. Eldar Tağıyev deyir ki, Ukrayna Azərbaycanlıları Konqresi (UAK) Azərbaycanın xaricdəki ən fəal, təşkilatlanmış diasporlarından biridir. Ukraynadakı Azərbaycan diaspor təşkilatları 1999-cu ildə görkəmli dövlət xadimi Heydər Əliyevin tövsiyəsi, xeyir-duası ilə vahid bir təşkilatda birləşdi. O vaxtadək Konqresin fəaliyyətində bəzi xırda problemlər olsa da, sonralar qurum rəhbərlərinin ağıllı tədbirləri sayəsində 27 regional təşkilatı birləşdirən UAK bu narazılıqları aradan qaldırıldı. Azərbaycan Prezidentinin xarici və daxili siyasətini dəstəkləyən UAK ümummilli maraqlar naminə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ilə də sıx əməkdaşlıq edir. Rusiyanın Ukraynaya hücumundan sonra azərbaycanlı iş adamlarının vəziyyəti, biznes fəaliyyəti də obyektiv olaraq çox çətinləşdi, əksəriyyəti ağır itkilərə məruz qaldılar. UAK və regional təşkilatlarının rəhbərləri Akif Gülməmmədov, Ceyhun Məmmədov, Rasim Novruzov, Yaşar

Alxasov, Eldar Tağıyev, Bayram Əliyev, Azad Vəliyev, Qurban Abbasov, Füzuli Qənbərov, Qüdrət Hacıyev, Rövşən Quliyev, Anar Natiqoğlu, Murad Ömərov, Zaur Ağabəyov, Rac Qasımov, Nurəli Məmmədov, Mübariz Məcidov, Elşad Ələsgərov, Mahmud Qurbanov, Teymur Məmmədov, Sərxoş İsmayılov, Rafəs



Benyadov, Firudin Haşımov, Zamirə Əliyeva, Nəsir Cəbiyev, Hikmət Cavadov, Murad Cəfərov, Fərhad Turanlı, Daşqın Gülməmmədov, Vidadi İsrafilov, Zaur Ağabəyov, Şamxal Quliyev və başqalarının ekstremal situasiyada göstərdikləri fəallıq, həmvətənlərimizə təmənnasız yardımları unudulmazdır. Onlarla diaspor təmsilçimiz o ağır günlərdə xalqımıza xas olan xeyirxahlığı, mərhəməti, milli duyğusunu, Vətən sevgisini səmimiyyətlə, cani-könüldən, qürurverici formada, əməli şəkildə göstərirdi. Ukrayna dövlətinin suverenliyinin möhkəmləndirilməsinə göstərdikləri xidmətlərə, eləcə də səmərəli diaspor fəaliyyətlərinə görə onların bir çoxu orden, medallarla təltif ediliblər. Azərbaycan seqmentində xeyli material da yerləşdirilib[39], video süjetlər vardır.[40]

---

[39]https://az.wikipedia.org/wiki/Rusiya%E2%80%93Ukrayna_m%C3%BCharib%C9%99sind%C9%99_az%C9%99rbaycanl%C4%B1lar

[40] https://www.facebook.com/watch/?v=576939414210762
https://www.youtube.com/watch?v=NnBofpHjU5s 9.42



**Sərxoş İsmayılovun** haqqında bu faktı qeyd etməmək ədalətsizlik olar; Dnepropetrovskda Azərbaycan diasporunun sağlam əsaslar üzərində qurulmasında, Azərbaycan-Ukrayna dostluğunun möhkəmlənməsində, azərbaycanlı ailələrinin qayğı və problemlərinin həllində, əsas da Oleq Babakın ömrünün ahıl çağlarını yaşayan ata-anasının maddi təminatında Sərxoş İsmayılovun - Dneprdəki diasporumuzun və şəxsən qurucu sədrimizin töhfələri, xidmətləri əvəzsizdir, müqayisəyə gəlməzdir, o, bu haqda danışmağı da sevmir, ancaq fakt

https://www.youtube.com/watch?v=3Eo98bP3WkM

budur ki, Sərxoş İsmayılov 5 ildən çoxdur öz hesabından bu ailəyə fərdi təqaüd ayırıb, ardıcıl da ödəyir.[41]



"Savalan" qəzetinin baş redaktoru **Nadir Zeynalzadə** hazırda Qubadlı rayonunun Qaracallı kəndində təqaüdçü ömrünü yaşayır, o da dəfələrlə Oleq Babakın valideynlərinə baş çəkib, Qubadlı camaatının hörmət, ehtiramını yetirib. Nadir müəllim deyir: - Dnepropetrovskda çıxan "Voqni Azerbaydjanu" qəzeti 2002-ci ildən nəşr olunur, bu, eləcə də "Savalan" qəzetinin nəşrində də S.İsmayılovun maddi, mənəvi dəstəyi çox böyükdür. Bu qəzetlər Ukraynada Azərbaycan həqiqətlərinin təbliğində, diasporumuzun fəaliyyətinin əlaqələndirilməsində, vahid məqsədlər ətrafında birləşməsində mühüm rol oynayır. 2022-ci il 24 fevralda müharibə başlayan ilk günlərdən Ukraynada yaşayan azərbaycanlıların da digər sərhədyanı ölkələrə - Moldova, Polşa, Slovakiya və Macarıstana təxliyəsinə başlandı, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Ukrayna Azərbaycanlıları Konqresi və Ukrayna Azərbaycanlıları Radasının birgə fəaliyyəti nəticəsində biz diaspor təşkilatları da çox gərgin çalışdıq, qeydiyyatlı, qeydiyyatsız yaşayan yüzlərlə imkansız həmvətənimizin köçürülməsinə, gündəlik yeməklə təminatına, müvəqqəti sığınacaqlarda yerləşməsinə

[41] https://modern.az/qubadlida-helak-olan-sonuncu-sovet-ittifaqi-qehremani-ukraynali-zabitin-anasi-qubadli-alinanda-azerbaycanlilari-tebrik-edib/285166

yardımçı olduq. Səfirliyimizin əməkdaşları gərgin iş rejimində çalışdılar, Xarkovdakı fəxri konsulumuz Əfqan Salmanov ən təhlükəli günlərdə belə şəhəri tərk etmədi, baxmayaraq ki, konsulluq binası da mərmi zərbələrindən zərər görmüşdü, kollektiv illərdi müharibə şəraitində fəaliyyətini fasiləsiz davam etdirir. Nadir Zeynalzadə Milli Qəhrəman, Vətən müharibəsində doğma yurdu Qubadlıya daxil olan ilk ordu hissəminin komandiri Şükür Həmidovun qohumudur. Dneprdə azərbaycanlı uşaqlar üçün Ana dilində ilk məktəbin, “Savalan” qəzetinin rəhbəri olub. Ukrayna Jurnalistlər Birliyinin üzvüdür, Diasporda böyük nüfuzu vardır. 8 noyabr Zəfərindən sonra Qubadlıya gedib, Ata-baba yurdunu ziyarət edib. Rusiyanın PUA-sı onun Dneprdəki evini də dağıdıb.



**Füzuli Qənbərov** Qərbi Azərbaycanın Amasya mahalının (Vardeniv rayonu) Zod kəndində anadan olub, 1992-ci ildən Poltavada yaşayır. 2003-cü ildə Poltava Tibb İnstitutunu ümumi cərrahiyyə ixtisası üzrə bitirib, səmərəli ictimai, diaspor fəaliyyəti ilə də tanınıb, nüfuzu, təşkilatçılıq bacarığı nəzərə alınaraq Ukraynada milli azlıqları birləşdirən ictimai birliklərin üzvü, 2021-ci ilin noyabrında Poltava Vilayəti Azərbaycanlıları Radasının sədri seçilib[42], 2024-cü ilin dekabrında

[42]https://azertag.az/xeber/ukraynanin_poltava_seherinde_azerbaycanin_yeni_diaspor_teskilati_yaradilib_video-1934722



“Diaspor fəaliyyətində xidmətə görə” Azərbaycan Respublikasının medalı ilə təltif edilib”[43]. Füzuli Qənbərovun Azərbaycan Prezidentinin saytında yerləşdirilmiş bu məktubu da və Poltava vilayətində yaşayan Azərbaycan diasporunun ictimai-siyasi mövqeyi barədə aydın təəssürat yaradır.

**Füzuli Qənbərovdan, Poltava, Ukrayna**

***Hörmətli cənab Prezident,***

*“Poltava vilayətində Ukrayna Azərbaycanlıları Şurası” İctimai Təşkilatının sədri və Poltava vilayətində azərbaycanlıların diasporu adından növbədənkənar prezident seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə Sizi təbrik edirəm.*

*Səsvermənin nəticələri Azərbaycan xalqının Sizə olan sevgisini və sədaqətini təsdiq etdi.*

*Cənab Prezident, Sizin sayənizdə bu gün Azərbaycan xalqı öz tarixinin ən şərəfli və qürurlu dövrünü yaşayır. Mən Qalib Xalqın nümayəndəsi olduğum üçün çox xoşbəxtəm. Biz Qalib dövlətin vətəndaşlarıyıq.*

*Sizin adınız Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq.*

*Hörmətlə,*

*Füzuli Qənbərov,*
*“Poltava vilayətində Ukrayna Azərbaycanlıları Şurası" İctimai Təşkilatının sədri.*

*16 fevral 2024-cü il.*[44]

---

[43] https://diaspor.gov.az/az/news-detail/poltavadaki-diaspor-teskilatinin-rehberine-medal-teqdim-olunub-5360
[44] https://president.az/az/articles/view/64099

# AZƏRBAYCANIN UKRAYNAYA HUMANİTAR YARDIMLARI

2022-ci ilin yanvarında Azərbaycan Prezidenti İlham Əliyev Kiyevdə rəsmi səfər zamanı hər iki ölkənin suverenliyi və ərazi bütövlüyünü təsdiq etdi.

Rusiyanın təcavüzündən sonra Azərbaycan hakimiyyəti artıq işğalın ikinci günündə Ukraynaya humanitar yardım göstərməyə başladı.

25 fevral 2022-ci il axşam saatlarında iki Silk Way təyyarəsi ərzaq və dərman yükünü konkret məkanda Ukrayna tərəfinə təhvil verdi.

SOCAR bəyan etdi ki, Ukraynanın bütün fövqəladə xidmət maşınları (təcili yardım, yanğınsöndürmə xidməti və s.) SOCAR-ın Ukraynadakı bütün 59 yanacaqdoldurma məntəqəsindən pulsuz istifadə edə biləcəkdir.

2023-cü ilin noyabr ayında Azərbaycan Ukraynaya 900 min metrdən çox elektrik kabeli və naqillər, o cümlədən 18 transformator və transformator yarımstansiyası göndərib.

2022-2026-cı illərdə Azərbaycan Ukraynaya 40 milyon avrodan artıq məbləğdə humanitar yardım edib.[45]

---

[45] https://baku.tv/siyaset/ilham-eliyev-rusiya-ukrayna-muharibesinden-danisdi

## Ukraynaya 2 milyon dollarlıq yardım

Sərəncamda deyilir*: "Ukrayna arasında dostluq və əməkdaşlıq münasibətlərində ikitərəfli sənədlər, o cümlədən 2000-ci il 16 mart tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və müttəfiqlik haqqında", 2008-ci il 22 may tarixində "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və əməkdaşlıq haqqında" Azərbaycan Respublikası və Ukrayna Prezidentinin 2022-ci il tarixli tarixi və 2022-ci il tarixləri arasında Azərbaycan Prezidenti İlham Əliyev Bəyannaməsi"nə əsasən inkişaf edir.*

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu hissəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram: 1. Ukraynaya humanitar yardım göstərilməsi Azərbaycan Respublikasında istehsal olunan elektrik avadanlığının satın alınması və göndərilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində saxlanılan Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Energetika Nazirliyinə 2,0 (iki) milyon ABŞ dolları manat ekvivalentində vəsait ayrılsın.*

*Bakı şəhəri, 11 avqust 2025-ci il, № 686".*[46]

[46] https://e-qanun.az/framework/60348

## Ukraynalı uşaqlar Azərbaycanda

Son üç ildə valideynləri Rusiya-Ukrayna münaqişəsi zamanı dünyasını dəyişmiş və ya əsir götürülən 273 ukraynalı uşaq Azərbaycanda reabilitasiyadan keçib.

Modern.az xəbər verir ki, bu barədə Ukraynanın Azərbaycandakı səfiri Yuri Qusev mətbuat konfransında bildirib.

"Bu proqram Ukrayna və Azərbaycan arasında əməkdaşlığın və strateji tərəfdaşlığın möhkəmləndirilməsində mühüm rol oynayır", - o deyib.

Qusev bir həftə əvvəl daha bir qrup ukraynalı uşağın istirahət və reabilitasiya üçün Azərbaycana gəldiyini və onlar üçün bu gün Pasxa bayramları münasibətilə "Gələcək naminə uşaqlar üçün. Ukrayna - Azərbaycan" xeyriyyə məqsədli bədii tədbir çərçivəsində xeyriyyə konsertinin təşkil olunduğunu bildirib.

Ukrayna səfirliyinin məlumatına görə, Rusiya-Ukrayna münaqişəsi zamanı valideynləri ölmüş və ya itkin düşmüş 29 uşaq hazırda Azərbaycanda reabilitasiya olunur.

Azərbaycan və Ukrayna arasında parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əlibala Məhərrəmzadə qeyd edib ki, bugünkü tədbir iki ölkə arasında humanitar əlaqələrin yüksək səviyyədə olmasının göstəricisidir.

"Hər kəsə məlum olduğu kimi, Azərbaycan Ukraynanın ərazi bütövlüyünü tanıyır və hər zaman Ukrayna xalqının yanındadır. Ümid edirik ki, müharibə tezliklə bitəcək, ukraynalı və azərbaycanlı uşaqlar gələcəkdə daha çox birgə tədbirlər keçirəcəklər", - o qeyd edib.

Hərbi əsirlərlə iş üzrə koordinasiya qərargahının nümayəndəsi və "Gələcəyin adamları" layihəsinin rəhbəri Viktoriya Tsımbalyuk bildirib ki, indiyədək "Gələcək naminə uşaqlar üçün" xeyriyyə aksiyasında 3 mindən çox ukraynalı uşaq iştirak edib.

"Bu layihə artıq dünyanın 20-yə yaxın ölkəsində həyata keçirilib. Layihə uşaqların sosiallaşması, dəstək, o cümlədən psixoloji dəstək, onların təhsili, həmçinin idman baxımından inkişafına yönəlib", - o əlavə edib.

25 aprel 2026-cı ildə Qəbələdə Prezident İlham Əliyevin Prezident Volodimir Zelenski ilə təkbətək və geniş tərkibdə görüşü olub. Bu səfərin ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminlik bildirilib. Əməkdaşlığın bir çox istiqamətdə, o cümlədən enerji sahəsində genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı, kənd təsərrüfatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu, Hökumətlərarası Komissiyanın fəaliyyətinə toxunuldu. Ölkəmizin Ukraynaya humanitar dəstəyini, ukraynalı uşaqlara olan diqqət və qayğını yüksək qiymətləndirən qonaq bütün bunlara görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Tezliklə bir qrup ukraynalı tələbənin reabilitasiya məqsədilə, həmçinin Azərbaycanın mədəniyyəti və incəsənəti ilə tanış olması üçün ölkəmizə səfərinin nəzərdə tutulduğu vurğulandı.[47]

[47] https://modern.az/az/olke/514365/azerbaycanda-273-ukraynali-ushaq-reabilitasiyadan-kechib/

# POLTAVADA ANIM MƏRASİMLƏRİ







Bakı Slavyan Universitetinin (BSU) Poltava İqtisadiyyat və Ticarət Universiteti (PİTU) nəzdində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət və Təhsil Mərkəzində (AMTM) Qarabağın azadlığı uğrunda həlak olmuş Sovet İttifaqı Qəhrəmanı, Poltava vilayəti sakini Oleq Babakın doğum gününə həsr olunmuş “dəyirmi masa” təşkil olunmuşdur. Tədbirdə müəllim və tələbələrlə birlikdə  Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporunun fəalları da iştirak etmişlər. Tədbir iştirakçıları əvvəlcə Qarabağda və Kiyevin Müstəqillik Meydanında həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etmiş, AMTM-nin direktoru, dosent Yaşar Alxasovun müşayiəti ilə Mərkəzdəki Oleq Babak guşəsi ilə tanış olmuşlar.[48]

[48]https://azertag.az/xeber/poltavada_xocali_faciesinin_22_ci_ildonumune_ve_qarabag_muharibesi_qehremani_oleq_babakin_dogum_gunune_

## Viktoriyada Oleq Babakın anım mərasimi




1991-ci ilin aprelin 7-də Qubadlı rayonunda mülki azərbaycanlıları erməni silahlılarından qoruyarkən qəhrəmancasına həlak olan Sovet İttifaqı Qəhrəmanı, ukraynalı leytenant Oleq Babakın xatirəsi anılıb.Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü ilə keçirilən anım tədbirində əvvəlcə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ukraynadakı hərbi attaşesi, birinci dərəcəli kapitan Əziz Nuriyev, səfirliyin birinci katibi Namiq Niftullayev və hərbi attaşenin baş köməkçisi mayor İbrahim Hüseynov O.Babakın valideynlərinə baş çəkiblər. Babakın valideynləri Azərbaycan dövlətinin onların problemləri ilə həmişə yaxından maraqlandığını vurğulayıblar.Sonra tədbir iştirakçıları O.Babakın məzarını ziyarət edib, üzərinə tər çiçəklər düzüb, xatirəsini ehtiramla anıblar.[49]

---

hesr_olunmus_tedbir_kechirilmisdir-56170 https://apa.az/ru/xeber/azerbaydjanskaya-diaspora/xeber_v_ukraine_pochtena_pamyat_ubitogo_armyanam_-269082 https://teleqraf.az/news/toplum/287615.html

[49]https://azertag.az/xeber/azerbaycan_dovleti_qehremanlarini_unutmur_oleq_babakin_xatiresi_poltavada_anilib-3437471

## Poltavada Oleqin anasının yubileyi qeyd edilib



Azərbaycanın Ukraynadakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə Poltava vilayətinin Viktoriya kəndində Sovet İttifaqı Qəhrəmanı Oleq Babakın anası Nadejda Babakın 75 illiyi qeyd edilib.

Tədbirdə Azərbaycanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Elmira Axundova, diplomatlar, səfirliyin hərbi attaşesi polkovnik İlqar Ağayev, Oleq Babakın valideynləri, yaxınları, yerli ictimaiyyətin nümayəndələri, Poltava Şəhər Administrasiyasının rəsmiləri, eləcə də KİV təmsilçiləri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları O.Babakın məzarı üzərinə tər çiçəklər düzüblər. O.Babakın Azərbaycanın Qubadlı rayonunda mülki şəxsləri erməni silahlılarından qoruyarkən göstərdiyi qəhrəmanlığı xatırlanıb. Sonra Oleq Babakın yaşadığı

evə gələn iştirakçılar qəhrəmanın anası Nadiya Babakı 75 il-lik yubileyi münasibətilə təbrik ediblər. “Artıq Oleq Babakın ruhu da şaddır, çünki Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz işğal altındakı torpaqlarımızı, o cümlədən Qubadlı rayonunu azad edib. Qubadlının Yuxarı Cibikli kəndində Oleq Babakın adının əbədiləşdirilməsi üçün artıq müvafiq qurumlara müraciət olunub. Oleq Babakın Qubadlıda büstünün qoyulması və ya hər hansı küçəyə onun adının verilməsi üçün lazımi işlər görülür”-səfir deyib.

Göstərilən diqqətə görə təşəkkürünü bildirən Nadiya Babak Oleq Babakın ailəsinin hər zaman Azərbaycan dövlətinin qayğısını hiss etdiyini vurğulayıb.[50]



[50]https://azertag.az/xeber/poltavada_qubadlida_ermeniler_terefinden_qetle_yetirilen_sovet_ittifaqi_qehremaninin_anasinin_yubileyi_qeyd_edilib_video-1820827

## Oleq Babakın xatirəsi Poltavada anılıb



1991-ci il sentyabrın 17-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən, Qubadlı rayonunda mülki Azərbaycan vətəndaşlarını qoruyarkən ermənilər tərəfindən qətlə yetirilən Oleq Babakın xatirəsi bu gün Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində anılıb. Anım tədbirində Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev, Poltava Hərbi Administrasiyasının sədr müavini Anton Çubenko, Azərbaycan Silahlı Qüvvələrinin Ukraynadakı hərbi attaşesinin baş köməkçisi İbrahim Hüseynov, diplomatlar Elşən Rəşidov, Pərviz Əsədov, müharibə veteranları, Olek Babakın valideynləri, ictimai nümayəndələr iştirak ediblər.

***

Ukraynanın Poltava vilayətində Azərbaycanın Qubadlı rayonunda azərbaycanlıları ermənilərdən xilas edərkən həlak olmuş Sovet İttifaqının sonuncu milli qəhrəmanı Oleq Babakın anım mərasimi keçirilib. Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporun sədi Hikmət Cavadov, Dnepropetrovsk Azərbaycanlıları Liqasının sədri Sərxoş İsmayılov, Liqanın üzvləri Eldar Tağıyev, Nadir Zeynalzadə, professor Arif Quliyevlə birlikdə keçən anım tədbirində Ukraynanın yüksək çinli dövlət məmurları da iştirak edib, şəhidin məzarı üzərinə

gül dəstələri düzüblər. Mərasim iştirakçıları Oleq Babakın adını daşıyan məktəbdə onun adına açılmış muzeyi də ziyarət ediblər. Daha sonra şəhidin adına ehsan süfrəsi də verilib [51]

**Beş yüzdən çox poltavalı Xocalı soyqırımını anıb**

Azərbaycan Respublikasının Xarkov şəhərində fəxri konsulluğu tərəfindən fevralın 19-da keçirilmiş görüş-rekviyem zamanı Poltava İqtisadiyyat və Ticarət Universitetinin (PİTU) 500 nəfərlik akt zalı tamamilə dolmuşdu. Tədbirdə Poltava vilayət şurasının sədri Pyotr Vorona, onun müavini Vladimir Mikiyçuk, universitetin rektoru Aleksey Nestulya və prorektor Oleq Durmanenko, vilayət administrasiyasının informasiya və ictimaiyyətlə əlaqələr departamentinin dinlər və millətlərin işi üzrə sektor müdiri Vladimir Sostin və başqaları iştirak ediblər.

Bu ali məktəbin nəzdində isə bir neçə ildir ki, Bakı Slavyan Universitetinin dəstəyi ilə Azərbaycan Tədris-Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Tədbirdə Azərbaycanın Xarkov şəhərindəki fəxri konsulu Əfqan Salmanov, Azərbaycan Tədris-Mədəniyyət Mərkəzinin direktoru, dosent Yaşar Alxasov Xocalı qırğını ilə bərabər, poltavalı leytenant Oleq Babakın igidliyindən danışıblar. Universitetin rektoru Aleksey Nestulya və digər ictimaiyyət nümayəndələri çıxışlarında Azərbaycan xalqının haqq işi uğrunda mübarizəsini dəstəklədiklərini bildiriblər.[52]

---

[51] https://www.aznews.az/news/dunya/78726.html

[52] https://azertag.az/xeber/bes_yuzden_chox_poltavali_xocali_soyqirimi_

Azərbaycan və Ukraynanın Dövlət himnləri səsləndirildikdən sonra çıxış edən səfir Seymur Mərdəliyev bildirib ki, Azərbaycan dövləti irqindən, milliyyətindən asılı olmayaraq, Vətənimizin bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçənlərin hər birinin xatirəsini əziz tutur, ailələrinə yardımlarını davam etdirir. Belə qəhrəmanlardan biri də 1991-ci ildə Qubadlı rayonunda mülki vətəndaşlarımızı ermə





---

ile_bagli_azerbaycan_xalqinin_kederini_bolusmek_uchun_toplasdi-833739

ni silahlılarından qoruyarkən həlak olan ukraynalı Oleq Babakdır. “Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən dövlətimiz Oleq Babakın ailəsinə daim qayğı göstərir. Oleq Babakın ruhu da şaddır, çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Ordumuz işğal altındakı torpaqlarımızı, o cümlədən Qubadlı rayonunu azad edib. İndi həmin ərazilərdə yenidənqurma və bərpa işləri aparılır”- səfir Seymur Mərdəliyev deyib. Sonra çıxış edən Poltava Hərbi Administrasiyasının sədr müavini Anton Çubenko, Administrasiyanın Müharibə Veteranları və Şəhid Ailələri üzrə Məsləhət Şurasının sədri İvan Petrenko, Azərbaycanın Poltavadakı diasporunun rəhbəri Füzuli Qənbərov Oleq Babakın keçdiyi qəhrəmanlıq yolundan, Azərbaycan-Ukrayna dostluğundan danışıblar. O.Babakın atası Yakov Babak göstərilən diqqət və qayğıya görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. “Azərbaycan dövləti bizə hər zaman yardım edir. Bu, bizə yaxşı yaşamağa kömək edir. Bizi unutmadığı üçün Azərbaycan dövlətinə təşəkkür edirəm”, - deyə Yakov Babak bildirib.[53]




[53]https://azertag.az/xeber/qubadlida_ermeniler_terefinden_qetle_yetirilen_ukraynali_oleq_babakin_xatiresi_poltavada_anilib_video-37500033

## 35 il oldu. Oleq Babak: 07.04.1991-07.04.2026.




🇺🇦Ukraynalı olaraq doğuldu.

🇦🇿Azərbaycanlı olaraq ürəklərdə yaşadı. 2026-cı il 7 aprel tarixində biz Sovet İttifaqının sonuncu Qəhrəmanı Oleq Babakın əziz xatirəsini yad edirik. Onun adı Azərbaycan xalqının yaddaşında əbədi qəhrəmanlıq rəmzi kimi yaşayır. O, cəmi 24 yaşında olmasına baxmayaraq, şərəfin, cəsarətin, insanlıq borcunun və zabit ləyaqətinin ən ali nümunəsini göstərdi, dinc sakinlərlə birlikdə silahlı hücuma məruz qaldı. Qarşısında ağır seçim vardı: özünü xilas etmək, yoxsa sonadək insanları qorumaq. O, tərəddüd etmədən şərəfi, insanlığı, qəhrəmanlığı seçdi. Təslim olmaq tələblərinə baxmayaraq, geri çəkilmədi, dinc insanları qorudu və son gülləsinə qədər vuruşaraq qəhrəmancasına həlak oldu. Onun şücaəti nəticəsində insanlar xilas oldu, qəhrəmanlığı Azərbaycan ilə Ukrayna xalqları arasında qardaşlığın, dostluğun və qarşılıqlı hörmətin ən uca rəmzlərindən birinə çevrildi. Xilas etdiyi insanlar onu böyük Azərbaycan qəhrəmanının şərəfinə Babək adlandırırdılar. Bu isə onun qazandığı ən uca mənəvi zirvələrdən biridir. Bu gün biz Oleq Babakı yalnız bir qəhrəman kimi deyil, öz canını başqalarının həyatı naminə fəda etmiş böyük ürək sahibi kimi yad edirik.

Onun adı daim yaşayacaq, xatirəsi qəlbimizdən heç zaman silinməyəcək.

Qəhrəmanımızın ruhu şad olsun!  Qəhrəmanlar ölmür!

Onlar xalqın yaddaşında və qəlbində əbədi yaşayırlar.[54]




[54]https://www.facebook.com/story.php?story_fbid=1284401360511650&id=100068253938145&post_id=100068253938145_1284401360511650&rdid=z4nfAtwtfAaJjL7C#

## MÜƏLLİFDƏN SON SÖZ

Mən Oleqi Qubadlı rayon İcraiyyə Komitəsində işləyəndə görüb tanımışdım, həmsöhbət olmuşdum. Yaraşıqlı sifətindən yeniyetmə təbəssümü çəkilməmiş, üz-gözündən paklıq yağan bu leytenantın çöhrəsi yaddaşıma əbədi yazılmışdı. Rayon İcraiyyə Komitəsi, ardınca da İcra hakimiyyətində işlədiyim vəzifəmin adı belə idi: "Daimi yaşayış yerlərini məcburi tərk etmiş vətəndaşlarla iş üzrə məsul təlimatçı". Hər dəfə işimlə bağlı sərhəd kəndlərində olarkən postlardakı milis, əsgərlərlə də görüşürdüm. Rəsmi Moskvanın məkrli oyunlarının girovuna çevrilən iki qonşu respublika ilə yanaşı bu gənclərin də halına acıyırdım, xəyalımdan keçirdi ki, axı belə gənclər nə üçün öz vətənlərindən, doğma ailələrindən uzaq düşüb bu ucqarlarda mərkəzdən yönəldilən mənasız idbar münaqişələrə cəlb olunmalıdır. Oleqin qəhrəmanlığı, qətlə yetirilməsinin təfərrüatları barədə ilk xəbəri AZƏRTAC vasitəsilə mən yaymışdım, ötən illər ərzində haqqında dəfələrlə yazmışam. "525-ci qəzet"də çıxan bu yazımı xeyli ukraynalı izləyici də paylaşmışdı: "Sonuncu Sovet İttifaqı Qəhrəmanı - Qubadlıda şəhid olan ukraynalı".[55] Oleq haqqında Azərbaycan və rus dillərində mənim də iştirakımla vikipediya məqaləsi hazırlanıb[56], Rusiya və Ukrayna mətbuatında da Oleq

---

[55] https://525.az/news/190327-sonuncu-sovet-ittifaqi-qehremani--qubadlida-sehid-olan-ukraynali 525-ci qəzet - Sonuncu Sovet İttifaqı Qəhrəmanı -Qubadlıda şəhid olan ukraynalı

[56] https://az.wikipedia.org/wiki/Oleq_Babak https://star-wiki.ru/wiki/Oleg_Babak

haqqında xeyli yazı gedib.[57] Minnətdarlıq hissləri ilə bildirirəm ki, bu kitabı hazırlayanda ən çox yararlandığım mənbə CBC TV, AzTV, Xəzər TV-nin Oleq Babak haqqında çəkdiyi, "youtube.com"da yerləşdirilmiş, Azərbaycan, ukrain, rus dillərindəki sənədli filmlər, videoçarxlar, video çəkilişlər oldu.[58] "google.az" axtarış məlumat bazasında Oleq Babak haqqında 100-dən çox material var.[59] Oleq haqqında yayılan bütün xəbərlərdə, haqqında çıxan yazılarda onun hərbçi dostları ilə birlikdə 1991-ci il aprelin 7-də azı 70 erməni terrorçu dəstəsi ilə 2 saatdan artıq müddətdə vuruşduğu, bu döyüşdə azı 24 banditin öldürüldüyünü yazılır.[60] Ancaq burada həmin gün şəhid olan Yuxarı Cibiklinin gənc sakinləri Qəriblə Şahinin öldürdüyü ermənilərin də olduğu gərək unudulmasın. Rus saytları da hücum edən ermənilərin sayının 80-dək olduğunu yazır. Şahidlərin də dediyinə görə, gələnlərin bir çoxu əvvəlcədən planlandığı kimi, kənd sakinlərinin evlərinin, mal-mülklərinin talan, qarət

---

[57] https://armiya.az/ru/news/150699
https://dic.academic.ru/dic.nsf/ruwiki/1737353
https://ewikiaz.top/wiki/Oleg_Babak
https://kiev.mfa.gov.az/az/news/3279/poltavada-qubadlida-ermeniler-terefinden-qetle-yetirilen-oleq-babakin-xatiresi-anilib
[58] https://www.youtube.com/watch?v=HjzPv1slQns
https://www.youtube.com/watch?v=nsKUSyVgsBs
https://www.youtube.com/watch?v=QIt7gOoKwFc
https://www.youtube.com/watch?v=G7xqirV_Fcs
https://www.youtube.com/watch?v=0Oks67iV1iY
[59] https://www.google.com/search?kgmid=/g/121y51h5&hl=az-AZ&q=Oleq+Babak
[60] https://news.day.az/politics/386404.html

edilməsində qənimət toplamaq niyəti ilə avtobus və yük maşınları ilə gələnlər olmuşdu.

Oleq haqqında feysbukda rus dilndə çox sayda oxunma yığan yazılardan birini təqdim edirəm:




**Олег Яковлевич Бабак (25 февраля 1967, Виктория, Полтавская область — 7 апреля 1991, Юхары-Джибикли, Губадлинский район***)*

*“Последний герой советского союза Олег Бабак*

*17 сентября 1991 года последним звания Героя Советского Союза (Золотая Звезда № 12772) посмертно удостоен лейтенант ВВ РФ Олег Яковлевич Бабак за мужество и героизм при защите населения в Карабахе. Он оказался единственным, кто после Великой Отечественной войны получил это звание в рядах внутренних войск, и первым Героем Советского Союза, кому это звание*

*присвоили при разрешении межнациональных конфликтов. По окончании училища в 1989 году служил в 21-й бригаде особого назначения внутренних войск МВД СССР (посёлок Софрино Московской области) в должности заместителя командира роты по политической части. Неоднократно направлялся в командировки в зону межнационального армяно-азербайджанского конфликта (за полтора года офицерской службы находился в «горячих точках» 385 суток). С марта 1991 года заместитель командира роты по политической части 21-й бригады особого назначения лейтенант Олег Бабак в составе подразделений внутренних войск выполнял задачу по охране общественного порядка в Кубатлинском районе Азербайджанской ССР. 7 апреля 1991 года, в день православной Пасхи, получив сообщение об убийстве жителя азербайджанского посёлка Юхары Джибикли, расположенного вблизи автотрассы Горис— Кафан, лейтенант Бабак с группой военнослужащих прибыл на место происшествия, где подвергся нападению вооружённого отряда дашнаков численностью до восьмидесяти человек. По словам его сослуживцев, он до последнего верил, что армяне не смогут в Светлое Христово Воскресенье нарушить самую святую заповедь «Не убий». Но, Олег, увы, даже после долгих месяцев службы, видимо, все равно плохо знал нравы, порядки и принципы дашнаков. Олег, его товарищи и несколько мирных жителей попали под обстрел. Лейтенант Бабак приказал отступать всем, лишь попросив оставить ему патроны. «Оставляйте патроны мне, а сами отступайте!».*



*Это был последний приказ лейтенанта. Через некоторое время бандиты, среди которых, как потом стало известно, были и наемники, окружили молодого офицера. 80 боевиков так и не смогли справиться с ним в бою. Они убили Советского офицера по-шакальи, выстрелом в спину. Уже потом стало известно, что в ходе перестрелки боевики предлагали Бабаку и его товарищам уходить самим, оставив на поле боя лишь азербайджанского милиционера, раненого, но продолжавшего отстреливаться, и мирных азербайджанских жителей. Но Бабак такой вариант, естественно, даже не рассматривал. Приказав сослуживцам отступать вместе с мирными жителями, он в одиночку решил прикрыть их и весь удар взял на себя.*

*В результате его самоотверженных действий была сохранена жизнь подчинённых и предотвращена расправа над мирными жителями. В Карабахе ему оставалось дослужить один месяц. В мае собирался вернуться в родное село и сыграть свадьбу... Похоронен в родном селе Виктория.»* [61]

[61] https://azconsulate.com.ua/ru/oleg-babak-geroj-kotoryj-obedinyaet-ukrainskij-i-azerbajdanskij-narody/




Bəzi faktları dəqiqləşdirmək üçün istintaq orqanlarına müraciət etsək də, bütün təhqiqat və istintaq materiallarının rus-sovet hərbçi müstəntiqləri tərəfindən aparıldığı, ölkədə heç bir hüquqi sənəd olmadığını bildirdilər. Ancaq şahidlərin və həmin gün hadisə yerinə baxış keçirən sülhməramlı komandanlığın da şifahi məlumatına əsaslanaraq azı 24 banditin ölü, 6-nın yaralı olduğunu bildiriblər. Əlbəttə, bunların arasında həmin gün qətlə yetirilən Yuxarı Cibiklinin gənc sakinləri Qəriblə Şahinin öldürdüyü ermənilərin də olduğu şübhəsizdir.[62] Ölü sayı rəqəmi bəzi nüfuzlu saytlarda 30 yazılır.[63] Üstündən bir qərinə - 33 il keçdi. Bu dəfə qartımış rus imperiyası 3 günə Kiyevi, bütün Ukraynanı işğal edib Rusiyaya qatmaq xülyası ilə 4 ildir özünü Ukrayna burulğanına dürtüb, milyonlarla insanı yerindən yurdundan didərgin salıb, on minlərlə insanın ölümünə bais olub, hər iki dövlət II Dünya müharibəsindəki itkilər, dağıntılar həddindədir.

Ölkəmizin bu təcavüzə münasibətini, mövqeyini Azərbaycan Prezidenti İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə ukraynalı jurnalist Dmitri Qordonun sualını cavablandırarkən deyib. Jurnalist Azərbaycan

---

[62] https://www.facebook.com/watch/?v=191020164863330
[63] https://modern.az/qubadlida-helak-olan-sonuncu-sovet-ittifaqi-qehremani-ukraynali-zabitin-anasi-qubadli-alinanda-azerbaycanlilari-tebrik-edib/285166







Prezidentindən müharibə şəraitində Ukrayna xalqına nə məsləhət verə biləcəyini soruşub, bu cavabı alıb: “Məsləhətim Ukrayna vətəndaşlarına - heç vaxt işğalla barışmayın.”[64] Yəni Azərbaycanın yolu ilə gedin, torpaq, ərazi məsələsində heç bir güzəşt ola bilməz.

2022-ci il fevralın 24-də Rusiya Ukraynaya hücum edən günü sədri olduğum QHT-nin bu bəyanatı KİV-də yayıldı:

“*Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin etiraz bəyanatı: Rusiyanın Ukraynaya hücumunu lənətləyirik!*

*Rusiya fevralın 24-də dini, dili bir slavyan qardaşı Ukraynaya total hücuma keçdi; tarixinin ən böyük cinayətini, bağışlanmaz səhvini etdi.*

*Heç nə ilə əsaslandırılması, bəraət verilməsi mümkün olmayan bu müharibə təcavüzdür, aqressiyadır, beynəlxalq hü-*

---

[64] https://www.bakupost.az/ilham-eliyevden-ukraynalilara-hec-vaxt-isgalla-barismayin

*quqa tüpürməkdir və heç şübhəsiz, Putinin şəxsi ambisiyalarından, xəstə beynindən, azadlıq, demokratiyaya kin-nifrətindən doğan və məkrli düşüncə ilə verilən əmrdir, Rusiya dövlətinin velikorus şovinizminin mahiyyətini göstərən növbəti bədnam addımdır. Bu aqressiya müasir sivil dünya gerçəkliyini heç sayaraq qonşu ölkəyə qarşı ən müasir silahlarla, bütün hərbi gücü ilə hücuma keçən Putin rejiminin sonunun başlanğıcı olacaqdır.*

*Azərbaycan tarixinin tam iki yüz ilini Rusiyanın (çar, bolşevik, sovet) əsarətində olub, bu nədənlə zaman-zaman faciələr yaşayıb, bu dövlət xalqımıza Qəbi Azərbaycan, Qarabağ, Zəngəzur kimi sağalmaz yaralar vurub. Ona görə də bu aqressiyanı lənətləyir, dost ukrain xalqına böyük fəlakətlər gətirəcəyini görüb anlayır və deyirik: günahsız insanların həyatını məhv edən müharibələrə son! Ukrayna, qəlbimiz səninlə vurur, haqq, ədalət səninlədir, sən qalib olacaqsan!*

*Birliyin sədri Dr. Hacı Nərimanoğlu Abdulla,*
*24.02.2022".*[65]

[65] https://zengezur.com/index.php/component/content/article/rusiya-ukraina-aqresiya?catid=18&highlight=WyJhcXJlc3NpeWEiXQ==&Itemid=101




Və bu bəyanatı yazanda, yayanda, feysbukda paylaşanda hər dəfə gözümün qarşısına mənim Qubadlı torpağımda günahsız insanlarımızın gün-güzəranına, rahat yaşamına zəhər qatan, qənim kəsilən şərəfsizlərlə döyüşdə igidliklə savaşıb canını fəda edən Oleq Babak gəlib. 1978-ci ildə tələbə ikən turist qatarı ilə ilk dəfə Ukraynanı gəzdim, 1982-ci ildə Komsomolun Mərkəzi Komitəsnin (Azərbaycan LKGİ MK) nümayəndəsi kimi Biləcəri çağırış məntəqəsindən Ukraynanın Polşa ilə sərhəddinədək xüsusi qatarla 1200 azərbaycanlı çağırışçını Ukraynanın müxtəlif şəhərlərindəki hərbi hissələrə bölüşdürdük, o səfər gəncliyimin əziz xatirəsidir və sonrakı illərdə yenə Ukrayna səfərlərim, gəzintilərim oldu, ukrain xalqını, Kiyevi, Dunay çayını…cani-könüldən sevdim.



Bunu da qısaca xatırladım; Ukraynalılar slavyan dilli xalqlar arasında türksoylulara ən yaxın millətdir, Rusiyanın indi altını üstünə çevirdiyi Don, Dunay çayının sahilləri, paytaxt Kiyev, Krım, Luqansk, Donetsk, Çerniqov, Zaporojye, Xerson vilayətləri əsrlər boyu türk əsilli, türk soylu hun, skif, qıpçaq, peçeneq, kazakların da məskəni olub, bunu sübut edən arxiv materialları, sənədlər, qədim türk dillərində yazılı abidələr, toponimlər, türk mənşəli sözlər şahidlik edir, rus və ukrain tarixçiləri, bu günkü ukrainlərin soy-kökündən, etnogenezindən az-çox məlumatlı olan hər kəs bunu bilir. İki xalq arasında bu ağır günlərdə, Qarabağ müharibəsində xüsusilə açıq görünən, indi də davam edən mənəvi bağlılıqlar, cani-könüldən gələn ılıq münasibətlər də bunun üzə çıxan görüntüləridir. Eyni dərd, faciələr də insanları birləşdirən amillərdir; mən hər dəfə internetdə Ukraynanın rus bombaları ilə dağıdılan yaraşıqlı, abad kənd, şəhərlərini görəndə gözümün önünə gəlir xarabaya çevrilmiş öz doğma yurd-yuvam, Qarabağ və Zəngəzur ellərim, Ukraynada savaşan, həyatını itirən, yaralanan azərbaycanlı zabit, əsgərləri də düşünürəm. Oleqin qədim oğuz-türk yurdu Qubadlıda göstərdiyi şücaət, qəhrəmanlıq da öz rişəsini buralardan alır. Rusların Ukraynanın Poltava vilayətinin şəhər, kəndlərinə də yerdən, havadan top, mərmi yağdırdığını KİV-də oxuyub görən günü Oleq haqqında dəfələrlə yazdığım məqalələrdən yadımda əzbər qalan ünvana, Oleqin ata-anasına teleqram vurdum.

Oleqin valideynlərinin və ən yaxın dostu, Qubadlıda Oleqlə bir bölükdə xidmət keçən adaşı Oleq Sulimanın telefon nömrəsini aldım, dəfələrlə danışdıq, cani-könüldən onları Azərbaycana dəvət etdim, vəziyyət sakitləşənə qədər Bakıda,



ya da rayonlardan birində qalması üçün təmənnasız rahat şərait yaradılacağını bildirdim. Teleqramımı aldıqlarını deyib dəvəti razılıqla qarşılasalar da, səhhətlərinin yol getməyə imkan vermədiklərini dedilər. Mənim üçün çox xoş oldu ki, 8 noyabr 2020-ci il Zəfərindən bir neçə gün keçmiş qəhrəmanımız Oleq Babakın anası Nadejda İvanovna və Oleq Sulima mənə zəng edərək, bütün Azərbaycanlıları bu parlaq qələbə münasibətilə təbrik etdi və bütün Qubadlı sakinlərinə gözaydınlığı verdi. Bu barədə də KİV-də məlumat getmişdi.[66]

Ümid edirəm ki, əbədi olaraq tarixin arxivinə atılmış SSRİ kimi artıq mövcud olmayan bir dövlətin sonuncu "Sovet İttifaqı Qəhrəmanı" olmuş Oleq Babak qalib ölkəmizin də təltiflərini alacaqdır.

[66] https://modern.az/qubadlida-helak-olan-sonuncu-sovet-ittifaqi-qehremani-ukraynali-zabitin-anasi-qubadli-alinanda-azerbaycanlilari-tebrik-edib/285166







Ölkəmizin KİV-lərində, çox oxunan xəbər saytlarında yayılmış "**Nadejda Babak: "Ukraynada müharibə başlayanda bizi Bakıya dəvət etdilər "Report"un Şərqi Avropa bürosu ukraynalı zabitin ailəsinə baş çəkib"** başlıqlı yazıdan Azərbaycan Dövlətinə, Xalqına, Prezidentinə ehtiram ifadə edən bir parçanı olduğu kimi bura köçürürəm:

*"Anası Nadejda Babak bunları deyir: Ukraynada ötən il müharibə başlayandan sonra bizə azərbaycanlı jurnalist Bakıdan məktub yazdı. O, bizə Azərbaycana gəlməyimizi, evində qalmağımızı təklif etdi və bizi hər şeylə təmin edəcəyini bildirdi. Lakin biz getmədik. Bizimlə əlaqə quran, bizə kömək etmək istəyən bütün azərbaycanlılara təşəkkürümü bildirirəm. Bir neçə ay əvvəl Azərbaycan bizə müavinət ödəməyə başlayıb. Ərimə və mənə....Hər kəs bir-birinə yardım göstərməlidir, dəstək olmalıdır. Bizə göstərdikləri dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və digər şəxslərə minnətdarlığımı bildirirəm. Bu gün Ukrayna uğrunda bur sıra xalqlarla yanaşı, azərbaycanlılar da döyüşür. İzləyirəm. Mə-*

*nim oğlum kimi onlar da haqqın tərəfindədirlər. Onlara Tanrıdan güc və sağlamlıq arzulayıram"* (Müəllif: Mübariz Aslanov).[67]

Əziz oxucu! Bu kiçik həcmli kitabı yazmaqda məqsədim sizlərə Oleq Babakı tanıtmaq oldu, bu yolda ən çox köməyimə gələn CBC, AzTV, Xəzər televiziyalarının çəkdiyi 3 filmdə Oleqin döyüş yolu, Yuxarı Cibiklinin 7 aprel günü haqqında şahidlərin görüb danışdıqları oldu, onların dediklərini təkrar dinlədim, illərdir içimdə gəzdirdiyim duyğu, düşüncələrimdən keçirib kompüterin yaddaşına köçürdüm. Bu, mənim Şəhidlər haqqında 5-ci kitabımdır – ilk kitabımı isə dostum Əliyar Əliyevə həsr etmişdim. Bu kitabın nəşri Oleq Babakın və Yuxarı Cibikli kəndinin iki gəncinin - Şahin Hüseynov və Qərib Nəzərovun eyni gündə şəhid olmasının 35-ci ili ilə üst-üstə düşdü, kitabın nəşri barədə Azərbaycan və Ukraynada 15-dən çox qəzet, sayt məlumat yaydı.[68]

7 apreldə Ukraynadakı səfirlik və diasporumuz yenə də Oleq Babakın valideynlərini, məzarını ziyarət ediblər, bu kitab haqqında onlara məlumat veriblər. Bundan çox seviniblər. Qismət olursa, Oleqin valideynlərinə vəd etdiyim kimi, mənim də Yuxarı Cibikli sakinləri ilə birgə Poltavanın Viktoriya kəndinə gedib Oleqin məzarını ziyarət, əzizlərini görmək əhdim var.

Oleq Babak, Azərbaycan səni unutmadı, heç zaman da unutmayacaq!

---

[67] https://report.az/region-xeberleri/qarabagda-azerbaycanlilari-qoruyarken-helak-olan-ukraynali-zabitin-anasi-ukraynada-muharibe-baslayanda-bizi-bakiya-devet-etdiler
[68] https://azertag.az/print/4108675

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## OLEQ BABAK HAQQINDA YAZILANLAR


https://azertag.az/xeber/Zengezurun_Ermenistana_verilmesi_moteber_menbeler_ne_deyir-1755703).
https://525.az/news/284950-rusiya-zengezurun-ermenilere-verilmesi-barede-qerarlarina-yeniden-baxmalidir?name=xeberprint&kecid=1&news_id=284950
https://files.preslib.az/projects/aggression/ru/c2.pdf
https://azerbaijan.aza/related-information/6
https://armiya.az/ru/news/150699
https://web.archive.org/web/20160304102634/
http://www.bratishka.ru/zal/1_1.php
https://azvision.az/news/256242/--ssri-nin-son-qehremani--ermeniler-oleq-babaki-qarabagda-nece-oldurmusduler--hadisenin-sahidi-danisir--.html
"Azərbaycan xalqının Ukraynalı oğlu", Gəncə – 2021, 104 səh.
https://www.wikiwand.com/az/Yuxar%C4%B1_Cibikli
https://fe¬dai.az/?p=51981 "
https://www.you¬tu¬be.com/watc¬h?v=fw2wdMyEdU4
https://www.yenises.az/az/posts/detail/vhaci-nerimanoglu-yasar-ureklerde-adi-eliyarin-1671039325?fbclid=IwY2xjawQvExVleHRuA2FlbQIxMQBicmlkETFGU2hNSzhWS21YSkIzSlJzc3J0YwZhcHBfaWQQMjIyMDM5MTc4ODIwMDg5MgABHtSNbDhwwlWverLup0eXxvPn51gUZUyVhnXF-GyDwspzdyUfiS55Pr673GBm_aem_3vAIOtKcohuqZKXGn45RQg
https://525.az/news/145308-biz-doyusde-uduzmadiq-bir-xeberin-xatiresi
"Xalq qəzeti", 14 -17 sentyabr 1996-cı il.
https://president.az/az/articles/view/49394

https://zengezur.com/index.php/component/content/article/qubadli-see-breeze?catid=18&Itemid=101
https://ru.wikipedia.org/wiki/Олег_Яковлевич_Бабак
https://en.wikipedia.org/wiki/Oleg_Babak
https://apa.az/ru/xeber/azerbaydjanskaya-diaspora/xeber_v_ukraine_pochtena_pamyat_ubitogo_armyanam_-269082
https://azertag.az/xeber/qubadlida_ermeniler_terefinden_qetle_yetirilen_ukraynali_oleq_babakin_poltovada_yasayan_ailesine_yardim_gosterilib_video-2709676
https://azconsulate.com.ua/uk/z-dnem-narodzhennya-mamo-geroya/
https://azertag.az/ru/xeber/V_Poltave_otmechen_yubilei_materi_Geroya_Sovetskogo_Soyuza_ubitogo_armyanami_v_Gubadly_VIDEO-1820975
https://report.az/xarici-siyaset/ukraynada-muharibede-olen-yaralanan-ve-itkin-dusen-azerbaycanlilarin-sayi-melum-olub
https://zerkalo.az/v-ryadah-vs-ukrainy-voyuyut-okolo-500-etnicheskih-azerbajdzhantsev/
https://1news.az/news/20220517012715358-Azerbaidzhanets-Kirill-Agasiev-poluchil-zvanie-Geroi-Ukrainy-FOTO
https://www.amerikaninsesi.org/a/7229060.html
https://az.wikipedia.org/wiki/Rusiya%E2%80%93Ukrayna_m%C3%BCharib%C9%99sind%C9%99_az%C9%99rbaycanl%C4%B1lar
https://modern.az/reportaj/343253/media-ukraynada-dyusen-azerbaycanli-bacilardan-yazir-fotolar/
https://modern.az/reportaj/449903/ukrayanada-dyushen-tek-azerbaycanli-xanim-men-her-iki-xalqin-numayendesiyem-fotolar/
https://modern.az/reportaj/449903/ukrayanada-dyushen-tek-azerbaycanli-xanim-men-her-iki-xalqin-numayendesiyem-fotolar/
https://turan.az/ru/obshhestvo/v-xersonskoi-oblasti-pogibli-dvoe-grazdan-azerbaidzana-768388

https://qafqazinfo.az/news/detail/ukraynada-daha-2-azerbaycanli-helak-oldu-372467
https://www.facebook.com/KonqressAzeUkr
https://www.bbc.com/azeri/articles/cvgvyw9lvj7o
https://azertag.az/xeber/sabiq_deputat_azerbaycanin_vetenperver_oglu_general_vladimir_timosenkonun_70_yasi_varazerbaycan_meneviyyat_diyaridirodlar_diyarini_ilk_defe_gorende_bu_qenaete_gelmis_general_vladimir_timosenko_onu_omurluk_sevmisdir-193862
https://azconsulate.com.ua/uk/zustrich-prezydentiv-azerbajdzhanu-ta-ukrayiny-u-baku-nova-arhitektura-bezpeky-i-spivrobitnytstva/?fbclid=IwY2xjawRizB9leHRuA2FlbQIxMQBzcnRjBmFwcF9pZBAyMjIwMzkxNzg4MjAwODkyAAEeyS-bZ0DYS-gXeIFHb61kWohLtscbvdrQNlBRS_c4AUreM84U2eq8N9Jf8pg_aem_fQj4d-i7Jw8sCfYXcsWYlA
https://azertag.az/xeber/qubadlida_ermeniler_terefinden_qetle_yetirilen_ukraynali_oleq_babakin_xatiresi_poltavada_anilib_video-3750003
https://modern.az/az/aktual/297005/azerbaycanin-xarkovdaki-fexri-konsulu-sovet-ittifaqi-qehremanin-ailesinde-olub/
https://az.wikipedia.org/wiki/Rusiya%E2%80%93Ukrayna_m%C3%BCharib%C9%99sind%C9%99_az%C9%99rbaycanl%C4%B1lar
https://www.facebook.com/watch/?v=576939414210762
https://www.youtube.com/watch?v=NnBofpHjU5s 9.42
https://www.youtube.com/watch?v=3Eo98bP3WkM
https://modern.az/qubadlida-helak-olan-sonuncu-sovet-ittifaqi-qehremani-ukraynali-zabitin-anasi-qubadli-alinanda-azerbaycanlilari-tebrik-edib/285166
https://azertag.az/xeber/ukraynanin_poltava_seherinde_azerbaycanin_yeni_diaspor_teskilati_yaradilib_video-1934722
https://diaspor.gov.az/az/news-detail/poltavadaki-diaspor-teskilatinin-rehberine-medal-teqdim-olunub-5360

https://president.az/az/articles/view/64099
https://baku.tv/siyaset/ilham-eliyev-rusiya-ukrayna-muharibesinden-danisdi
https://e-qanun.az/framework/60348
https://modern.az/az/olke/514365/azerbaycanda-273-ukraynali-ushaq-reabilitasiyadan-kechib/
https://azertag.az/xeber/poltavada_xocali_faciesinin_22_ci_ildonumune_ve_qarabag_muharibesi_qehremani_oleq_babakin_dogum_gunune_hesr_olunmus_tedbir_kechirilmisdir-56170
https://apa.az/ru/xeber/azerbaydjanskaya-diaspora/xeber_v_ukraine_pochtena_pamyat_ubitogo_armyanam_-269082
https://teleqraf.az/news/toplum/287615.html
https://azertag.az/xeber/azerbaycan_dovleti_qehremanlarini_unutmur_oleq_babakin_xatiresi_poltavada_anilib-3437471
https://azertag.az/xeber/poltavada_qubadlida_ermeniler_terefinden_qetle_yetirilen_sovet_ittifaqi_qehremaninin_anasinin_yubileyi_qeyd_edilib_video-1820827
https://www.aznews.az/news/dunya/78726.html
https://azertag.az/xeber/bes_yuzden_chox_poltavali_xocali_soyqirimi_
ile_bagli_azerbaycan_xalqinin_kederini_bolusmek_uchun_toplasdi-833739
https://azertag.az/xeber/qubadlida_ermeniler_terefinden_qetle_yetirilen_ukraynali_oleq_babakin_xatiresi_poltavada_anilib_video-37500033
https://www.facebook.com/story.php?story_fbid=1284401360511650&id=100068253938145&post_id=100068253938145_1284401360511650&rdid=z4nfAtwtfAaJjL7C#
https://525.az/news/190327-sonuncu-sovet-ittifaqi-qehremani--qubadlida-sehid-olan-ukraynali 525-ci qəzet - Sonuncu Sovet İttifaqı Qəhrəmanı -Qubadlıda şəhid olan ukraynalı
https://az.wikipedia.org/wiki/Oleq_Babak https://star-wiki.ru/wiki/Oleg_Babak

https://armiya.az/ru/news/150699
https://dic.academic.ru/dic.nsf/ruwiki/1737353
https://ewikiaz.top/wiki/Oleg_Babak
https://kiev.mfa.gov.az/az/news/3279/poltavada-qubadlida-ermeniler-terefinden-qetle-yetirilen-oleq-babakin-xatiresi-anilib
https://www.youtube.com/watch?v=HjzPv1slQns
https://www.youtube.com/watch?v=nsKUSyVgsBs
https://www.youtube.com/watch?v=QIt7gOoKwFc
https://www.youtube.com/watch?v=G7xqirV_Fcs
https://www.youtube.com/watch?v=0Oks67iV1iY
https://www.google.com/search?kgmid=/g/121y51h5&hl=az-AZ&q=Oleq+Babak
https://news.day.az/politics/386404.html
https://azconsulate.com.ua/ru/oleg-babak-geroj-kotoryj-obedinyaet-ukrainskij-i-azerbajdanskij-narody/
https://www.facebook.com/watch/?v=191020164863330
https://modern.az/qubadlida-helak-olan-sonuncu-sovet-ittifaqi-qehremani-ukraynali-zabitin-anasi-qubadli-alinanda-azerbaycanlilari-tebrik-edib/285166
https://www.bakupost.az/ilham-eliyevden-ukraynalilara-hec-vaxt-isgalla-barismayin
https://zengezur.com/index.php/component/content/article/rusiya-ukraina-aqresiya?catid=18&highlight=WyJhcXJlc3NpeWEiXQ==&Itemid=101
https://modern.az/qubadlida-helak-olan-sonuncu-sovet-ittifaqi-qehremani-ukraynali-zabitin-anasi-qubadli-alinanda-azerbaycanlilari-tebrik-edib/285166
https://report.az/region-xeberleri/qarabagda-azerbaycanlilari-qoruyarken-helak-olan-ukraynali-zabitin-anasi-ukraynada-muharibe-baslayanda-bizi-bakiya-devet-etdiler
https://azertag.az/print/4108675

**Hacı Nərimanoğlu**

# OLEQ BABAK,
# AZƏRBAYCAN
# SƏNİ
# UNUTMAYACAQ!

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Röya Nəsirova

---

Yığılmağa verilmişdir: 03.05.2026
Çapa imzalanmışdır: 08.05.2026
Format: 60×84 1/16; şərti çap vərəqi 12
Sifariş № 436; tiraj 380 nüsxə
Qiyməti: pulsuz
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69
e-mail: fuyuzat2020@gmail.com